NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN STRATEJİ FƏALİYYƏT PLANI DAVAMLI İNKİŞAFA HƏDƏFLƏNİB
səhifə-7-də

Parlaq Zəfərin, tarixi Qələbənin günü: 8 Noyabr
səhifə-8-də

VƏTƏN MÜDAFİƏÇİLƏRİNİN GƏLƏCƏK XİLASKARLARI
səhifə-10-da

CƏMİYYƏTİN MEMARI – MÜƏLLİM
səhifə-15-də

QƏLBİ VƏTƏNLƏ DÖYÜNƏN QADIN
səhifə-16-da

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*




# YENİ FİKİR

TƏSİSÇİ: *NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ*

6 noyabr bazar, 2022-ci il, № 5 (47)


## ALİ TƏHSİL OCAĞININ REKTORU BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK EDİB

*Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) təşkilatçılığı ilə Bakıda "Təhsildə davamlı keyfiyyət təminatı" adlı Beynəlxalq konfrans keçirilib.*



Konfransda keyfiyyət təminatı sahəsi üzrə Avropa və dünyanın qabaqcıl beynəlxalq və milli təşkilatlarının Avropa Ali Təhsil Keyfiyyət Etibarlılığı Birliyi (ENQA), Mərkəzi və Şərqi Avropa Keyfiyyət Təminatı Agentliyi Şəbəkəsi (CEENQA), universitet rəhbərləri, daxili keyfiyyət strukturunun əməkdaşları, Təhsil İdarəsi və Bakı şəhər Təhsil Şöbəsinin əməkdaşları iştirak ediblər. Beynəlxalq konfransda Naxçıvan Dövlət Universitetini ali təhsil müəssisəsinin rektoru Elbrus İsayev və Keyfiyyət Təminatı Mərkəzinin məsul şəxsi Əkrəm Hüseynzadə təmsil edib.

Elm və təhsil naziri Emin Əmrullayev konfransda çıxışında Azərbaycan təhsil məkanında Boloniya prosesi çərçivəsində həyata keçirilən islahatlar və ali təhsilin keyfiyyətinin artırılmasında görülən və planlaşdırılan işlərdən danışıb. Nazir qarşıda duran hədəflərdən biri olan Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təmin olunması üzrə Avropa Standartları və Təlimatlarına (ESG) uyğun olaraq təhsil pillələri üzrə davamlı keyfiyyətin təmin olunması məsələsinin vacibliyini vurğulayıb.

TKTA-nın İdarə Heyətinin sədri Ülkər Səttarova Agentlik tərəfindən keyfiyyət təminatı istiqamətində görülən işlər, əldə edilən nəticələr və gələcək planlar haqqında tədbir iştirakçılarını məlumatlandırıb.

İki gün davam edən Konfransın ilk günündə panel müzakirələr zamanı keyfiyyət təminatı sahəsi üzrə Avropa və dünyanın qabaqcıl beynəlxalq təşkilatlarından olan Niderland Krallığının Təhsil üzrə İnspeksiya İdarəsinin Ali Təhsil Departamentinin direktoru Hendrik Martijnse, Ali təhsil üzrə beynəlxalq ekspert, 2009-2013-cü illərdə Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Assosiasiyasının (ENQA) prezidenti olmuş Achim Hopbach, Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Mərkəzi və Şərqi Avropa Şəbəkəsinin (CEENQA) vitse-prezidenti Olgun Çiçek, Təhsil İnstitutunun direktoru Rüfət Əzizov, Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev ali təhsildə daxili və xarici keyfiyyət təminatı sisteminin Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlara (ESG) uyğun təşkil edilməsi, ümumi və ali təhsil pillələri arasında keyfiyyət təminatının davamlılığının təmin edilməsi barədə müzakirələr aparıblar.

Konfransın ikinci günündə isə ali və ümumi təhsil müəssisələrinin nümayəndələri üçün beynəlxalq ekspertlər tərəfindən praktik təlimlər keçirilib.

## AVROPALI DİPLOMATLAR NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLUBLAR

***Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Petr Mixalko və onun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.***



Ali təhsil ocağının Beynəlxalq münasibətlər və hüquq fakültəsində keçirilən görüşdə universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb, geniş tərkibdə diplomatik heyəti burada qarşılamaqdan məmnunluq hissini ifadə edib. Rektor bu il 55 yaşı tamam olan ali təhsil ocağının beynəlxalq əlaqələrdə qazandığı uğurları diqqətə çatdırıb. Qeyd edilib ki, rəhbərlik etdiyi ali təhsil ocağı beynəlxalq əməkdaşlıqda Avropa universitetləri ilə əlaqələrə xüsusilə üstünlük verir. Vurğulanıb ki, bu gün burada olan diplomatik nümayəndəliklərin əksəriyyəti Naxçıvan Dövlət Universitetində bir neçə dəfə olub, tələbələr üçün mühazirə deyiblər. Elbrus İsayev ERASMUS layihəsi çərçivəsində ali təhsil ocağının Avropa İttifaqına üzv olan ölkə universitetləri ilə apardığı beynəlxalq əməkdaşlıqdan bəhs edib. Diqqətə çatdırılıb ki, bu layihə çərçivəsində Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti Avropa ölkələrində müxtəlif təlimlərdə iştirak edib və təcrübə əldə ediblər.

Almaniya dövləti ilə olan əlaqələrdə tibb təhsilinin təkmilləşdirilməsi və peşəkar təcrübənin əldə olunması məsələlərinin durduğunu deyən rektor universitet müəllimlərinin TEMPUS, Erasmus+Nizami layihəsi çərçivəsində Almaniya universitetlərində təlimlər keçdiyini qeyd edib. Fransız dilinin tədrisi ilə bağlı Fransa dövləti ilə səmərəli əməkdaşlıqdan söz açılıb.

Rektor ERASMUS+NİZAMİ layihəsi çərçivəsində İsveç, MUMENA layihəsi çərçivəsində Niderland, AESOP layihəsi çərçivəsində Polşa, ERASMUS HUMERIA proqramı çərçivəsində Estoniya, TEMPUS layihəsi çərçivəsində Belçika, TEMPUS MUMENA, TEMPUS CURDEUS layihələri çərçivəsində İtaliya, Latviya, Litva ölkələrinin universitetləri ilə aparılan beynəlxalq əməkdaşlıqların tarixinə nəzər salıb.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Petr Mixalko hər kəsi salamlayıb və Naxçıvan Dövlət Universitetində olmaqdan şad olduğunu ifadə edib. İnsan kapitalı istənilən cəmiyyətin təməlini və əsas sütununu təşkil edir-deyən səfir insanların bilik və bacarıqlarının artırılmasının cəmiyyətin inkişafına mühüm töhvə verdiyini qeyd edib. Diplomat Azərbaycan ilə Avropa İttifaqı arasında ticarət və mal dövriyyəsi ilə bərabər təhsil sahəsində də qazanılan uğurlardan bəhs edib və bildirilib ki, çox sevindirici haldır ki, bu göstərici bu il ən yüksək nəticə ilə yadda qalıb. Səfir Azərbaycan universitetlərinin ERASMUS layihəsi çərçivəsində Avropa İttifaqı ilə üzv olan ölkələr arasında beynəlxalq əməkdaşlığından söz açaraq qrant layihələrdə qazanılan uğurları diqqətə çatdırıb.

Qeyd edək ki, görüşdə Almaniya, Fransa, Niderland, Polşa, İsveç, Belçika, Çexiya, Finlandiya, Slovakiya, İtaliya, Rumıniya, Xorvatiya, Estoniya, Latviya, Litva respublikalarının Azərbaycandakı səfirləri iştirak ediblər.

**Səadət Əliyeva**

## BİRGƏ ƏMƏKDAŞLIĞIN ƏSASI QOYULUB

*Azərbaycan Respublikası Prokurorluğu orqanları ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi məqsədilə Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov və rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olublar.*

Görüşün nəticələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu və Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanıb.

Müqavilədə ali təhsil ocağında Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin, doktorantların, müəllimlərin Baş Prokurorluğun struktur bölmələrində təcrübə keçməsi, ali təhsil ocağı tərəfindən metodik materiallar və elmi əsərlərə Baş Prokurorluğun müvafiq işçiləri tərəfindən, habelə Baş Prokurorluq tərəfindən hazırlanmış vəsaitlərə universitetin elmi heyəti tərəfindən rəylərin, tövsiyyələrin verilməsi, birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, elmi məqalələrin, vəsaitlərin və mətbu nəşrlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gəlinən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması və sair məsələlər öz əksini tapıb.



İkitərəfli görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev qonaqları salamlayıb. Rektor hər fakültənin ayrıca binada fəaliyyət göstərdiyini vurğulayaraq universitetdə mövcud müasir tədris üsulları haqda məlumat verib. Diqqətə çatdırılıb ki, dünyanın 130-dan artıq universiteti ilə beynəlxalq əməkdaşlığa malik olan ali təhsil ocağında 12 ölkədən 2200 əcnəbi tələbə təhsil alır. Rektor müvafiq ixtisasların hamiliyə verilməsinə dair Sərəncamları diqqətə çatdıraraq Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin aidiyyatı dövlət qurumlarında təcrübə keçdiklərini qeyd edib.

Elbrus İsayev həmçinin vurğulayıb ki, universitetdə 1996-cı ildən Hüquqşünaslıq ixtisası üzrə kadr hazırlığı həyata keçirilir. Bildirilib ki, muxtar respublikada hüquq-mühafizə orqanlarında çalışanların əksəriyyəti universitetin bu ixtisas üzrə məzunlarıdır. İndiyədək bu ixtisas üzrə 3127 tələbənin məzun olduğunu qeyd edən rektor diqqətə çatdırıb ki, hal-hazırda universitetdə Hüquqşünaslıq ixtisası üzrə əyani, qiyabi, əlavə ali təhsil olmaqla 502 tələbə təhsil alır. Magistratura səviyyəsində isə 4 ixtisaslaşma üzrə magistrant hazırlığı aparılır.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov bildirib ki, rəhbərlik etdiyi mərkəz Azərbaycan Respublikası Baş Prokurorluğunun müstəqil struktur qurumudur. Mərkəzin əsas vəzifə və funksiyalarından danışan Mübariz Əhmədov mərkəzin tabeliyində Elektron kitabxana fondunun gələcəkdə universitetin Elektron kitabxanası ilə inteqrasiyası barədə rəy və təkliflərini irəli sürüb.

Əməkdaşlıq müqaviləsində universitetin professor-müəllim heyətinin Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq orqanlarına yeni qəbul olunan və fəaliyyətdə olan işçilərin ixtisasartırma prosesinə cəlb edilməsi, tərəflərin müvafiq əməkdaşlarının nəzəri biliklərinin və peşə hazırlığının artırılması məqsədilə birgə təlim kurslarının, seminar-treninqlərin və mühazirələrin təşkili, universitetin tələbələrinin könüllülər qismində Baş Prokurorluğun struktur bölmələrində işə cəlb edilməsi məsələləri də qeyd olunub.

Müqavilədən sonra qonaqlar gətirdikləri kitabları universitetin rektoruna təqdim ediblər. Elbrus İsayev də öz növbəsində qonaqlara xatirə hədiyyəsi verdikdən sonra onlar birgə ali təhsil ocağının Beynəlxalq münasibətlər və hüquq fakültəsində, "Kriminalistika" laboratoriyasında olub, auditoriyada dərs prosesini izləyiblər.

**Səadət ƏLİYEVA**

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN NAXÇIVANDAKI BAŞ KONSULU İLƏ GÖRÜŞ

***Diplomatik xidmət müddəti başa çatmaqda olan Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsində təhsil alan tələbələrlə görüşü olub.***



Türkiyənin muxtar respublikadakı Baş Konsulluğu ilə universitet arasındakı səmərəli əməkdaşlıqdan bəhs edən rektor Elbrus İsayev iki qardaş ölkənin timsalında regionda inkişaf etmiş iki güclü dövlətin birliyinin bu ölkələrin müxtəlif sahələrinə, o cümlədən təhsil sahəsində informasiya və təcrübə mübadiləsinə təsirindən danışıb. “Azərbaycanın Türkiyə ilə qonşuluq siyasətində sərhədyanı bölgə olan Naxçıvanda bu təsir daha çox hiss olunur və universitetlərarası əlaqələrin inkişafında mütəmadi səfərlərin və görüşlərin keçirilməsi ilə Qərb təhsil sisteminin öyrənilməsi və mənimsənilməsi baxımından böyük təcrübi imkanlar əldə olunub”, – deyə rektor bildirib.

Tarixən Azərbaycan və Türkiyə dövlətlərinin çiyin-çiyinə mübarizəsindən, birlik və bərabərlik siyasətindən danışan Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz hələ XII əsrin əvvəllərindən etibarən son dövrlərədək baş vermiş hadisələrə nəzər salaraq, bütün bu proseslərdə Türkiyə Cümhuriyyətinin ölkəmizə qarşı qardaşlıq mövqeyinin dəyişməzliyini bir daha diqqətə çatdırıb. Konyada XV əsrə məxsus Baba Nemətullah Naxçıvani türbəsinin timsalında qarşılıqlı münasibətlərin dərin milli köklərə dayandığını bir sıra tarixi faktlarla vurğulayan diplomat, hələ sovet dönəmində Azərbaycanın Türkiyədə açılan səfirliyindən və ilk səfiri Ordubad sakini İbrahim Əbilovun səmərəli fəaliyyətinin əlaqələrin inkişafına müsbət təsirindən danışıb. Sonrakı dövrlərdə də davam edən iqtisadi, ticari, nəqliyyat və dövlət səviyyəli digər əməkdaşlıqların qazandırdığı nailiyyətlərin hər iki ölkə üçün faydalı olduğu diqqətə çatdırılıb. Baş konsul muxtar respublikada uğurlu diplomatik fəaliyyətinə yaradılan şərait, göstərilən qayğı üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Görüş zamanı tələbələrin suallarını cavablandıran Baş konsul təcrübəli diplomat olmaq üçün qarşıya qoyulan vəzifə və yerinə yetirilməli tapşırıqlar barədə onlara faydalı məsləhətlər verərək beynəlxalq münasibətlərdə və xarici əlaqələrdə diplomatiyanın müharibəni dayandıra biləcək gücə malik olduğunu bildirib.

Sonda xatirə plaketi və universitet tələbələrinin keramikadan hazırladığı əl işi sənətini türk diplomata təqdim edən rektor məhsuldar əməkdaşlığa görə minnətdarlığını bildirərək ona gələcək fəaliyyətində uğurlar arzu edib.

**Elnarə İSLAMLI**

***NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

***Ali təhsil ocağı ilə Britaniya şurası arasında əməkdaşlıq çərçivəsində IELTS imtahanlarının keçirilməsi ilə bağlı 2 gün müddətində təlim keçirilib.***

## BRİTANİYA ŞURASININ TƏMSİLÇİSİ TƏRƏFİNDƏN İKİ GÜNLÜK TƏLİM KEÇİRİLİB



Universitetin rektoru Elbrus İsayev keçirilən təlimin müəllim heyəti üçün önəmini vurğulayaraq bu cür təlimlərin gələcəkdə tələbələr üçün də faydalı olacağını qeyd edib. Diqqətə çatdırılıb ki, tələbələrin xarici dil biliklərini inkişaf etdirmək üçün müəllim dəstəyinin və texnoloji avadanlıqların lazımi səviyyədə olması xüsusi önəm kəsb edir. Tələbələrin IELTS imtahanlarında yüksək nəticə göstərdiklərini vurğulayan rektor bu uğurların qazanılmasında universitetin Xarici dillər fakültəsinin müəllim heyətinin böyük rolu olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, hal-hazırda “Xarici dillər” fakültəsində 6 əcnəbi dil üzrə ixtisaslar tədris olunur. Rektor onu da diqqətə çatdırıb ki, ali təhsil ocağının “İngilis dili və tərcümə” və “İngilis dili və metodika” kafedralarında bu sahə üzrə kadr hazırlığı diqqətdə saxlanılır. Rektor IELTS təhsil sistemində böyük nailiyyətlər və uğurlar qazanmaq üçün belə təlimlərin davamlı olmasının və dərslərdə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Bildirilib ki, universitetin qlobal rəqabətliliyini artıran IELTS qeydiyyat və imtahan mərkəzi universitetdə ingilisdilli təhsilin inkişafına öz töhfələrini verir. Elbrus İsayev vurğulayıb ki, ötən tədris ili müddətində 150-dən artıq müəllim və tələbənin IELTS sertifikatı ilə təmin olunması bunun bariz nümunəsidir.

Britaniya şurasının təmsilçisi tərəfindən keçirilən təlimdə müəllimlər ingilis dili metodologiyası, IELTS imtahanına hazırlıq, tələbələrin IELTS imtahanında yüksək nəticələr göstərməsi üçün dörd bacarıq üzrə vacib məqamların müzakirəsi və IELTS imtahanı haqqında ümumi biliklər əldə ediblər. Qeyd edək ki, təlimdə ümumilikdə 32 müəllim iştirak edib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Məlumat üçün onu da bildirək ki, sentyabrın 20-si Naxçıvan Dövlət Universitetində Britaniya şurası tərəfindən 3-cü rəsmi IELTS imtahanı keçirilib.

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ DÜNYA UNİVERSİTETLƏRİNİN REYTİNQİNDƏ







***Naxçıvan Dövlət Universiteti dünya universitetlərinin reytinqinə (World University Rankings 2023) növbəti dəfə adını yazmağı bacarıb.***

Naxçıvan Dövlət Universiteti Böyük Britaniyanın “Times Higher Education” nəşri üzrə dünya universitetlərinin reytinqində yer alıb. 104 ölkə və region üzrə 1799 universitetin qatıldığı reytinq sıralamasında bu il 15, 5 milyondan çox tədqiqat nəşri üzrə 121 milyondan çox sitat təhlil edilib və dünya üzrə 40000 alimin sorğu cavabları daxil edilib. Reytinqin ilk 10-luğu dünyanın ən nüfuzlu universitetlərindən təşkil olunub. Sıralama cədvəlinin hazırlanmasında tədqiqat, idarəetmə, təbliğat və tədris olmaqla 4 sahə üzrə universitetlərin göstəriciləri nəzərə alınıb. Reytinqin təyin edilməsində universitetlərin elm strategiyası, keyfiyyət göstəriciləri, beynəlxalq əlaqələri, əcnəbi tələbələrin sayı, alimlərin elmi nəşrləri əsas rol oynayıb.

Qeyd edək ki, “Times Higher Education” şirkəti dünyanın 93 ölkəsindən 2500 universitet ilə əməkdaşlıq edir və ali təhsil məkanında rəqabətliliyi formalaşdırır.Bu sistem üzərindən universitetlərin dünyada yeri, seçimi, keyfiyyəti və tanınması təmin olunur. Şirkətin sıralamasında yer alan universitetlərin diplomlarının xarici ölkələrdə tanınması prosesi avtomatlaşdırılır.

Universitetin Elm və innovasiyalar bölməsinin müdiri, təhsilin idarəolunması təftişi, planlaması və iqtisadiyyatı üzrə fəlsəfə doktoru, Bələdiyyə və turizm kafedrasının dosenti Rza Məmmədov ABŞ-ın Nyu York şəhərində “Times Higher Education” şirkətinin təşkilatçılığı və Nyu York Universitetində keçirilən “Dünya Akademik Sammit”ində ali təhsil ocağını təmsil edib. Sammitə 75 ölkədən 400-dən çox universitet və beynəlxalq təşkilatların nümayəndələri qatılıb.

Rza Məmmədov Times Higher Education şirkətinin baş redaktoru Phill Baty ilə görüşüb. Qeyd olunub ki, bu gün dünya akademik sammitində müzakirə olunan mövzuların bir çoxu NDU-da artıq həyata keçirilməkdədir. Ali təhsil ocağında elmi dərəcəli kadrların yetişdirilməsində və sahibkar universitet olma yolunda aparılan fəaliyyət diqqətə çatdırılıb.

Qeyd edək ki, cari ilin iyun ayında Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin rəhbərlik etdiyi nümayəndə heyəti Yaponiyanın Naqoya şəhərində nüfuzlu Asiya Universitetlərinin Sammitində iştirak edib. Onu da bildirmək yerinə düşər ki, NDU Qafqaz regionundan bu sammitə qatılan ilk ali təhsil müəssisəsidir.

**Səadət ƏLİYEVA**



## IELTS QEYDIYYAT VƏ İMTAHAN MƏRKƏZİNDƏ NÖVBƏTİ İMTAHAN

***Ali təhsil müəssisəsinin Xarici dillər fakültəsində yaradılan IELTS qeydiyyat və imtahan mərkəzində növbəti imtahan keçirilib. General IELTS olaraq nəzərdə tutulan imtahanda gömrük orqanları ilə əməkdaşlıq etmək istəyən 20 nəfərin bacarıqları qiymətləndirilib. İmtahanda oxuma və dinləmə prosesində sualların tərtib edilməsini, yazı və danışıq mərhələsində sualların hazırlanmasını Britaniya Şurası həyata keçirib.***

Qeyd edək ki, imtahanın keçirilməsində məqsəd sözügedən şəxslərin dil səviyyələrinin etibarlı imtahan vasitəsilə yoxlanılması olub.

Məlumat üçün onu da bildirək ki, mərkəz Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində yaradılıb, qeydiyyat və imtahan mərkəzi olaraq fəaliyyət göstərir. Mərkəz yaxın zamanda universitetdə ingilis dilində tədris olunan ixtisasların sayının artmasına və qeyri-ixtisaslarda çalışan əməkdaşların ingilis dili bacarıqlarının qiymətləndirilməsinə öz müsbət təsirini göstərməkdədir. Nəzərinizə çatdıraq ki, IELTS imtahanı qlobal olaraq əksər rəsmi təşkilat və prestijli universitetlər tərəfindən qəbul edilən imtahandır.

**Məmmədbağır DÜNYAMALIYEV**

***NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## I KURS MAGİSTRANTLARLA GÖRÜŞ OLUB

*Ali təhsil ocağında keçirilən görüşdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Sonra universitetin tanıtım videosu nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, bu il magistraturaya 250 yerə qarşı 204 magistrant qəbul olub. Hal-hazırda magistraturada 80 ixtisas üzrə kadr hazırlığı həyata keçirildiyini vurğulayan rektor Naxçıvan Dövlət Universitetinin ölkədə bu sahə üzrə I sırada olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, ali təhsil ocağında bakalavr təhsili ilə yanaşı magistr təhsili də daim diqqətdə saxlanılır. İxtisaslı kadrların hazırlanmasında magistr pilləsinin əhəmiyyətindən danışan rektor bu gün universitetin magistraturasını bitirən məzunların muxtar respublikanın təhsil sahəsinə mühüm töhfə verdiyini vurğulayıb. Magistr dərəcəsinə sahib olan şəxslərin ali təhsil müəssisələrində pedaqoji fəaliyyətlə yanaşı, ixtisası üzrə əmək fəaliyyəti ilə də məşğul ola biləcəklərini diqqətə çatdıran Elbrus İsayev magistrantları təbrik edərək, onlara uğurlar arzulayıb.

Magistratura mərkəzinin direktoru, biologiya üzrə elmlər doktoru, professor Etibar Məmmədov qeyd edib ki, magistratura pilləsində tələbələr artıq ümumi nəzəriyyə deyil, sırf ixtisasları üzrə təhsil alaraq özlərini təkmilləşdirir, elmi məqalələr, magistr dissertasiyası yazaraq, elmi fəaliyyətlərinin ilk mərhələsinə qədəm qoyurlar.



Muxtar respublikada magistratura üzrə ən yüksək nəticəni toplayan Azərbaycan dili ixtisaslaşması üzrə I kurs magistrant Səkinə Məmmədzadə ali təhsil ocağında tələbələrə göstərilən qayğıya görə minnətdarlıq edib.

## YENİ LABORATORİYA,KİTABXANA VƏ KABİNƏLƏRİN AÇILIŞI OLUB



*Ali təhsil ocağının Təbiətşünaslıq və Kənd təsərrüfatı fakültəsində "Sitologiya, Histologiya, Embriologiya", "Anatomiya" kabinələrinin, fakültə kitabxanasının və həmin fakültənin Baytarlıq təbabəti kafedrasında "Patologiya" kabinəsi və "Mikrobiologiya və virusologiya" laboratoriyasının açılışı olub.*

Universitetin rektoru Elbrus İsayev müasir maddi-texniki baza ilə təmin olunan kabinələrin faydalarından söz açıb. Qeyd edilib ki, müəllim və tələbə heyəti həm kimya, həm də biologiya ixtisasları üzrə bu kabinələrdə təcrübi işlər apararaq yeni nailiyyətlər əldə edə bilərlər.

Vurğulanıb ki, savadlı kadraların yetişməsi, onların peşəkar mütəxəssis kimi formalaşması üçün nəzəri biliklərin təcrübi biliklərlə vəhdəti xüsusi önəm kəsb edir. Məhz bu səbəbdən lazımi avadanlıqlar və dərs vəsaitləri ilə təmin olunan kabinələr tələbələrin elmi-nəzəri biliklərinin möhkəmləndirilməsində, onlara praktiki vərdişlərin aşılanmasında əhəmiyyətli rol oynayacaq. Bildirilib ki, tələbələr yeni fəaliyyətə başlayan bu kabinələrdə sərbəst işlərin, diplom işlərinin, layihələrin hazırlanmasında səmərəli istifadə edə bilərlər. Rektor kabinələrin peşəkar kadr hazırlığının aparılmasına mühüm töhfə verəcəyinə əminlik ifadə edib.

"Anatomiya" kabinəsi haqqında məlumat verən Biologiya kafedrasının müdiri, biologiya elmləri doktoru, dosent Daşqın Qənbərov bildirib ki, kabinə insanın daxili orqanı, döş qəfəsi, insan rüşeymi, ürək qəfəsi, aşağı və yuxarı ətrafın əzələləri, onurğa sistemi və beyni əks etdirən mulyaj, aşağı və yuxarı ətraf, kəllə skeletləri və digər maketlərlə zənginləşdirilib.

"Sitologiya, Histologiya və Embriologiya" kabinəsində davam edən görüşdə bitki və heyvan hüceyrəsini əks etdirən preparatlar haqqında məlumat verilib. Qeyd edilib ki, kabinələr ümumilikdə 46 mikroskop ilə təchiz olunub ki, bunlardan 43-ü işıq mikroskopu, 3-ü isə digital mikroskopdur. Bu mikroskoplar vasitəsilə tələbələr burada hazırlanan daimi və müvəqqəti preparatları tədqiq edə biləcəklər.

Fakültədə açılan yeni kitabxana ilə tanışlıq zamanı bildirilib ki, kitabxana müəllim və tələbələrin səmərəli istifadəsi üçün dərslik və dərs vəsaitləri ilə təmin olunub.

Baytarlıq kafedrasının müəllimi, baytarlıq üzrə fəlsəfə doktoru, dosent Yunis Rüstəmli "Mikrobiologiya və virusologiya" laboratoriyasında yaradılan şəraitdən danışıb. Qeyd edilib ki, laboratoriyada qram üsulu ilə boyama testi, endo aqarı, metilen mavisi, karbon funksini kimi preparatların köməyi ilə mikrobları əkmək, becərmək və onları mikroskoplar vasitəsilə identifikasiya etmək mümkündür.

Sonda Baytarlıq təbabəti kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent Mirvasif Seyidov kafedrada fəaliyyətə başlayan "Patologiya" kabinəsi haqqında məlumat verib. Bildirilib ki, kabinədə heyvan daxili orqanları təcrübi dərslərdə istifadə üçün xüsusi şəkildə qablaşdırılıb. Mirvasif Seyidov həmin orqanlarda exlokokus tumurcuqları, ağciyərdə çiçək zamanı patoloji dəyişikliklər və başqa xəstəliklərin dərslərdə təcrübi şəkildə tədris olunacağını vurğulayıb.

**Məmmədbağır DÜNYAMALIYEV**

*Ali təhsil ocağının Tarix-Filologiya fakültəsində "Muzeyşünaslıq" kabinəsinin açılışı olub.*

## "MUZEYŞÜNASLIQ" KABİNƏSİNİN TƏQDİMATI OLUB

Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, bu cür kabinələrin istifadəyə verilməsi təhsildə əyaniliyin artırılmasına xidmət edən əsas amillərdən biridir. Rektor yeni kabinənin açılışını "Arxiv işi və Muzeyşünaslıq" ixtisası üzrə təhsil alan tələbələrin təcrübi peşə bacarıqlarının formalaşması üçün yaradılan şəraitin növbəti təzahürü kimi dəyərləndirib. Qeyd edilib ki, kabinənin tələbələrin peşəkar kadr kimi yetişməsində əvəzsiz rolu olacaq, onlar burada maddi-mədəniyyət nümunələri ilə tanış olub, onlar haqqında ətraflı məlumat əldə edəcəklər. Rektor yeni istifadəyə verilən kabinənin işini yüksək qiymətləndirib və kabinədə qorunan qiymətli maddi-mədəniyyət nümunələrinin uçotu və mühafizəsinin xüsusi əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Elbrus İsayev "Muzeyşünaslıq" kabinəsinin açılışı münasibətilə fakültənin müəllim və tələbə heyətini təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.



Tarix-Filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Arif Ağalarov kabinənin açılmasında tələbələrin də böyük rolu olduğunu vurğulayıb. Qeyd edilib ki, "Arxiv işi və Muzeyşünaslıq" ixtisasında təhsil alan tələbələrə verilən sərbəst işlərin nəticəsi olaraq, onlar sözügedən kabinəyə 100-ə yaxın eksponat təqdim ediblər. Vurğulanıb ki, hal-hazırda bu ixtisas üzrə 56 tələbə təhsil alır. Ötən il "Arxiv işi və Muzeyşünaslıq" ixtisasından 90 tələbənin məzun olduğunu diqqətə çatdıran dekan, onlardan 25 nəfərin magistr təhsili aldığını, 40-dan çox tələbənin isə muxtar respublikada fəaliyyət göstərən muzeylərdə çalışdığını bildirib.

Sonra "Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Məmməd Əliyev kabinədə olan eksponatlar haqqında məlumat verib. Qeyd edilib ki, kabinəyə təqdim olunan maddi-mədəniyyət nümunələri arasında müxtəlif dövrlərə aid kitablar, xovlu xalça, saxsı qablar, kuzə, qırx açar camı, kələğayı, mis və saxsı qablar, duvaq, rəfətə, kömür ütüsü, toxuculuq aləti, su süzən daş, tərəzi, müxtəlif növ çıraqlar yer almaqdadır.

Sonda fakültə kitabxanasına baxış olub.

## DUZDAĞ FİZİOTERAPİYA MƏRKƏZİ POSTKOVİD SİNDROMLU XƏSTƏLƏRİN MÜALİCƏSİNDƏ ƏSAS REABİLİTASİYA MƏRKƏZİ HESAB OLUNUR



*Naxçıvan Dövlət Universitetində "Tibbin aktual problemləri: Postkovid sindromun spleoterapiyası" adlı elmi-praktik konfrans keçirilib. Konfransı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev muxtar respublikada bir neçə dəfə olmuş, tibb təlimlərində iştirak etmiş və ölkə səhiyyə sisteminə tanış alimlərdən olan Lalə Allahverdiyeva və Təranə Tağızadənin tibbi araşdırmalarını elmə böyük töhfə kimi qiymətləndirib.*

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov bildirib ki, səhiyyə turizmi dövlət büdcəsinin formalaşmasında böyük rol oynayır və bu sahədə əsas obyektlərdən olan Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksi və bir sıra müalicəvi bulaqlar muxtar respublikanın vizit kartı hesab oluna bilər.

"Duzdağ Fizioterapiya Mərkəzi"ndə Postkovid sindromunun reabilitasiya müalicəsi" mövzusunda çıxış edən ATU "Allerqologiya və immunologiya" kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, Əməkdar Həkim, tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva COVID-19 pandemiyasından sonra xəstələrdə postkovid sindromunun müşahidəsi halları və bu xəstələrin Duzdağ Fizioterapiya Mərkəzində reabilitasiyasının müsbət nəticələri barədə məlumat verib.

Məruzəçi qeyd edib ki, müalicə kurslarının sonunda xəstələrin əksəriyyətində əhvalın yaxşılaşması, laborator müayinələrin nəticələrində və psixo-emosional vəziyyətdə pozitiv dəyişikliklər müşahidə edilib.

ATU "II Uşaq xəstəlikləri" kafedrasının dosenti, Azərbaycan Pediatrlar Assosiasiyasının prezidenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağızadə "Azərbaycanda tibbi bioetikanın tarixi və inkişafı" mövzulu məruzəsində tibbi təhsil sistemində bioetikanın tədrisi təcrübə və perspektivləri barədə çıxış edib. Bioetika, normativ etika və deontologiya anlayışlarının elmi izahını verən məruzəçi insanlığın müasir dünyada yaşaması üçün potensial təhlükələr ilə əlaqəli olan etik problemləri göstərib.

Konfransda Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətinin üzvlərindən Mətləb İbrahimov, Elmar Rzayev, Gültəkin Əliyeva, Nüsrət Həsənov, Etibar Bababəyli və digər tibb alimləri əldə etdikləri yenilikləri iştirakçıların diqqətinə çatdırıblar.

Naxçıvan Dövlət Universitetinin "tədqiqatçı universitet" statusuna iddialı olduğunu vurğulayan rektor Elbrus İsayev bu sahədə tədqiqatçı alimlərin dünya təcrübəsinə əsaslanan araşdırmalarının mühüm rol oynadığını, tibb təhsilində davamlı inkişafın zəruri olduğunu qeyd edib. Konfransda tibb sahəsində gələcək perspektiv inkişaf istiqamətləri, elm sahəsində yeniliklər, yeni yanaşmalar və yeni elmi faktlar təqdim olunub.

**Elnarə İslamlı**
**NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı**

## FİZİKA MÜƏLLİMLİYİ İXTİSASI ÜZRƏ IV KURS TƏLƏBƏSİ TƏLİMDƏ İŞTİRAK EDİB

***Kvant elminin və texnologiyalarının müasir trendlərinə həsr olunmuş beynəlxalq yay məktəbində uğurla təmsil olunub.***

Beynəlxalq yay məktəbində Bakı Dövlət Universiteti və "Wolkswagen" Fondunun birgə təşkilatçılığı ilə "Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda təlim keçirilib. Təlimin məqsədi müasir kvant elminin qabaqcıl ideyalarını, yeni nəticələrini, mövcud problemlərini və inkişaf perspektivlərini, kvant texnologiyalarında mümkün tətbiqləri tələbələrə çatdırmaqdır. Yay məktəbində ümumilikdə 40-a yaxın məruzə dinlənilib. Bu təlimdə müxtəlif vaxtlarda İtaliyanın İnsubria, İsrailin Təl-Əviv, Almaniyanın Düsseldorf Henrix Heyne, Kanadanın Kalqari və başqa qabaqcıl universitetlərin professorları yay məktəbində Kvant fizikasının müxtəlif aspektlərinə aid məruzələr söyləyiblər. Yay məktəbində Qazaxıstan,



Özbəkistan, Tacikistan, Gürcüstan və Azərbaycanın bir sıra universitetlərindən olan tələbə və gənc tədqiqatçılar da iştirak ediblər.

Sonda məktəbi uğurla bitirən iştirakçılara, həmçinin "Ümumi və nəzəri fizika" kafedrasının Fizika müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Aytən Ağasiyevaya sertifikat təqdim olunub.

**Billurə Hacıyeva**
*"Ümumi və Nəzəri fizika" kafedrasının müdiri*

## "İNVAZİV RADİOLOGİYA – MÜASİR ELMİ YANAŞMALAR" MÖVZUSUNDA ELMİ SEMİNAR

***Naxçıvan Dövlət Universiteti və Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin təşkilatçılığı ilə ali təhsil ocağında elmi seminar keçirilib.***



Ali təhsil müəssisəsinin Tibb fakültəsində baş tutan tədbirdə universitetin rektoru Elbrus İsayev qeyd edib ki, ali təhsil ocağının göstəriciləri arasında Tibb fakültəsinin özünəməxsus yeri var. Universitetdə yaradılan müasir təlim-tədris imkanlarından söz açan rektor bildirib ki, ölkəmizin bir çox ali təhsil müəssisələrində olduğu kimi, Naxçıvan Dövlət Universitetində də müasir tədris infrastrukturu yaradılıb. Qeyd edilib ki, ali təhsil ocağında bütün ixtisaslar kimi Tibb fakültəsində də tələbələrin savadlı, hərtərəfli yetişməsi üçün hər bir şərait mövcuddur. Fakültədə yaradılan müasir texnologiyaların, zəngin laboratoriyaların və ən son tibbi avadanlıqların mövcudluğundan bəhs edən rektor diqqətə çatdırıb ki, burda keçirilən nəzəri biliklərin təcrübədə tətbiqi, tələbələrin tanınmış cərrahlarla görüşməsi, ustad dərslərin təşkili onların gələcəkdə savadlı kadr kimi formalaşmasına hərtərəfli şərait yaradır. Nəticədə universitetin tibb fakültəsi üzrə məzun olan tələbələr tibb sahəsində fəal iştirak edərək ölkənin, eləcə də muxtar respublikanın səhiyyə sisteminə öz layiqli töhfələrini verirlər. Türkiyənin nüfuzlu universitetləri ilə əməkdaşlıq münasibətlərindən danışan Elbrus İsayev tələbələrin peşəkar kadr kimi yetişdirilməsi üçün müxtəlif tədris planlarının, təcrübə proqramlarının həyata keçirildiyini vurğulayıb.

Azərbaycan Radioloqlar Cəmiyyətinin sədri, Tusi adına klinikanın həkim radioloqu Yunus Əfəndiyevin "Kompüter Tomoqrafiya və Maqnit Rezonans Tomoqrafiya seçimi fərqli profilli həkimlər üçün məlumat və tövsiyyələr" mövzusunda çıxışı dinlənilib. Qeyd edilib ki, KT zamanı rentgen şüalanma istifadə olunur. Tomoqrafın skaneri insan bədəninin ətrafında fırlanaraq müxtəlif nöqtələrdən çoxsaylı rentgen şəkilləri çəkir, bu şəkillər kompüter vasitəsi ilə cəmləşir və işlənir ki, nəticədə müayinə olunan orqan və ya bədən hissəsinin üçölçülü təsviri alınır. MRT zamanı isə rentgen şüalanma deyil, güclü maqnit sahəsinin istifadə olunduğunu diqqətə çatdıran Yunus Əfəndiye bildirib ki, bədənin müxtəlif toxumaları müxtəlif gücü olan rezonansları göndərir, MRT bu siqnalları toplayır və onlardan üçölçülü təsvirləri yaradır.

Milli Onkologiya Mərkəzinin Şüa diaqnostikası şöbəsinin həkim radioloqu, Azərbaycan Radioloqlar Cəmiyyətinin idarə heyətinin üzvü Anar Kazımov "Maqnit Rezonans Tomoqrafiya müayinəsinin müasir tibbdə statusu" mövzusunda çıxışı zamanı qeyd edib ki, MRT orqan və toxumalarda gedən dinamik proseslərin müayinəsində xüsusilə effektlidir.

MRT-nin neyrocərrahiyyədə və nevrologiyada geniş istifadə olunduğunu diqqətə çatdıran Anar Kazımov bildirib ki, köhnə beyin travmaları, insult (gecikmiş mərhələlərdə), baş beyini və onurğa beyini şişlərinin müayinəsində MRT-nin özünəməxsus rolu var.

Daha sonra "İnvaziv Radiologiyanın yeni nailiyyətləri", "Kompüter tomoqrafiya müayinəsinin yeni vektorları və imkanları", "Ultrasəs müayinəsinin qeyri-ənənəvi, müasir semitologiyası", "Müasir radioloji kontrastlaşma üsulları və maddələri", "Süd vəzinin radiologiyasının dəyərləndirilməsi" mövzularında çıxışlar dinlənilib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# GÖRKƏMLİ DRAMATURQ HÜSEYN CAVİDİN 140 İLLİK YUBİLEYİ QEYD OLUNUB









***Ali təhsil müəssisəsinin İncəsənət fakültəsində Hüseyn Cavidin 140 illiyinə həsr olunan tədbir keçirilib. Tədbirin birinci hissəsində “Təsviri incəsənət müəllimliyi” ixtisası üzrə təhsil alan tələbələrin əl işlərindən ibarət rəsm əsərlərinin sərgisi nümayiş etdirilib. Sərgidə fakültə dekanı, Əməkdar rəssam Cavid İsmayılov qrafika, yağlı boya, sulu boya, ağac üzərində yandırma üsulu ilə hazırlanmış rəsm əsərləri barədə tədbir iştirakçılarına məlumat verib.***

Tədbirin ikinci hissəsində İncəsənət fakültəsinin akt zalında “Hüseyn Cavid-140” mövzusunda Elmi Konfrans keçirilib. Konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov şair dramaturq Hüseyn Cavid irsinin yaşadılmasında Ümummilli lider Heydər Əliyevin rolundan bəhs edib.

Bildirilib ki, Azərbaycançılıq, turançılıq və bəşəri ideyaların carçısı, milli poeziyamızda fəlsəfi lirikanın təkrarsız nümunələrini yaratmış Hüseyn Cavid mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələ yaradıb. Azərbaycanın bir çox ziyalıları kimi Hüseyn Cavidin də taleyində 1937-ci il böyük faciələrlə müşahidə olunub. Dramaturq 1938-ci ildə həbs olunaraq 8 il islah əmək düşərgəsinə məhkum edilib və 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunda dünyasını dəyişib. Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin əsl qiymətini Ümummilli lider Heydər Əliyev verib. Heydər Əliyevin göstərişindən sonra 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul edib. 1982-ci ilin oktyabrın 26-da görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavid Azərbaycana qovuşub. Görkəmli drammaturqun Bakıda və Naxçıvanda ev muzeylərinin yaradılması, külliyyatının çap edilməsi, 1996-cı ildə Naxçıvan Muxtar Respublikasında qəbrinin üzrərində məqbərəsinin ucaldılması, yubileylərinin keçirilməsi kimi hadisələr də dahi şəxsiyyət Heydər Əliyevin sayəsində həyata keçirilib.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev poeziyada bənzərsiz sənət nümunələri yaradan drammaturqun həyat və yaradıcılığı barədə danışıb. Milli ədəbiyyatda poetik dram və faciə janrının yaradıcısı olan dramaturqun mənəvi zənginliyi ilə seçilən əsərləri bir çox nəslin estetik zövqünü oxşamaqdadır. Əsərlərində sevgi və gözəllik, yaxşılıq və pislik, işıq və qaranlıq qüvvələr arasındakı mübarizənin, humanizm, xeyriyyəçilik ideyalarının tərənnümünə yer verən Cavid, fəlsəfi lirikanın orijinal nümunələrini yaradıb. Onun yaradıcılığı Şərqin estetik fikir tarixi və dünya romantizm ənənələri ilə sıx bağlı olub.

Rektor Elbrus İsayev dünyada və ölkəmizdə mürəkkəb ictimai-siyasi proseslərin baş verdiyi çətin bir dövrdə yaşadığı halda azərbaycançılıq, türkçülük ideyalarını təbliğ edən Hüseyn Cavidin keşməkeşli həyat və yaradıcılıq dönəmindən danışıb. Naxçıvanda, Bakıda, Təbrizdə və Berlində yaşayan Cavidin, xüsusən, xaricdə yaşadığı zaman Azərbaycan mühacirləri ilə görüşməsi ciddi təqiblərlə üzləşməsinə səbəb olub. Dünya ədəbi mühitini dərindən bilən, dini, siyasi, etnik mövzulara əsərlərində fəlsəfi mövqedən yanaşan, pedaqoji və fəlsəfi fikir tarixində görkəmli yer tutan Hüseyn Cavid bu gün belə, Azərbaycan ədəbi irsinə işıq salan bənzərsiz xadimlərdəndir. Rektor bildirib ki, böyük siyasi lider Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirin əlçatmaz yerlərindən Azərbaycana gətirilməsi ədəbi mühitimizdə əlamətdar bir tarix, uğurlu və cəsarətli bir addım, böyük ictimai-siyasi hadisə idi.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim YadigarAzərbaycan poeziyasında fəlsəfi lirikanın təkrarsız nümunələrini yaradan Hüseyn Cavidin dramaturgiyası barədə danışaraq onun Səlma, Maral, Şeyx Sənan, İblis, azadlıq istəyən Xəyyam kimi obrazlarının təhlili vasitəsilə, əsərlərindəki bəşəri ideyaların təbliği məsələlərini ön plana çəkib. Dahi sənətkarın zəngin irsinə “Keçmiş günlər”, “Bahar şəbnəmləri” şeirlər silsiləsi, “Azər”, “Kor neyzən” poemaları, “Ana”, “Maral”, “Şeyx Sənan”, “İblis”, “Şeyda”, “Uçurum”, “Afət”, “Peyğəmbər, “Topal Teymur”, “Knyaz”, “Səyavuş”, “Xəyyam”, “İblisin intiqamı” dramları, ədəbi, elmi, ictimai baxışlarını əks etdirən məqalələri, məktubları daxildir. Məruzəçinin sözlərinə görə, müəllifin “Atilla”, “Çingiz”, “İblisin ilhamı”, “Telli saz”, “Şəhla”, “Koroğlu” adlı əsərləri isə müsadirə olunub. O eyni zamanda, dramaturqun “Peyğəmbər” əsərində qadına verdiyi yüksək dəyər, “Uçurum” əsərində baş verən hadisələrdə zəmanəni günahlandırması, “Şeyda” əsərində mətbəə işçilərinin timsalında fəhlə hərəkatının tərənnümü barədə söhbət açıb.

Naxçıvan Universitetinin müəllimi İman Cəfərli Hüseyn Cavidi Azərbaycan romantizm ədəbi cərəyanını dünya ədəbiyyatı müstəvisində təmsil etmək qüdrətinə malik ədib kimi qiymətləndirib. Hüseyn Cavid barədə bu günədək yazılmış tənqidi fikirlərin əsassızlığını tarixi faktlarla ifadə edən pedaqoq xəyal və həqiqət qarşıdurmasından fərqli olaraq, Cavidin əsərlərindəki sevgi və gözəllik anlayışlarının birbaşa sabaha ünvanlandığını diqqətə çatdırıb. Onun sözlərinə görə, bilinənlər içərisində bilinməzliyin gözəlliyini təsvir edən şair qədim dünya filosofları ilə eyni nəticəyə gəlsə də, romantizmdə onları xeyli qabaqlayır, çünki Cavid romantizminin mənbəyi real həyat olub.

Şairin sürgündəki həyat və yaradıcılığından danışan Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri Ramiz Qasımovun sözlərinə görə, bir-birini tamamlayan əsərləri yazaraq konsepsiya nümayiş etdirməsi məhz Hüseyn Cavid yaradıcılığına məxsus prinsipdir. Həbsən sonra yazdığı əsərlər barədə məlumat verən məruzəçi bildirib ki, Cavid hər zaman öz ideyalarına sadiq qalaraq yaşadığı dövrün tələbi ilə kolxozdan, sovxozdan, sovet sisteminin quruculuq işlərindən deyil, insan azadlığından və mənsub olduğu millətin azadlığından yazmağı üstün tutub və özünü “əbədi hürriyyətin sevdalı cilvəsi” adlandırıb.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tərəfindən hazırlanmış “İblis” tamaşası göstərilib.

**Elnarə İslamlı**
***NDU-nun televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# MÜSTƏQİLLİYİN BƏRPASI GÜNÜNƏ HƏSR OLUNAN TƏDBİR

***Ali təhsil müəssisəsində keçirilən tədbirdə vətən uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, 28 may 1918-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan edib. Bildirilib ki, SSRİ-nin süqutu dövründə yəni 18 oktyabr 1991-ci il tarixində “Azərbaycanın dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul edilməsi ilə ölkəmiz Şərqdə ilk respublikanın varisi kimi Azərbaycan tarixinin yeni dönəmi – müstəqil inkişaf dövrü başlanıb. Ulu Öndərin xalqın istəyi ilə Azərbaycana qayıdışı və müstəqilliyimizin təhlükə altına düşməsinin qarşısını alması, xalqımız üçün misilsiz xidmət göstərməsi barədə auditoriyaya geniş məlumat verən Elbrus İsayev vurğulayıb ki, ulu öndər tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir. 44 günlük “Vətən Müharibəsi”ndən söz açan rektor müstəqil dövlət olan Azərbaycanın suveren haqlarını beynəlxalq hüquq çərçivəsində müdafiə etməsini, öz torpaqları daxilində işğalçılara qarşı aparılan mübarizəni müstəqilliyimizin verdiyi imkanların bəhrəsi kimi qiymətləndirib.

Tarix-filologiya fakültəsinin dekan müavini, tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov qeyd edib ki, hazırda Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilib. Vurğulanıb ki, ölkəmiz xarici əlaqələrin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirib, beynəlxalq aləmdə daha çox nəzərəçarpan və hörmət edilən ölkəyə çevrilib. Qadir Əkbərov prezident İlham Əliyevin qətiyyəti sayəsində ulu öndərin neft strategiyasının uğurla reallaşması, iri enerji layihələrinin işə düşməsi və yeni iqtisadi layihələrə start verilməsi, eləcə də regionda cərəyan edən proseslərlə bağlı ölkə başçısının siyasi baxışları Azərbaycanının müstəqilliyinin daha da möhkəmlənməsinə, sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət etdiyini diqqətə çatdırıb.

Tarix-filologiya fakütəsinin Jurnalistika ixtisasında təhsil alan I kurs tələbələrinin bədii qiraəti iştirakçılar tərəfindən maraqla qarşılanıb.

“Müstəqilliyin Bərpası Günü” mövzusunda film nümayiş olunub.

**Məmmədbağır Dünyamalıyev**

# KERAMİKA NÜMUNƏLƏRİNDƏN İBARƏT SƏRGİ

*Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində ilk dəfə olaraq keramika nümunələrindən ibarət sərgi nümayiş olunub. Burada Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq ixtisası üzrə təhsil alan tələbələrin hazırladığı əl işləri sərgilənib.*





Universitetin rektoru Elbrus İsayev tələbələrin iştiraki ilə keçirilən sərgilərin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirib ki, müasir dövrdə keramika sahəsinə diqqət xeyli artıb və tələbələrin bu sahəyə maraqlı olmaları sevindirici haldır. E.İsayev sərgilərin universitet rəhbərliyi tərəfindən diqqət mərkəzində saxlanıldığını deyib, gənc istedadlara bu istiqamətdə uğurlar arzulayıb.

İncəsənət fakültəsinin dekanı, Naxçıvanın Əməkdar rəssamı Cavid İsmayılov muxtar respublikada təsviri incəsənət sahəsində yaradılan imkanlardan və göstərilən qayğıdan danışıb. Diqqətə çatdırılıb ki, təşkil olunan sərgilər gənclərin bacarıqlarının inkişafında əhəmiyyətli rol oynamaqdadır. Gələcəkdə bu sahənin daha da inkişaf etməsində müəyyən işlərin görüləcəyi, eyni zamanda, universitetdə keramika sənətinin inkişafı üçün addımların atılacağı diqqətə çatdırılıb.



Təsviri incəsənət kafedrasının müəllimi, Azərbaycanın Xalq rəssamı, professor Hüseynqulu Əliyev keramika sənətinin tarixindən söz açaraq, bu sənət növünün köklərinin qədim tarixə söykəndiyini vurğulayıb.

Qırxa yaxın keramika nümunəsinin nümayiş olunduğu sərgidə boşqablar və digər fiqurlar üzərində bədii boyakarlıq nümunələri öz əksini tapıb. Qədim boyakarlıq üslubu olan miniatürlər, Naxçıvan ərazisində yerləşən dünya əhəmiyyətli tarixi abidələr, "Naxçıvan Dövlət Universitetinin 55 illiyi"nə həsr olunan universitet binaları, qədim toy adət-ənənələrimizin əks olunduğu keramika nümunələri, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılovun rəsm əsərləri və başqa eksponatlar sərgidə nümayiş etdirilib.

Sonda yaradıcı tələbələrə diplomlar təqdim olunub.

# "AQRAR-SƏNAYE KOMPLEKSİNİN FƏALİYYƏTİ VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ" MÖVZUSUNDA VEBİNAR

***Ali təhsil ocağında Bakı Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Vahid Abbasov tərəfindən "Aqrar-Sənaye kompleksinin fəaliyyəti və inkişaf xüsusiyyətləri" mövzusunda vebinar keçirilib.***



Tədbiri giriş sözü ilə açan İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Əşrəf Ələkbərov aqrar sənayenin Azərbaycanın bir çox bölgələrində olduğu kimi muxtar respublikada da sürətlə inkişaf etməkdə olduğunu diqqətə çatdırıb, ölkəmizin gələcəyi üçün bu sahənin faydaları haqqında iştirakçıları məlumatlandırıb.

Tədbirə onlayn qoşulan Bakı Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müdiri, professor Vahid Abbasov qeyd edib ki, aqrar-sənaye kompleksi dedikdə bir-biri ilə əlaqədar olan kənd təsərrüfatı və sənaye müəssisələrinin birliyi nəzərdə tutulur. Onun əsas vəzifəsi əhalini ərzaq və yeyinti məhsulları ilə, heyvandarlığı yemlə, sənayeni xammalla təchiz etməkdir. Vahid Abbasov kənd təsərrüfatı istehsalının yerləşdirilməsi, ərazi üzrə əmək bölgüsü, kənd təsərrüfatının yerləşməsinin iqtisadi səmərəliliyini xarakterizə edən göstəricilər və kənd təsərrüfatının səmərəli yerləşdirilməsinin əsas prinsipləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda müəllim və tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Tərlan İbrahimova**

# "UÇAN NAMƏLUM OBYEKTLƏR: REALLIQLAR VƏ MİF" MÖVZUSUNDA ELMİ-NƏZƏRİ SEMİNAR

***Universitetdə "Uçan naməlum obyektər: reallıqlar və mif" mövzusunda elmi-nəzəri seminar keçirilib***



Ali təhsil müəssisəsinin Fizika-riyaziyyat fakültəsində Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev tərəfindən "Uçan naməlum obyektlər:reallıqlar və mif" mövzusunda elmi-nəzəri seminar keçirilib.

Tədbiri giriş sözü ilə açan fakültənin dekanı, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov elmi-nəzəri seminarın əhəmiyyətindən danışaraq mövzunun aktuallığını vurğulayıb.

Sonra Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev çıxış edərək tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, uçan naməlum obyektlər məlum meteoroloji və ya astroloji hallarla bağlı olmayan, həmçinin təbii xarakter daşımayıb, mistifikasiya faktı aşkar edilməyən qeyri-adi obyektlərdir. Alim UNO-ların mahiyyəti, onların mövcudluğu ilə bağlı irəli sürülən fikir və fərziyyələrin tarixindən söz açıb, bu məsələnin yerdən kənar həyatın mövcudluğu ilə əlaqədar olduğunu, lakin problemin həlli ilə bağlı yekun nəticənin olmadığını diqqətə çatdırıb.

Qeyd edək ki, mövzunun dərindən öyrənilməsi məqsədi daşıyan seminar universitet rəhbərliyi, rəsədxana əməkdaşları, Ümumi və nəzəri fizika kafedrasının müəllimləri və ixtisas üzrə təhsil alan tələbələrin iştirakı ilə baş tutub.

Seminarda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, mövzu ilə əlaqədar elmi məcmuələrdə, mətbuatda dərc olunan məlumatlar müzakirə olunub.

**Nazlı Himmətova**
*Jurnalistika ixtisası üzrə II kurs tələbəsi*

# KİMYA MÜƏLLİMLİYİNDƏN ZƏRGƏRLİK SƏNƏTİNƏ İLK ADDIMLAR

*Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin "Kimya müəllimliyi" ixtisası üzrə təhsil alan III kurs tələbəsi Nuray Əzimovanın əl işləri sərgisi keçirilib.*



Sərgidə iştirak edən rektor Elbrus İsayev son dövrlər universitetin əl işləri sahəsində gördüyü işlərdən və əldə olunan nailiyyətlərdən söhbət açıb. İncəsənət fakültəsi tələbələrinin əl işləri sərgisini xatırladan rektor, bu əsərlərin nəinki istehsalı və sərgisi prosesində, hətta hazırlanan məhsulların satışının təşkil olunmasına köməklik göstərildiyini və bununla da fərdi sahibkarlığın inkişafına töhfə verildiyini vurğulayıb.

Əl işlərini izləyən rektor tələbələrin asudə vaxtlarını səmərəli keçirməsi və maddi təminatları baxımından onların yaradıcı işlərə maraq göstərməsini yüksək qiymətləndirib.

Fakültədə əl işləri sərgisinin davamlı nümayişinin faydalılığını vurğulayan fakültə dekanı pedaqogika üzrə fəlsəfə doktoru Bəhruz Məmmədov bu əsərlərin həm ənənəvi, həm də onlayn yolla satışının təşkil olunduğunu diqqətə çatdırıb. Bildirilib ki, əsərlərini ev şəraitində böyük əmək hesabına ərsəyə gətirən Nuray Əzimovaya bu zəhmətli işdə onun kimya sahəsindəki biliklərinin də böyük köməyi olub.

Müəllif Nuray Əzimova ailəsinə maddi kömək məqsədilə başladığı yaradıcı işində universitet, o cümlədən, fakültə rəhbərliyinin mənəvi dəstəyini xüsusi vurğulayıb. Qadınlar üçün qolbaq, boyunbağı, sırğa və digər zinət əşyalarına, kişilər üçün isə təsbeh kimi aksesuarların hazırlanmasına üstünlük verdiyini deyən müəllif bunun üçün müxtəlif ölçülü və kəsimli təbii daşlardan istifadə olunduğunu bildirib.

Rektor və qonaqlara əl işlərini tanıdan Nuray Əzimova istifadə etdiyi daşların mifoloji mənaları oluğunu bildirərək onların hər biri barədə ətraflı məlumat verib. Müəllif bildirib ki, pələnggözü qoruyucu daşdır, pişikgözü nəzərə, mərcan daşı təzyiqə qarşıdır. Malaxit daşı bronxial astma xəstəliyinə müsbət təsir edir, sitrin bərəkət daşı hesab olunur. Çəhrayı kvars sevgi, mirvari isə zəriflik simvoludur.

Sərgidə nümayiş olunan əl işləri qonaqların böyük marağına səbəb olub.

**Elnarə İslamlı**
*NDU-nun Televiziya, Mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı*

# "AZƏRCELL TELEKOM" MMC TƏRƏFİNDƏN TƏLƏBƏLƏRƏ AYLIQ TƏQAÜDLƏRİN VERİLMƏSİ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB



***Tədbiri giriş sözü ilə açan ali təhsil müəssisəsinin Mühasibat uçotu şöbəsinin müdiri Ülvi Baxışlı iştirakçıları salamlayaraq, keçirilən tədbirlərin gənclərin inkişafına və gələcək karyeralarına müsbət təsirindən danışıb, universitetdə mütəmadi keçirilən bu tədbirlərin tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini vurğulayıb.***

Azercell Telekom MMC-nin İnsan Kapitalının İdarə edilməsi departamenti, Biznes partnyoru Aynur Əkbərova qeyd edib ki, bu əhəmiyyətli təqaüd proqramını həyata keçirməkdə əsas məqsəd təhsildə müvəffəqiyyət əldə edən yüksək potensiallı tələbələrə xüsusi qayğı göstərmək, onların gələcəkdə peşəkar kimi formalaşmasına dəstək verməkdən ibarətdir. Vurğulanıb ki, proqramın bütün seçim mərhələlərini uğurla keçən tələbələr cari təhsil müddətinin sonuna qədər şirkət tərəfindən 200 manat məbləğində aylıq təqaüd alacaq. Eyni zamanda gənclər proqram çərçivəsində İKT sahəsindəki biliklərini artırmaq, şirkətin korporativ tədbirlərində və sosial fəaliyyətində iştirak etmək, müxtəlif təlimlərə qoşulmaq və şirkətdə təcrübə keçmək imkanı əldə edə biləcəklər.

Sonra İnsan Kapitalının İdarə edilməsi departamentinin Professional inkişaf və Azercell Akademiyasının mütəxəssisi Ləman İsmayılzadə tələbələrin karyeralarının uğurlu istiqamətdə inkişafı barədə danışıb. Ləman İsmayılzadə tələbələrin mütəmadi olaraq onlayn təşkil olunan kurslara qoşulmalarının və özlərini inkişaf etdirmələrinin vacibliyini vurğulayıb. Bildirilib ki, proqram istiqamətləri kibertəhlükəsizlik, informasiya texnologiyaları, biznes analitikası, data science və marketinq ixtisasları üzrədir.

Sonda iştirakçıların sualları cavablandırılıb və tədbirdə fəal iştirak edən tələbələr Azercell Telekom MMC tərəfindən mükafatlandırılıb.

**Tərlan İbrahimova**
*Jurnalistika ixtisası üzrə II kurs tələbəsi*

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ MOSKVADA KEÇİRİLƏN *“XARİCDƏ TƏHSİL”* SƏRGİSİNDƏ TƏMSİL OLUNUB

Bu gün ali təhsil müəssisəsi təhsil və tədrisdə, habelə elm istiqamətində beynəlxalq əlaqələrə üstünlük verir, dünyanın qabaqcıl universitetləri ilə mübadilə və əməkdaşlıq əlaqələri quraraq dialoq və mədəni əlaqələrin inkişaf etdirilməsini hədəfləyən tədqiqat proq-




ramlarında iştirak edir. Həmin proqramın davamı olaraq ali təhsil ocağının nümayəndəsi Rusiyanın Moskva şəhərində keçirilən “Xaricdə təhsil” sərgisinə qatılıb. Sərgi zamanı universitetin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Azər Məhərrəmovla “Itec travel&education”, “Beringoff”, “EF”, “”Insayt”, “Swissam”, “Ilac” kimi beynəlxalq şirkətlərin nümayəndələri, Moskva Dövlət Universiteti və Puşkin adına Dövlət Rus Dili İnstitutunun əməkdaşları arasında görüşlər keçirilib. Görüşlərin başlıca məqsədi Rusiya universitetlərinin təhsil sistemi ilə tanışlıq, universitetlərarası əməkdaşlıq və mübadilə məsələləri olub.

“Itec travel&education” şirkətinin Beynəlxalq əməkdaşlıq departamentinin müdiri Lanita Klimskaya ilə ali təhsil müəssisəsinə əcnəbi tələbələrin cəlb olunması ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələri xarici ölkə universitetləri ilə ikitərəfli əməkdaşlığı, beynəlxalq təhsil proqramlarında iştirakı, əcnəbi tələbələrin cəlb olunması, və digər istiqamətləri əhatə edir. Bu əməkdaşlığın mühüm sahələrindən birini təşkil edən əcnəbi tələbələrin cəlb olunması məsələsi universitet üçün həmişə prioritet istiqamətlərdən biri sayılıb. Təsadüfi deyil ki, əcnəbi tələbələrin sayına görə Naxçıvan Dövlət Universiteti ölkədəki ali təhsil müəssisələri arasında birinci yeri tutur.

“Beringoff International Academy of Law” şirkətinin İnnovasiya departamentinin müdiri Şaqarov Stanislavla görüş zamanı birgə elmi konfransların və seminarların təşkili, müvafiq beynəlxalq təşkilatlarla işbirliyi, o cümlədən beynəlxalq platformada keçirilən hüquqşünaslar üçün təlimlərdə və konfranslarda yerli tələbələrin iştirakı barədə söhbət aparılıb.

Puşkin adına Dövlət Rus Dili İnstitutu ilə universitet arasında əməkdaşlığı genişləndirmək üçün bir sıra ciddi addımlar atılmalı olduğu vurğulanıb. İnstitutun Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Kopılov Yuriy Viktoroviç müzakirə zamanı Naxçıvan Dövlət Universitetində Rus Dili Mərkəzinin yaradılması ilə bağlı səslənən fikirləri müsbət qarşılayıb. Qeyd olunub ki, müasir dünyanın tələblərinə uyğun olaraq müvafiq qurumlar arasında təhsilin qiymətləndirilməsi və birgə elmi-tədqiqat işlərinin aparılması üçün, bu əməkdaşlıq böyük perspektivlər yaradacaq.

**Elnarə İslamlı**

# ƏCNƏBİ TƏLƏBƏLƏRƏ KÖNÜLLÜ TİBBİ SIĞORTANIN ƏHƏMİYYƏTİNDƏN DANIŞLIB





***Naxçıvan Muxtar Respublikasının Dövlət sığorta xidmətinin əməkdaşları ali təhsil ocağında təhsil alan əcnəbi tələbələrlə görüş keçirib. Ali təhsil müəssisəsinin Beynəlxalq münasibətlər və hüquq fakültəsində keçirilən tədbiri giriş sözü ilə açan universitetin Beynəlxalq əlaqələr bölməsinin müdiri İlahə Hüseynova universitetdə təhsil alan əcnəbi tələbələrə yaradılan şərait və göstərilən qayğıdan danışıb.***

Dövlət sığorta xidmətinin baş mütəxəssisi Şəfa Əhmədli çıxışında sığorta növləri, sığorta müqaviləsi və məbləği barədə tədbir iştirakçılarını məlumatlandırıb. Bildirilib ki, əcnəbi tələbələr könüllü sığorta xidmətindən yararlanaraq muxtar respublikada fəaliyyət göstərən xəstəxanalarda müəyyən güzəştlərdən istifadə edə bilərlər. Diqqətə çatdırılıb ki, epidemiya hallarında, psixotrop və narkotik maddələrdən, spirtli içkilərdən istifadə zamanı sığorta təminatı verilmir.

Naxçıvan Sığorta Xidmətinin əməkdaşı Mehdi Bağırov sığorta müqaviləsi, sığorta şəhadətnaməsi və sığorta kartları haqda qaydaları tədbir iştirakçılarının nəzərinə çatdırıb. Vurğulanıb ki, muxtar respublikanın müvafiq xəstəxanaları ilə bağlanılan müqavilələrə əsasən, əcnəbi tələbələr həmin xəstəxanalarda növbədənkənar tibbi xidmətdən yararlana bilirlər.

Sonra əcnəbi tələbələrin bir qisminə qeyd olunan güzəştlərlə əlaqədar kartlar təqdim olunub, tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Sevda Qənbərova**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# ƏCNƏBİ TƏLƏBƏLƏR ÜÇÜN EKSKURSİYA

***Ali təhsil ocağının əcnəbi tələbələri üçün ekskursiya təşkil edilib. “Əshabi-Kəhf ziyarətgahı” ilə tanışlıq zamanı bildirilib ki, Naxçıvanın qədim tarixi-mədəni abidələrindən biri də insanların ən qədim dini inanclarının qorunub saxlanıldığı “Əshabi-Kəhf ziyarətgahı” Dini-mədəni abidə kompleksidir. Qeyd edilib ki, Naxçıvan şəhərindən 12-13 km məsafədə yerləşən ziyarətgah il ərzində yüzlərlə turist və yerli əhalini qonaq edir.***

Heydər Əliyev Muzeyində olan tələbələrə məlumat verilib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əks etdirən muzey 10 may 1999-cu ildən fəaliyyət göstərir. Muzey yarandığı dövrdə 420 eksponatla fəaliyyətə başlasa da bu gün muzey fondunda 5379 eksponat mövcuddur. Muzeyin kitabxanasında ümummilli liderin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar mühafizə və nümayiş olunur.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə Xatun türbəsi ilə tanışlıq tələbələrdə xoş təəssürat yaradıb. Bildirilib ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycanın Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə Xatunun məzarı üzərində məqbərə yaradılmasına




qərar verib və bundan sonra məqbərə tanınmış memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib.

Xan sarayında da olan tələbələrə məlumat verilib ki, bura Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Naxçıvan xanı I Kalbalı xan Kəngərliyə və onun varislərinə məxsus olan bu saray Azərbaycanın orta əsrlər memarlığının nadir incilərindən biridir. Xüsusi qaydada inşa edilən və xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi saray orijinal memarlıq üslubu ilə seçilir. Muzeydə Naxçıvan xanlığının və Kəngərli nəslinin tarixi ilə bağlı nəşr olunan kitablar, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi, məişət əşyaları nümayiş etdirilir.

**Məmmədbağır Dünyamalıyev**

# “SÜNİ ZƏKA EKOSİSTEMİ” MÖVZUSUNDA VEBİNAR

*Ali təhsil müəssisəsinin Memarlıq və mühəndislik fakültəsində keçirilən tədbirdə fakültənin dekanı, riyaziyyat üzrə elmlər doktoru, professor Cavanşir Zeynalov iştirakçıları salamlayaraq təşkil olunan vebinarın müasir dövr üçün önəmini vurğulayıb.*



Tədbirə onlayn qatılan Süni intellekt üzrə ilk azərbaycanlı tədqiqatçı Günay Kazımzadə qeyd edib ki, artıq dünyada bir sıra şirkətlərdə insan resurslarının idarə edilməsində süni zəkadan istifadə edilməyə başlanılıb. Bir çox insan resursları mütəxəssisinin süni zəkanın insan resurslarının idarəedilmə funksiyalarına inteqrasiyasını məmnuniyyətlə qarşıladığını diqqətə çatdıran tədqiqatçı, bunun səbəbini robotların neqativ subyektiv düşüncələrdən və hisslərdən azad olmasında gördüyünü bildirib. Günay Kazımova iştirakçıların nəzərinə çatdırıb ki, hazırda insan resurslarının idarə edilməsində süni zəkadan ən çox işə qəbul prosesində istifadə olunur. Bir sıra şirkətlər çatbotlardan istifadə edərək namizədlə tanışlıq müsahibəsini həyata keçirir. Çatbot namizədlə müəyyən ssenari üzrə söhbət aparır, həmçinin namizədin verdiyi cavablara əsaslanaraq söhbəti davam etdirir və namizədin növbəti mərhələ üçün uyğunluğu barədə məlumatı geri bildiriş şəklində işə qəbul mütəxəssisinə göndərir. Diqqətə çatdırılıb ki, süni zəkaya əsaslanan başqa bir namizəd seçim proqramı olan HireVue isə namizədlə görüşü video qeydə alır və daha sonra namizədin müsahibə zamanı mimika və jestlərini, səs tonundakı dəyişiklikləri analiz edərək verilən sualları nə dərəcədə düzgün cavablandırdığını müəyyənləşdirir.

Onu da qeyd edək ki, Günay Kazımova TechCentrum sosial platformasının təsisçisi, TED-də (Technology, Entertainmet, Design – Texnologiya, Əyləncə, Dizayn) Süni Zəka üzrə çıxış edən ilk azərbaycanlı xanım və Google şirkətinin xanımlar üçün təsis etdiyi Qrantın qalibidir.

**Məmmədbağır Dünyamalıyev**
*NDU-nun Televiziya, Mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı*

# XALQ ŞAİRİ XƏLİL RZA ULUTÜRKÜN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNAN TƏDBİR



***Tədbiri giriş sözü ilə açan ali təhsil müəssisəsinin Elmi kitabxanasının direktoru Fariz Əhmədov şairin həyat və yaradıcılığından, keçdiyi çətin və keşməkeşli fəaliyyətindən danışıb. Direktor həmçinin şairin yaşadığı dövrün gətirdiyi çətinliklər, məruz qaldığı təqiblər və həbs həyatı haqqında iştirakçıları məlumatlandırıb.***

Filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimli şairin dövrün ağır tələblərinə baxmayaraq ana dilində yazdığı əsərlərini, milli ruhu, düşüncəni, dəyərlərimizi xalqımıza necə aşıladığını diqqətə çatdırıb. Xanəli Kərimli həmçinin şairin məruz qaldığı tənqidlərdən, akademiyadakı fəaliyyətindən, şəxsən özü ilə bağlı xatirələrdən söz açaraq, şairin bəzi əsərlərindən misraları səsləndirib.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Əli Həşimli Xəlil Rza Ulutürkün elmi fəaliyyətindən, Azərbaycan tərcümə sənətinə faydalarından, Ana dilinin saflığının qorunub saxlanılması uğrunda verdiyi mübarizədən, müharibə dövründə yazdığı, əsgərləri ruhlandıran əsərlərindən və müharibədən sonrakı dövrdə fəaliyyətindən danışıb.

Universitetin Coğrafiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Ömər Babayev Xəlil Rza Ulutürk sənətinin öyrənilməsinin və yayılmasının gənclik üçün çox vacibli olduğunu vurğulayıb.

Sonda Xəlil Rza Ulutürk şeirlərinin bədii qiraəti dinlənilib.

**Suat Əhmədov**
*NDU-nun Televiziya, Mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı*

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ - 55

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN STRATEJİ FƏALİYYƏT PLANI DAVAMLI İNKİŞAFA HƏDƏFLƏNİB

*Dünyada cərəyan edən qlobal çağırışlar, hər bir ölkədə davamlı inkişafın təmin edilməsi üçün siyasi və sosial-iqtisadi sahələrdə sistemli şəkildə islahatların aparılmasını zərurətə çevirmişdir. Ölkəmizdə də ardıcıl aparılan struktur islahatları ictimai inkişafın hər bir sahəsində öz əksini tapmışdır. Son illər ölkədə aparılan uğurlu siyasət nəticəsində gerçəkləşdirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaratmışdır.*

Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların məqsədi ölkələrin firəvan həyatına uğurlu tətbiq edilməsidir. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir.

Ölkəmizdə hər bir sahədə əldə olunan inkişaf tendensiyası təhsil sektorunda da ciddi müşahidə olunmaqdadır. Bu inkişafın əsasında isə, şübhəsiz, ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyalar əsasında həyata keçirilən siyasətin strateji kursu dayanır. Həmin strateji kursdur ki, bünövrəsi müasir Azərbaycan Respublikasının memarı, ümummilli lider Heydər Əliyev tərəfindən qoyularaq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında sosial-iqtisadi islahatlar nəticəsində ali məktəblərin fəaliyyətinin qanunvericilik bazası, eləcə də iqtisadi şərtləri əsaslı surətdə dəyişilmişdir. Nəticədə icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına gətirib çıxarmışdır. Ali təhsil sisteminin idarə edilməsi və maliyyələşdirilməsi sahələrində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Prezident İlham Əliyevin rəhbərliyi dövründə ali təhsilin inkişafı əsas prioritetə çevrilmiş, insan kapitalının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikamızın çoxşaxəli həyatının bütün sahələrində olduğu kimi, elm və təhsilin inkişafı sahəsində də ardıcıl və məqsədyönlü fəaliyyəti sayəsində zəngin maarifçilik ənənələrinə malik, qabaqcıl dünya standartlarına cavab verən Naxçıvan Dövlət Universiteti qurulmuşdur.

Yüksək dövlət qayğısından bəhrələnən Naxçıvan Dövlət Universiteti dünya standartlarına uyğun çoxprofilli təhsil və elmi tədqiqatlar sahəsində fundamental biliklərə, innovativ tədqiqat vərdişlərinə yiyələnən, əmək bazarında rəqabətədavamlı, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması böyük bir misssiya olaraq hədəfləmişdir. Nəticədə Azərbaycan Respublikasının ən dəyərli, qabaqcıl ali məktəblərindən biri kimi səciyyələndirilən, muxtar respublikanın əsas elm, təhsil, ictimai fikir və mədəniyyət mərkəzlərindən olan Naxçıvan Dövlət Universiteti bir sıra sahələr üzrə ali təhsil müəssisələri arasında öncül yerləri tutmuş, onun fəaliyyəti təqdir olunmuş, klassik universitetlərlə müqayisə olunmuş, regionun elm və təhsil mərkəzlərindən biri kimi tanınmışdır. Universitetdə inkişaf etmiş ali təhsil müəssisələri üçün xarakterik olan bütün struktur bölmələr yaradılmış, ilk dəfə olaraq burada müxtəlif yeniliklər tətbiq edilmiş və onların səmərəli fəaliyyəti təmin edilmişdir.

Son illər ali təhsil üzrə yeni çağırışlara və modern təhsil standartlarına inteqrasiya proseslərinə uyğun olaraq, Naxçıvan Dövlət Universitetinin reallaşdırmış olduğu tədbirlərin miqyası da genişlənməkdədir. Belə ki, təhsil sahəsində, həm beynəlxalq əməkdaşlıqların qurulması və inkişaf etdirilməsi, həm ikili diplom layihələrinin qüvvəyə minməsi və bu sahədə kadr hazırlığının təşkil olunması, həm də nəzəriyyə ilə təcrübənin vəhdətindən ibarət olan potensialın yaradılması ali məktəbin qarşısına qoyduğu prioritet vəzifədir.

Hazırda Naxçıvan Dövlət Universitetinin uğurlu fəaliyyət proqramı həm də aşağıdakı mühüm istiqamətləri özündə ehtiva edir:

- universitetin elm və təhsil mərkəzi kimi davamlı inkişafını;

- müasir çağırışlara cavab olaraq innovativ elmi-tədqiqat və təhsilin səviyyəsinin yüksəldilməsini və modernləşdirilməsini;

- təhsilin müxtəlif pillələrində ikili diplomların tədbiqini;

- təhsilin distant texnologiyalarının işlənməsi və tətbiqini;

-müəllimlərin, doktorantların, magistrantların və tələbələrin akademik mobilliyinin artırılmasını;

- beynəlxalq və regional ali təhsil müəssisələri ilə əməkdaşlığın genişləndirilməsini.

Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyev siyasi xəttinin ardıcıl və uğurla davam etdirilməsi Naxçıvanın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Muxtar Respublika rəhbərinin ali diqqəti nəticəsində Naxçıvan Dövlət Universitetində müasir təhsil infrastrukturunun, möhkəm maddi-texniki bazanın və güclü kadr potensialının yaradılması xarici tələbələrin bu ali təhsil ocağına cəlb olunmasında başlıca amildir. Son illərdə universitetə təhsil almaq üçün müraciət edən əcnəbi tələbələrin sayında yüksək artım dinamikasının müşahidə olunması Naxçıvan Dövlət Universitetinin nüfuzunun dünyada artmaqda olduğunu bir daha təsdiq edir. Belə ki, Naxçıvan Dövlət Universitetinin elm strategiyası və müəyyən olunmuş məqsədlərə doğru tərəfdaşlıq, qabaqcıl təcrübələrin təşviqi və təbliğatı, keyfiyyət göstəriciləri, beynəlxalq əlaqələri, əcnəbi tələbələrin sayı, alimlərin elmi nəşrləri ali məktəblərin beynəlxalq nüfuzunu müəyyənləşdirən dünyanın ən böyük reytinq təşkilatı olan "Times Higher Education" 2022-ci il üçün "THE Impact Ranking" reytinq siyahısında ötən il olduğu kimi, bu il də dünya universitetləri sıralamasında yer alması ilə nəticələnmişdir. Ardınca bu ilin may ayında Naxçıvan Dövlət Universiteti rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti Yaponiyada keçirilən nüfuzlu Asiya Universitetlərinin Sammitində ölkəmizi layiqincə təmsil etdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə təməli qoyulan "Startap Naxçıvan" hərəkatı isə Naxçıvan Dövlət Universitetində də müasir təfəkkürlü peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına, yaradıcı düşüncənin inkişafına xidmət etməkdədir.

Ali təhsilli kadrların elmi-tədqiqat işlərinin yerinə yetirmə bacarığının formalaşması, müasir şəraitdə elmi-tədqiqat yönümlü yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında mühüm əhəmiyyəti nəzərə alınaraq qısa zaman kəsiyində Universitetdə "Keyfiyyət Təminatı Mərkəzi", "Diplomatiya Mərkəzi", "Kriminalistika" laboratoriyası, "Texnologiya mərkəzi", "Atıcılıq mərkəzi", "Robototexnika" laboratoriyası, "Əczaçılıq Simulyasiya" kabinəsi və "Yaşıl Əczaxana" yaradılmışdır.

Ölkəmizdə Ali Təhsildə Keyfiyyət Təminatının qarşıya qoyduğu təhsil məkanının dünyanın inkişaf etmiş təhsil institutları ilə əməkdaşlığı üçün zəmin yaratmaq və ölkənin təhsil müəssisələri məzunlarının həm yerli, həm də dünya əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətində də Naxçıvan Dövlət Universitetində məqsədyönlü işlər həyata keçirilməkdədir. Əlamətdar haldır ki, hazırda Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin öncül universitetləri arasında tələbə və müəllim mobilliyi sahəsində əməkdaşlıq müqavilələri uğurla icra olunur.



Ali təhsil ocağının beynəlxalq əlaqələrində qardaş Türkiyə Respublikasının özünəməxsus yeri vardır. Naxçıvan Dövlət Universiteti üçün uğurlu bir başlanğıcın əsasını qoyan, Çankırı Karatekin Universiteti ilə İqtisadiyyat ixtisası üzrə ikili diplom layihəsinin icrasına başlanılmışdır. Universitet nümayəndə heyətinin 8-16 iyul 2021-ci il tarixlərində qardaş Türkiyə Cümhuriyyətinə səfəri zamanı Türkiyə Ali Təhsil Şurasında və Çankırı Karatekin, Ankara, Orta Doğu Teknik, Qazi, Hacı Bayram Vəli, İstanbul Texniki, Yıldız Texniki Universitetlərində əhəmiyyətli görüşləri baş tutmuşdur. Ardınca 29-31 mart 2022-ci il tarixlərində Ankara Universitetinin, İstanbul Texniki Universitetinin, Qazi Universitetinin rektorlarının Naxçıvan Dövlət Universitetinə səfəri, 18-21 iyun 2022-ci il tarixdə ölkədə ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində keçirilən "I Beynəlxalq Tibbi Forum" çərçivəsində Naxçıvan Dövlət Universitetinin dörd universitetlə – Azərbaycan Tibb Universiteti, Qaradəniz Texniki Universiteti, İ. M. Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı və İstanbul Yeditəpə Universiteti arasında əməkdaşlıq müqavilələrinin imzalanması ali təhsil ocaqları arasında elmi tədqiqat sahəsində birgə elmi araşdırmaların aparılması, məqalə və elektron dərgilərin yeni tədqiqat üsulları ilə birgə nəşri, Konservatoriyada eləcə də bir neçə humanitar ixtisasda, elektrik və elektronika mühəndisliyi ixtisasında təhsil alan tələbələr üçün mobillik proqramları və ikili diplom layihələri üzrə birgə tədrisin təşkili və eyni zamanda doktorantura və magistratura təhsil pilləsi üzrə texniki və mühəndislik sahələri ilə bağlı ikili diplom proqramının həyata keçirilməsi strateji hədəf kimi qarşıya qoyulmuşdur.

Muxtar respublikada aparılan təhsil islahatlarından ən mükəmməl şəkildə yararlanan doğma ali təhsil ocağımız Azərbaycan Universitetləri arasında da öz fərqliliyi, innovativ yenilikləri ilə diqqəti cəlb edir. Son illər Universitet həyata keçirdiyi layihələrlə ölkə tarixində ilklərə imza atmaqdadır.

Bu sahədə həyata keçirilən məqsədyönlü islahatların nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti özünün maddi-texniki və təşkilati strukturuna görə ən qabaqcıl ali təhsil müəssisəsinə çevrilərək bu gün elm-təhsil-innovasiya sahəsində beynəlxalq təcrübəni tətbiq imkanı qazanmışdır. Bu ilklərdən biri də Azərbaycan ali təhsil sistemində ilk dəfə olaraq doğma universitetimizdə Texnologiyalar parkının yaradılmasıdır. "Naxçıvan Dövlət Universitetində Texnologiyalar parkının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 dekabr 2020-ci il tarixli Sərəncamı bu baxımdan ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırlığına son dərəcə böyük təsir imkanları yaradacaqdır ki, nəticədə ixtisaslı kadrlar hazırlanaraq ölkə iqtisadiyyatına mühüm töhfələr verməklə, elm-təhsil-innovasiya strategiyası formalaşacaq, təhsildə keyfiyyət təminatı uğurla icra olunacaqdır.

Elmi axtarışların davamlılığı, əhatəliliyi və dinamikliyi sahəsində proseslərin daha da sürətlənməsinə təkan olaraq ölkə ali təhsilində ilk dəfə olaraq 11 aprel 2022-ci il tarixdə Naxçıvan Dövlət Universitetində IELTS imtahan mərkəzi də fəaliyyətə başlamışdır. Ali təhsil ocağının qlobal rəqabətliliyini artıran belə bir mərkəzin NDU-da yaradılması universitetdə və muxtar respublikamızda ingilisdilli təhsilin inkişafına, ingilis dili bacarıqların qiymətləndirilməsinə və namizədlərin beynəlxalq sertifikatla təmin olunmasına öz töhvələrini verəcəkdir.

Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı və ev sahibliyi ilə Naxçıvanda 18-21 iyun tarixlərində keçirilən "I Beynəlxalq Tibbi Forum" da ölkə səhiyyə tarixində növbəti ilklərdəndir. Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə universitetin 18-21 iyun tarixlərdə ev sahibliyi etdiyi "I Beynəlxalq Tibbi Forum" ölkə səhiyyə tarixində ilk hadisədir. Dünyanın 7 ölkəsindən 350-dən artıq elm adamının qatıldığı forumda 700-dən çox iştirakçının təmsil olunması, 26 bölmədə 250-ə yaxın mühazirənin dinlənilməsi, 4 universitetlə əməkdaşlıq müqavilələrinin imzalanması, Konsultativ tibbi müayinələrin və Cərrahi əməliyyatların aparılması, Master klasların, Simulyasiyaların, Seminarların keçirilməsi, Müasir tibbi texnologiyaların sərgisi, Forum çərçivəsində 8 dəfə səyahət turlarının reallaşması, Qala gecəsinin, Konsert proqramlarının keçirilməsi "I Beynəlxalq Tibbi Forum"un ölkə tarixində nə qədər mühüm tarixi hadisə olduğunu bir daha göstərdi.

Ölkə Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi uzunmüddətli davamlı inkişaf strategiyası işığında yüksək hədəflərə nail olunmasını Naxçıvan Dövlət Universiteti qarşıdakı dövr ərzində aşağıdakı bir neçə istiqaməti vəzifə olaraq müəyyən etmişdir:

- təhsildə effektivliyi və keyfiyyəti yüksəltmək üçün innovativ tədris metodlarından və yeni elmi nailiyyətlərdən istifadə etməyi;

- Boloniya prinsipləri əsasında müəllim, tələbə, magistrant və doktorantların akademik mobilliyinin artırılması üçün beynəlxalq mübadilə imkanlarından daha geniş istifadə etməyi;

- beynəlxalq layihələrdə və proqramlarda iştirak etmək yolu ilə akademik müəllim və tələbələri elmi-pedaqoji fəaliyyətə cəlb etməyi;

- ali təhsilli kadrların elmi-tədqiqat işlərinin yerinə yetirmə bacarığının formalaşması, müasir şəraitdə elmi-tədqiqat yönümlü yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında labaratoriya, mərkəz və kabinələrin imkanalarından geniş istifadəni;

-elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə kimi təhsilin idarəedilməsi modellərini özündə birləşdirmək, dünya təhsil sisteminə inteqrasiyasını daha da sürətləndirmək məqsədilə ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində yaradılan Distant Təhsil Mərkəzinin imkanlarını genişləndirməyi;

- müasir təfəkkürlü peşəkar mütəxəssis hazırlığını, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasını, yaradıcı düşüncənin inkişafını;

- yüksək templə irəliləyən beynəlxalq əlaqələrin davamlı inkişafını;

- universitetin dünya reytinq cədvəlində yerini qorumaqla daha da irəliləməyi.

Muxtar respublikamızda həyata keçirilən davamlı inkişaf strategiyasından bəhrələnərək inamla addımlayan Naxçıvan Dövlət Universiteti qarşıdakı dövrlər üzrə təhsildə keyfiyyət və davamlı islahatları hədəf olaraq daha dəqiq və qətiyyətlə müəyyənləşdirmişdir.

**Arzu ABDULLAYEV**
***Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi partiya təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru***

# Parlaq Zəfərin, tarixi Qələbənin günü: 8 Noyabr

*"Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 dekabr tarixli Sərəncamına uyğun olaraq ölkəmizdə 8 Noyabr Zəfər Günü kimi qeyd olunur. Sərəncamda deyilir:* ***"Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin Qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün Qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi Zəfər çaldı".***

İki il bundan öncə döyüş meydanında tarix yazan müzəffər ordumuz təkcə düşmənə yox, onun havadarlarına, eləcə də bütün dünyaya bəyan etdi ki, haqq-ədalət də, döyüş qüdrəti də, xalq-ordu-lider birliyi də, iqtisadi güc də, vətənpərvər gənclik də məhz bizdədir. Biz 30 ilə yaxın mif, nağıl uydurmadıq, reallıqları gördük, təhlil etdik, ordumuzu gücləndirdik, Liderə və dövlətçiliyə məhəbbət ruhunda tərbiyə aldıq, dostumuzu, düşmənimizi tanıdıq və böyük bir amal uğrunda – ölkəmizin ərazi bütövlüyünü təmin etmək, yağının murdar ayağını Qarabağdan kəsib atmaq üçün yola çıxdıq. Qələbənin, Zəfərin bizim olacağına əmin edik. Çünki bizim sözü və imzası bir olan, müstəqillik illərində ordumuzu bütün parametrlər üzrə Cənubi Qafqazın liderinə çevirən Ali Baş Komandanımız, eləcə də xarakterində yenilməzlik, döyüşkənlik, yadelliyə baş əyməyən, tarixən Vətəni uğrunda son damla qanına kimi vuruşan xalqımız var idi. İndi təqvimdə belə bir tarix var: 8 Noyabr Zəfər Günü. Bəli, bu günü Azərbaycan xalqı, ordusu, onun Müzəffər Lideri böyük zəhmətin, iradənin, qətiyyətin, yenilməzlik ruhunun təntənəsi kimi gələcək nəsillərə ərmağan etdi. Məhz təqvimin bu günündən etibarən Zəfərimiz rəsmiləşdi, dünya bizi Qalib dövlət kimi tanıdı. İstənilən halda müharibələr, zəfərlər asanlıqa əldə edilmir. Bunun arxasında düşünülmüş siyasət, uğurlu diplomatiya, müasir ordu quruculuğu, güclü iqtisadiyyat və ən əsası hərtərəfli hazırlanmış vətənpərvər gənclik dayanır. Azərbaycan xalqını Zəfər Gününə aparan yol heç də asan olmayıb.

Belə ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etsə də, bu müstəqilliyin əsas təminatçısı olan milli ordu yaradılmamışdı. "Güclü ordu müstəqil dövlətçilik, sabitlik və inkişaf deməkdir. Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır", – deyən ümummilli liderimiz Heydər Əliyevin atdığı qətiyyətli addımlar nəticəsində Azərbaycanın ən yeni tarixində milli ordunun formalaşmasına Naxçıvandan başlanıldı. Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra ordu quruculuğu istiqamətində mühüm qərarlar qəbul etdi, Naxçıvanda Dövlət Müdafiə Komitəsi yaradıldı. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edildi.

Həmin vaxt ölkəyə rəhbərlik edən naşı siyasətçilər hakimiyyət davası edir, ordunun maddi-texniki təminatı ilə maraqlanmırdılar. Bütün bunların fonunda ölkəmizdə yaranmış xaosdan, anarxiyadan istifadə edən mənfur düşmən əzəli torpaqlarımızın 20 faizini işğal etdi. Azərbaycan xalqı və və dövləti heç vaxt işğal faktı ilə barışmaq fikrində deyildi. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusu Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Cənubi Qafqazın lider Ordusuna çevrilməyi bacardı. Müstəqillik illərində ən müasir atıcı silahları, rabitə vasitələri, pilotsuz uçuş aparatları, dronları və ən əsası hansı amal, hansı məqsəd uğrunda orduda xidmət etməyi ilən peşəkar əsgər və zabit heyəti ilə ordumuz hər keçən gün gücünə güc qatdı. Regionda daim sülhsevər niyyəti ilə tanınan Azərbaycan düşmənə tarixi torpaqlarımızı tərkə etmək üçün 30 ilə yaxın vaxt verdi, münaqişənin sülh yolu ilə həlli yolunu axtardı. Amma mənfur düşmən nəinki işğalçılıq niyyətindən əl çəkmədi, hətta dünyanın aparıcı platformalarında yeni ərazi iddialarında olduqlarını bəyan etdilər. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin may ayında Naxçıvanda həyata keçirilən Günnüt əməliyyatı və nəhayət, 2020-ci ilin iyul ayında dövlət sərhədinin Tovuz rayonu istiqamətinə təxribat törədən düşmənə qarşı vurulan zərbə onlar üçün dərs olmadı.

2020-ci il sentyabrıbn 27-də səhər saatlarında yenidən Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələrinə qarşı təxribat törədən düşmənə qarşı əks-hücum əməliyyatı ilə tutarlı cavab verildi. 44 gün davam edən Vətən müharibəsində dövlət-xalq-ordu birliyinin sayəsində erməni işğalına son qoyuldu, düşmənə döyüş meydanında böyük bir zərbə vuruldu. Böyük Qələbənin əhəmiyyətindən danışarkən ilk və xüsusi olaraq onu qeyd etməliyik ki, Kürəkçay müqaviləsindən keçən son 200 illik tariximizdə Prezident cənab İlham Əliyev yeganə Şəxsiyyət, ilk Liderdir ki, itirilmiş, düşmən tərəfindən işğal olunmuş ərazilərin azad edilməsinə və xalqa qaytarılmasına nail oldu. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yeritdiyi güclü daxili və xarici siyasət, Prezident kimi siyasi fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər qazandığımız Qələbənin özəyini təşkil edir. Düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı. Döyüş meydanından vahimə içində qaçan düşmənin yüzlərlə müxtəlif döyüş texnikası, silah-sursatı məhv edildi və qənimət kimi ələ keçirildi.

Tarixi Zəfərin əldə olunmasında Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da yaxından iştirak etdilər. Ali Baş Komandanın bütün əmrlərinə daim müntəzir olan naxçıvanlı döyüşçülər Şuşa şəhərinə qədər şərəfli döyüş yolu keçdilər, bu yolda şəhid oldular, şərəfli qazi adını qazandılar. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin də dediyi kimi: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".***

Vətən müharibəsi noyabrın 10-




da Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı birgə Bəyanatla başa çatdı. Hərbi əməliyyatların məqsədi ilk gündən sülhə məcburetmə əməliyyatı kimi göstərilirdi və biz məqsədimizə çatdıq. Ali Baş Komandan Ermənistanı sülhə məcbur etdi. Döyüş meydanında qazanılmış qələbələr diplomatik-siyasi müstəvidə də Qələbənin qazanılmasını şərtləndirdi. 44 günlük müharibənin şah əsəri olan Şuşanın işğaldan azad edildiyi gün – 8 Noyabr tarixi isə möhtəşəm Qələbəmizin, şanlı Zəfərimizin tarix oldu. Müharibənin bitməsindən bir ay sonra Qalib Ordu Bakının Azadlıq meydanında Zəfər paradına çıxdı. Haqq savaşımızın qalibiyyətinə həsr olunan Zəfər paradı böyük Qələbəmizin nidasıdır. Bu, Müzəffər Ali Baş Komandanımızın bəyan etdiyi ***"Qarabağ Azərbaycandır!"*** həqiqətinin məntiqi nəticəsi idi. Burada bir vacib məqamı mütləq qeyd etmək lazımdır. Bu Zəfər Paradı Böyük Vətən müharibəsində SSRİ-nin Almaniya üzərində qələbəsi şərəfinə Moskvada keçirilən tarixi hərbi paraddan sonra Post-Sovet məkanında keçirilən ilk Qələbə paradı idi . Və daha bir vacib məqam ondan ibarətdir ki, hər iki parad faşizm üzərində Qələbənin paradıdır. Birincisi alman faşizmi üzərində Qələbə idisə, ikincisi erməni faşizmi üzərində Qələbənin paradıdır. Bu parad İkinci Qarabağ müharibəsi adını almış 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Qələbənin göstəricisidir. Bu paradın özünəməxsus özəlliyi, digər paradlardan fərqi vardır. Dövlətimizin başçısı cənab İlham Əliyevin 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda söylədiyi bu fikirləri xatırlatmaq istərdik: ***"Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".*** Nəhayət, gözlənilən gün – o böyük gün gəldi. Dekabrın 10-da Bakının Azadlıq Meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi.

Müharibə bitib, Azərbaycan regionda yeni reallıqlar yaradıb, yeni əməkdaşlıq platformaları üzərində işləyir. İki il öncə döyüş əməliyyatlarının getdiyi ərazilərdə indi böyük abadlıq-quruculuq işləri aparılır, Qarabağ dirçəlir. Geridə qoyduğumuz iki il ərzində dəfələrlə işğaldan azad olunmuş ərazilərə səfər edən, mühüm infrastruktur layihələrinin təməlini qoyan, həmin rayonların ictimaiyyət nümayəndələri ilə görüşən Müzəffər Ali Baş Komandan Böyük Qayıdış prosesinin uğurla həyata keçirildiyini bütün dünyaya nümayiş etdirir. Artıq Qarabağ torpağına müharibədən sonra salınan Zəfər yolu ilə yanaşı, hava xətti ilə də getmək mümkündür. Bu iki il ərzində Füzulidə və Zəngilanda iki Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Laçında isə bu işin davam etdirilməsi Azərbaycanın Qarabağla bağlı hədəf və prioritetlərini bir daha dünyaya nümayiş etdirir. Bu ilin oktyabr ayında iki qardaş dövlətin – Türkiyə və Azərbaycan liderlərinin iştirakı ilə istifadəyə verilən Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən amillərdən biridir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu il gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti bu ərazinin beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır. 2022-ci ilin ölkəmizdə "Şuşa ili" elan olunması, bu qədim şəhərin yerli və beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, mühüm quruculuq və bərpa işlərindən sonra keçmiş məcburi köçkünlərin Zəngilanın "ağıllı Ağalı" kəndində qayıtması, yolların salınması, tunellərin tikilməsi, aqrolayihələrin həyata keçirilməsi göstərir ki, Azərbaycan dövləti müharibəni, təlafat və dağıntıları hər zaman olduğu kimi, bu gün də rədd edir, sülh gündəliyini masa üzərinə yatırmaqla beynəlxalq əməkdaşlıq platforması təklif edir. Amma bütün bunlara baxmayaq, mənfur düşmən həmişəki kimi yenə də öz çirkin əməllərindən, xislətindən əl çəkmir, daim dövlət sərhədində təxribatlar törədir. Bu ilin avqust və sentyabr aylarında dövlət sərhədində geniş hərbi təxribat törədən düşmən yenə də başından "Dəmir yumruq" aldı. Düşmən rəzil məğlubiyyəti qəbul edərək anlamalıdır ki, bu, çıxış yolu deyil. Azərbaycan Prezidenti hər zaman çıxışlarında qeyd edir ki, revanşist hislərlə yaşamaq qarşı tərəfə heç nə qazandırmayacaq. Mənasız, cəfəng qisas arxasınca düşmən əvəzinə Zəngəzur dəhlizinin açılması layihəsinə müsbət reaksiya verib regionda rahat nəfəs almaq olar. Zəngəzur dəhlizi cənab Ali Baş Komandanın ermənilərə təklif etdiyi son və ən yaxşı yoldur. 30 ildir işğalçılıq siyasətinə görə bütün iqtisadi layihələrdən kənarda qalıb böhran və daxili xaos, işsizlik içində boğulan ermənilər üçün dəhlizin açılması beynəlxalq əməkdaşlıq, iqtisadi inkişaf, qonşularla normal münasibət qurmaq şansı deməkdir. Bu şansı, fürsəti isə onlara Azərbayacnlın Qalib Lideri cənab İlham Əliyev təklif edir.

Bu dəhliz təkcə hərbi və siyasi cəhətdən deyil, eyni zamanda ticarət baxımından da olduqca əhəmiyyətlidir. Zəngəzur dəhlizinin açılması təkcə Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirməyəcək, həm də Türkiyə-Azərbaycan, Türkiyə-Mərkəzi Asiya əlaqələrinin daha da dərinləşməsinə mühüm töhfə verəcək. Zəngəzur dəhlizi həm də Naxçıvan blokadasını yaracaqdır. Blokada şəraitindəı yaşamasına baxmayaraq, inkişaf parametrlərinə görə ölkəmizdə rekordsmen bölgə olan Naxçıvan Muxtar Respublikası Zəngəzur dəhlizinin açılması ilə iqtisadi qüdrini daha da artıracaq, beyəlxalq logistik mərkəzə çevriləcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"…Ölkəmizdə şəhid ailələrinə, müharibə veteranlarına və Vətənin müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxslərə qayğı da həyata keçirilən sosial siyasətin əsas istiqamətidir".*** Naxçıvanda böyük Zəfərin qazanılmasında müstəsna əməyi olan şəhidlərimizin əziz xatirəsi daim uca tutulur, şəhid ailərinin eləcə də qazilərin sosial problemləri uğurla həll olunur. Bu qəbildən olan şəxslərin tibbi reablitasiyası da diqqət mərkəzindədir. Ötən ilin sentyabr ayında ölkə başçısının müvafiq Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzillə və ya fərdi evlə təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə bir milyon manat vəsaitin ayrılması, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə mütəmadi olaraq şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına mənzillərin avtomobillərin verilməsi bir daha onu göstərir ki, müstəqil Azərbaycan dövəti ərazi bütövlüyümüz uğrunda canəndan keçən şəhidlərimizə, onların ailə üzvlərinə, eləcə də bu yolda sağlamlığını itirmiş şəxslərə böyük qiymət, dəyər verir.

***

Artıq Azərbaycan xalqının Qarabağ dərdi, Şuşa kimi qanayan yarası yoxdur. İllərdir yurd yerlərindən, ev-eşiklərindən didərgin düşən soydaşlarımız ürəklərini sızladan Vətən ağrısına birdəfəlik şəfa tapdılar. Artıq güclü dövlət, bütöv AZƏRBAYCAN var. İndi hər bir azərbaycanlının bir müqəddəs amalı var: öz Müzəffər Liderinin səsinə səs verib viran qalmış yurd yerlərimizi gülüstana çevirmək. Azərbaycan xalqı öz Prezidenti, Ali Baş Komandanı cənab İlham Əliyevin və Azərbaycan ordusunun arxasındadır. Bu birlik Vətən müharibəsində Qalib gəldiyi, Qarabağı qaytardığı kimi, Qarabağa həyat və inkişaf da gətirəcək. Bu ilin sentyabr ayında işğaldan azad olunmuş Laçın şəhərində Azrbaycan bayrağını əbədi yüksəkliyə qaldıran cənab İlham Əliyev deyib ki: ***"…Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz işlər - genişmiqyaslı quruculuq və bərpa işləri göstərir ki, biz öz diyarımızı, Vətənimizi öz hesabımıza bərpa edirik və edəcəyik".***

**Muxtar Rzazadə**
***"Mətbuat tarixi" ixtisası üzrə***
***I kurs magistrant***

# YENİLMƏZ VƏTƏNİN QƏHRƏMAN OĞLU

*Doğma şəhərimizdən, Naxçıvanımızdan Şərur rayonuna doğru uzanan magistral yol bizi yavaş-yavaş bir ünvana aparır. Yolboyu ilk olaraq haradan başlayacağımı, nə deyəcəyimi, nə sual verəcəyimi düşünürəm, elə hey ağlımda bu fikirlər var-gəl edir: "İlk sualı kimə ünvanlayım? Kimdən soruşum onu?" Qərar verə bilmirəm... Axı onların yarası hələ qaysaq bağlamayıb. Yaşadıqları ağrı-acını sözlərlə ifadə etmək isə qeyri-mümkündür. Övlad itkisi... bu dərdi yalnız yaşayanlar bilər, ürəyində oğul dağı daşıyanlar, arzusu, diləyi övladı ilə qara torpağa qərq olunanlar bilər... Bu acını yaşayan şəhid valideynlərini isə birləşdirən bir ortaq xüsusiyyət var – nə qədər çətin olsa da, məğrurdurlar, qürurludurlar. Hələ körpəlikdən gələcəyini hərb sənətinə bağlayan, silaha sarılıb "Vətən sağ olsun!" – deyən övladın valideyni olmaq necə fərəhləndirməsin, necə qürurlandırmasın insanı?! O, döyüşün ən qızğın anında belə geri çəkilməmişdi, sonuna qədər mübarizə aparmışdı, "Qarabağ Azərbaycandır!" həqiqətinin dərk edilməsi yolunda öz borcunu yerinə yetirmişdi, Vətən borcunu, qeyrət borcunu... Əli Əliyevi deyirəm, Şərur rayonunun qəhrəman övladını.*

**Şəhid ocaqları mənəviyyat guşəsidir...**

Mənzil başına çatırıq. Şux səsinin, cavanlıq həvəsinin, arzusunun, xəyalının hər qarışına hopduğu həyətə yaxınlaşıram. Kim bilir, bir zamanlar bu həyət nə xoşbəxtliklərə, nə xoş sədalara şahidlik etmişdi. İndi isə yalnız xatirələr danışır, danışdıqca, dilləndikcə qəlbləri fərqli-fərqli duyğulara kökləyir.

...Şəhidimizin atası Cavad Əliyev Yengicə kəndinin zəhmətsevər insanlarından biridir. O öz halal ruzisi ilə ocağında üç övlad böyüdüb. 1997-ci ildə doğulan Əli bu ailənin ortancıl övladı idi. Uşaqlıqdan torpağa bağlılığı, əməyə sevgisi ilə seçilirdi həmyaşıdlarından. Cavad əmi qəhrəman övladının xatirələrindən söhbət açır bizə:

– Əli hələ uşaqlıq illərindən hərb sənətinə maraq göstərmişdi. Qəlbində daşıdığı bu ülvi həvəs onun əlindən tutub Heydər Əliyev adına Hərbi Liseyə apardı. Oranı müvəffəqiyyətlə başa vurdu. Daha sonra Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Hərbi Akademiyasında təhsilini davam etdirdi. Əsl hərbçi səbri göstərdi, heç zaman vəziyyətindən şikayətlənmədi. Tək arzusu, niyyəti torpaqlarımızın işğaldan azad olunması, müqəddəs Vətən torpaqlarında üçrəngli bayrağımızın dalğalanması idi. Hətta peşəsini daha da təkmilləşdirmək üçün Türkiyə Respublikasında Səhra Komanda Birliyində uğurla iştirak etdi, "yaşıl beret" aldı. 2019-cu ildə leytenant hərbi rütbəsi qazandı. Müxtəlif cəbhə bölgələrində xidmətini ayıq-sayıq davam etdirdi. Nə zaman danışsaq, vəziyyətinin yaxşı olduğunu deyərdi. Ən çox anası üçün darıxardı. Hər zaman böyüklər deyər ki, ananı sevən övlad başda Vətəni sevər, yurdu sevər. Bu, həqiqətən də, belə imiş. Oğlumun ən yaxşı sirdaşı anası idi, ondan heç nəyi gizlətməzdi. Mən övladımla hər zaman fəxr etmişəm, qürur duymuşam. Əli şəhid adı qazanmaqla tək bizim deyil, bütün Azərbaycan xalqının övladı oldu. Xalqımız şəhidlərini heç zaman unutmur, unutdurmur. Dövlətimiz tərəfindən şəhidlərimizin xatirəsi hər zaman uca tutulur, ailə üzvlərinə qayğı göstərilir, maddi və mənəvi rahatlıqlarının təmin edilməsi yolunda canla-başla çalışılır. Təki Vətən sağ olsun!

**Başını dik tut, şəhid anası**

Bir şən, bir sevincli oğul böyütmüşdü Nailə ana. Bütün xəyalını, ümidini, arzusunu ona bağlamışdı. Hər dəfə məktəbə yola salanda, qarşılayanda böyük insan olacağına inanırdı, gözləri hər dəfə bəy libaslarına, toy xonçalarına sataşanda oğlunun toy büsatı canlanırdı qəlbində, könlündə məskən tutmuş ən gözəl diləklər pərvazlanırdı göylərə. Ürəyinin oduyla, gözünün nuruyla, min bir əzab-əziyyətlə böyütdü oğlunu. Hələ körpəlikdən – oğlum böyüyüb əsgər olsun, torpağını, Vətənini qorusun, – deyib əzizləyirdi övladını. Oğlu böyüdü... hərbçi oldu, həm də qəhrəman hərbçi... Anasının ən gözəl arzusunu yerinə yetirdi, torpağını – Vətənini qorudu. Yalnız qorumaqla kifayətlənmədi, onu düşmən tapdağından xilas etdi, Vətəni yolunda canını fəda etdi, şəhid oldu...

Minlərlə Vətən övladının anasıdır Nailə ana. Qeyrəti, vüqarı, sınmaz iradəsi ilə şəhid oğlunun son arzusunu yerinə yetirir – dik dayanır, çətin də olsa yaşadığı ağrı-acı, "təki Vətən sağ olsun!" – deyir.

– Uzun çəkən ayrılıqdan sonra oğlum evinə, doğma ocağına gəlmişdi. Bu gəlişi fərqli oldu həmişəkindən. Bu dəfə onu mən deyil, bayraq qucaqlamışdı. Hər dəfə gəliş xəbərini verəndə ən sevdiyi yeməkləri hazırlayardım. Hərbçi olduğu üçün ailədən çox Vətəni düşünərdi, silahla, torpaqla, səngərlə üz-üzə, nəfəs-nəfəsə olardı. Hər gəlişində mənimlə saatlarla söhbət edərdi, halımı soruşardı, gözlərini gözümə dikərdi, mən onunla nəfəs alırdım, o da mənimlə. Övladımın tabuta sarılmış üçrəngli bayrağını gördükdə sarılmaq istədim ona, başına sığal çəkmək istədim, son dəfə öpüb qoxuladığım başını mən yox, Vətən bayrağı qucaqlamışdı, uyumaq üçün müqəddəs Vətən torpağının qoynuna gedirdi. Bir valideyn üçün bundan çətin ana ola bilməz həyatda. O səhnə qarşısında daha yaxşı anlayırsan ki, Vətən ən gözəl cənnət, şəhid oğlum isə Allahın ən əziz, sevilən bəndəsidir. Balamın qurban getdiyi yurda canımız fəda olsun, başda Əli olmaqla Allah bütün şəhidlərimizə rəhmət etsin, məkanları cənnət olsun.

**Vətən müharibəsindən başlayan mübarizə yolu**

Əli Əliyev leytenant rütbəsi aldıqdan sonra ölkənin müxtəlif bölgələrində xidmətini davam etdirir. İlk hərbi vəzifəsini müvəffəqiyyətlə başa vurur. 44 günlük Vətən müharibəsi başlayanda Əli öz yoldaşları ilə cəbhə bölgəsinə yollanır. Uğurla, cidd-cəhdlə torpaqlarımızın işğaldan azad olunması istiqamətində xidmət göstərir. Haqq-ədalət savaşına baş leytenant hərbi rütbəsi ilə Tərtər rayonundan başlayır, bu cəng Suqovuşanın işğaldan azad edilməsi ilə başa çatır. Əli "Qisas" əməliyyatının yerinə yetirilməsində də fəal iştirak edir, Fərrux kəndinin işğaldan azad olunmasında canla-başla vuruşur, yaralanır, sağlamlığına qovuşduqdan sonra yenə silah yoldaşlarının yanına, cəbhə bölgəsinə qayıdır. Onun mübarizə əzmi dövlətimiz tərəfindən qiymətləndirilir – "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilir. Vətənə, torpağa, yurda bağlılıqla keçən mənalı 25 illik ömrü isə nəinki Şərur elinə, Azərbaycan gəncliyinə örnək olur.

**Vida zəngi...**

Deyirlər, Uca Yaradan sevdiyi bəndələrini ən başdan hazırlayar əbədi görüşə, qəlblərində bu görüşün şövqünü alovlandırmaqla hiss etdirər əbədi həyatı, əbədiyaşarlığı. Şəhadət yoluna çıxan, şəhid adını qazanan bütün igidlərimizin ailələri bir həqiqəti təsdiq edir – onlar lap qabaqcadan sezmişdilər bu yolun son olduğunu. Kimisi axır saatlarında övladının şəklinə tamaşa edir, kimisi sevdikləri ilə keçirdiyi ən xoş anlarını xatırlayır, keçdiyi qısa həyat yolu kinolent kimi canlanır gözündə, kimisi də son dəfə ailəsi ilə danışarkən "haqqınızı halal edin, məndən nigaran olmayın", "hər şey yaxşıdır, yaxında qayıdacağam yanınıza", – deyir... Şəhid Əli Əliyev kimi... Son dəfə sentyabr ayının 12-dən 13-ə keçən gecə zəng etmişdi atasına. Hal-əhval tutmuşdu, cəbhədəki gərginliyi hiss etdirməmək üçün elə hey vəziyyətin yaxşı olduğunu demişdi. Anasını, atasını, arxası-dayağı olan qardaşını, "sənin toyunu özüm edəcəyəm", – deyib söz verdiyi tək ümidi, pənahı olan bacısını inandırmaq istəmişdi bu müqəddəs yalana. Çox qısa çəkdi vida zəngi. Sağollaşdı



ailəsi ilə. Cəmi bir neçə saat... Düşmən təxribatının qarşısını alarkən ağır yaralandı, amma geriyə çəkilmədi. Sürünə-sürünə döyüşün od-alovu içərisinə atdı özünü, üçrəngli bayrağı zirvəyə qaldırdı, elə bu anda mənfur düşmənin atdığı iriçaplı silah qəlpəsinə tuş gəldi. Namərd düşmən təkcə Əliyevlər ailəsinin yox, bütün Naxçıvanın arzusunu ürəyində boğdu, baş leytenant Əli Əliyev isə sentyabr ayının 13-də əbədiyyətə qovuşdu.

**Payız düşüncələrim...**

Qayıtmaq vaxtı çatıb artıq. Payızın sərin mehi duyulur havada... Ağaclardan düşən hər yarpaq mənə insan ömrünü xatırladır. Göz izlədikcə uzağı, yaxını, payız düşüncələri süzülür dilimdən: gah nurlu simalı, ılıq təbəssümlü, gah da küskün baxışlı, müdriklik rəmzi fəsil. Sən həm də sevənləri qovuşduran toy-büsat fəslisən, Zəfər rəmzisən! Ayrılıqların, həsrətlərin vüsal çələngisən. Qüssə, qübar niqabını çək üzündən, sıyrıl qəmdən. Yurdumuzdan qəm buludu yoxa çıxıb, qoy qurutsun zərrin-zərrin al şəfəqlər nəm üzünü. Təbəssümün paklandırsın ürəkləri, qismət olmasın heç bir ocağa şəhid, itkin xəbəri. Axı yurdumun əbədilik bahar növrağıdır! Diləklərimiz yaşıl don geyinib, çiçəklənib ümidimiz, qərib quşlar dönüb isti yuvasına, cah-calalı, xoş növraqlı günlər gəlib, bağça-bağlar bar yetirib, var gətirib. Sanma ki, Əli kimi qəhrəmanların yerləri dolmaz, boş qalar. Bil ki, mübariz xalq bir ölsə də, min dirilər, yaşayar, yaradar, düşmənə gözdağı, dosta arxa-dayaq olar. Vətənimiz öyünər şəhidləri ilə, qürurlanar mübariz oğulları ilə. Biz də fəxrlə deyərik: Vətən sağ olsun!

**Məcid RƏŞADƏTOĞLU**
**Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi**

# VƏTƏN QEYRƏTLİ ÖLÜMSÜZLƏR

*Bu torpağı Vətən edən şəhidlərimizdir. Şəhid...Şəhid kimdir..? Torpaq, Vətən uğrunda, sevdikləri var demədən, soyuq, qar, qış, isti demədən, dildə, qəlbdə Vətən deyərək, sanki illərin ağrı-acısı, kini, nifrəti, həsrəti qəlblərində yığışmışcasına düşmənlə mübarizə apararaq canından keçənlərdir şəhidlər..*

İki il bundan öncə 44 günlük şərəfli bir müharibənin ilk addımı atıldı.O addım ki 30 illik bir həsrətə son qoyacaqdı. Kim bilərdi ki, 30 il öncə ana qucağında olan oğullar, indi tank belində vətəni qoruyacaq?..İllərdir həsrətini çəkdiyimiz o torpaqlara böyük qürur, fəxarət hissiylə daxil olduq. Niyə fəxarət? Niyə qürur? Çünki artıq elə güclü bir Ali Baş Komandan və elə cəsur, qüdrətli ordumuz var idi ki, bizlərdə də o hiss yarandı. Bizlər əmin idik ki, 30 il öncə tökülən qanlar yerdə qalmayacaq!

Bütün xalq səfərbər idi, hər kəs "Hazır ol!" əmri ilə müharibəyə getmək üçün can atırdı. Nəinki oğullar, kişi qeyrətli qadınlarımız, hətta, əsgərlik üçün yaşı çatmayan uşaqlarımız belə... Qocalar...Onlar ki illərdir bu ağrını, nifrəti qəlblərində daşıyırdılar, onlar ki onların tam şəhidi idilər... Bizsə xalq olaraq birlik olduq. Cənab prezident İlham Əliyevin də söylədiyi kimi, "Dəmir yumruq" olduq. Döyünən bir ürək olduq.

Sərhədlərdən gələn xəbərlər bizləri həm sevindirir, həm də kədərləndirirdi.



Hər gün oğullarımızın qəlblərdə fəxr hissi oyadan igidliklərini eşidirdik. Bununla yanaşı, yeni səfərlərdə müəyyən istiqamətlərdəki zonalarımızın azad olduğunu duyurduq. Budur qəhrəmanlıq, budur əzm, 44 gündə nələri bacara biləcəyimizi nəinki düşmənlərimizə, bütün dünyaya sübut etdik. Sübut etdik ki, mövzu əgər vətəndirsə, bizləri heç bir əngəl tuta və qorxuda bilməz. Çünki Vətən anadır, dindir, imandır, doğulub – böyüdüyümüz, torpaqlarında ilk addım atdığımız, nemətlərilə qidalandığımız məkandır. Vətən ana qucağıtək isti, əzizdir. Vətən qəlbimizdə alışıb-yanan bir oddur ki, əsla sönməz! Vətən üçün candan keçmək gərəkdir! Vətəni qorumaq bizim borcumuz, vəzifəmizdir. O necə ki bizləri qoynunda böyüdüb, necə ki bizə anadır, biz də ona övladıq. Biz anaya verilən övlad qayğısını vətənə verməliyik. Bir az öncə qeyd etdiyim kimi, məhz elə bunun üçün igidlərimiz Vətən deyib irəlilədilər. Göydə Allaha, yerdə vətənə sevgilərindən, düşmənə nifrətlərindən doğan güclərinə inanaraq irəlilədilər...

Nəhayət, 8 Noyabr, illərdir gözlədiyimiz o an gəlib çatdı. Cənab Prezidentimiz söylədi: "*Qarabağ azaddır! Qarabağ bizimdir!*". O an hər kəsin qəlbi Vətən sevgisi hərarətilə, fəxr hissilə döyünür, gözlərdən sevinc gözyaşı axırdı. Qadınlar, qoca, uşaq -hər kəs küçələrə axın etmişdilər. Hər tərəfdə üçrəngli bayrağımız dalğalanırdı... Həsrət bürümüş gözlərdə artıq qovuşmağın sevinci var idi.

Bununla yanaşı qazilərimiz, və 2902 şəhid.. Xalqın şəhidi,Vətənin şəhidi..Nə qədər gülsək də qəlbimizin bir hissəsini hələ də kədər bürüyüb. Gözlərimizdə 2902 igid oğlumuzun həsrəti var. Biz bu qələbəni onlara borcluyuq.

Hər səhər sülh içində oyanırıqsa, bu torpağa rahatlıqla addım atırıqsa, biz onlara borcluyuq! Aldığımız hər nəfəs üçün onlara borcluyuq!..Bu Vətən, bu xalq hürdürsə, birdirsə biz onlara borcluyuq!...Bütün əsgərlərimizə, qazilərimizə borcluyuq... Biz onlara körpəlikdən vətəni sevdirən qeyrətli analarımızın qarşısında baş əyirik, biz onlara minnətdarıq.

**Nuray Qurbanqızı**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# ŞƏHİDİM MƏNİM!



*Yürüdün top ağzına köksünü gərə-gərə,*
*Vurulub yerə düşdün, özün döndün səngərə,*
*Bütün Vətən borcludur sənin kimi nər-ərə,*
*Şəhidim mənim!*

*Haqsıza yer göstərib, Haqdan murad qazandın,*
*Yağını diz çökdürdün, ölməz bir ad qazandın,*
*Gülümsəyərək dedin: - Vətən övlad qazandın,*
*Şəhidim mənim!*

*O torpağı köksünə sıxıb vuruşdun hər an,*
*Şəstlə düşmənə dedin: - Bu mən, bu sən, bu meydan.*
*Sənin axan qanına milyon-milyon can qurban,*
*Şəhidim mənim!*

*Yeni tarix başlatdın o tökülən qanınla,*
*Şəhidliyin mənasın yenilədin canınla,*
*Vətən indi öyünür uyuyan məkanınla,*
*Şəhidim mənim!*
*Şəhidim mənim!*

***İman Cəfər***

# VƏTƏNİ YAŞADANLAR



Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Zamanın gedişində bi çox tarixi hadisələr baş verir. Bəziləri unudulur bəziləri tarix boyunca bizimlə olur. Nəsillər bir birini əvəz etdikcə bu tarixi gün daha çox xatırlanır. Lakin heç unuda bilmədiklərimiz olur. Hər xatırladıqa şirin qürur hissi ilə yanaşı, acı xatirələr yada düşür. Şəhidlərimiz, bizim qürurumuz, var olma səbəbimiz. Həm bu dünyada həm də digər dünyada yeri əvəz olunmayacaq şəxslər. Baxın onlardır heç bir zaman unudulmayan şəxslər. Bir insan düşünün ki, vətəni, milləti, torpağı uğrunda ailəsindən, sevdiklerinden, şüurlu sürətdə vazkeçir. Ac, yuxusuz, yorğun, ağrı acılarla dolu, vətən torpağını öz qanı ilə sulamış şəxslər. Baxın elə o şəxslərdir heç unudulmayacaqlar.

Ordumuzun ermənilərin hücumlarına cavab olaraq başladığı vətən müharibəsi xalqımızın 30 illik həsrətinə 44 gündə son qoydu. Vətənpərvər oğullarımızın erməni təcavüzünü qəhrəmancasına dəf etməsi xalqımızın qələbə əzminin nümayişi oldu. Hər kəs vətən fədaisi oldu o gün. İllərlə yaşadığımız ağrı acılar bir anda sevincə çevrildi. Ordumuzun bu qalibiyyəti, Azərbaycan xalqının içindəki vətən sevgisini, Azərbaycan ordusunun gücünü bütün dünyaya göstərdi. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Fizuli, Zəngilan, Qubadlı şəhərlərini Azərbaycan xalqının tarixdə mədəniyyətində və ən əsası qəlbində xüsusi yeri olan Qarabağın tacı sayılan Şuşa şəhərini Zəngilan rayonunun Mincivan, Ağbənd və Bartaz qəsəbələrini 300-dən çox yaşayış məntəqəsini həmçinin Ağdərə Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir. Bu savaşda həm xalqımz, həm ordumuz, həm də Prezidentimiz üçün 44 günün hər biri şərəf və ləyaqət günü oldu. Vətən müharibəsində xalqımız bir yumruq kimi birləşdi.

Bu 44 günlük müharibədə bütün ölkə vətəndaşları bölgəsindən asılı olmayaraq qarabağlı idi. Xain düşmənin bombaladığı Tərtərin, Gəncənin, Bərdənin dinc sakinlərinin dərdini hamımız çəkdik. Onlar da "canımız ev-eşiyimiz əsgərlərimizə qurbandır, təki yurdumuz mənfur düşməndən azad edilsin",– deyirdilər. Əsgərimiz necə qeyrət, şücaət göstərirdisə, axrada bütün xalqımız da elə səbr təmkin Qələbəyə inam nümayiş etdirirdi. Çünki xalq onun etimadını doğruldan Prezidentə tamamilə inanırdı, güvənirdi. Tarixi Qələbəmiz bu baxımdan ənənəvi dünyamızı da çox zənginləşdirdi. Şəhidlərimizin qanı yerdə qalmadı. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. Xalqımızın şanlı Qələbəsini əbədiləşdirmək və erməni vəhşiliyini həm dünyaya, həm də gələcək nəsillərə nümayiş etdirmək üçün Bakıda Xətai rayonunda açıq səmada beş hektar ərazini əhatə edən hərbi qənimətlər parkı salınmışdır. Hərbi Qənimətlər Parkı Azərbaycan dövlətinin apardığı müharibənin miqyasını və Qələbənin möhtəşəmliyini göstərir.

Bu gün Azərbaycan xalqı 8 Noyabr – Zəfər Gününü Müzəffər, Qələbə qazanmış xalq kimi qeyd edir. Bu, haqq-ədalətin Zəfəridir, düşmənin rəzil məğlubiyyətidir. Qələbə qazanmış, regionda yeni reallıqlar yaradan xalq kimi tarixdə bundan sonra da qürurlu xalq kimi yaşayacağıq. Ərazi bütövlüyünü təmin etmiş, Ali Baş Komandanının ətrafında "Dəmir yumruq" kimi birləşmiş bir millət kimi...

**Şəbnəm Məmmədova**
**Jurnalistika ixtisası üzrə**
**II kurs tələbəsi**

***Yaradılışın həqiqətini dərk edən insan həyatda özünü əməli və şəxsi ləyaqəti ilə təsdiqləyir. Belə insanlar gözəllik qanunları ilə qurub-yaratmağı sevir, həyat həqiqətlərində güclü inamı, nəcibliyi, mənəvi zənginliyi, saflığı ilə seçilirlər. Peşəsindən, vəzifəsindən asılı olmayaraq, bu ümdə vəzifələri öz mənəviyyatında yaşadan insanlar da həmişə elin, yurdun xilaskarı olur, bütün ömrü boyu Vətənin xoşbəxtliyi naminə çalışırlar. Xeyirxahlıq, qayğıkeşlik, seçdiyi peşəsinin müqəddəsliyini qorumaq, nüfuzunu saxlamaq belə adamlar üçün ali məqsədə çevrilir. Yəni müəllim öz təhsilinin gücü, jurnalist qələminin mürəkkəbi, həkim yuxusuz gecələri, şəfqətli əlləri ilə Vətənin keşiyində dayanır, öz mətinlikləri, mübarizlikləri ilə insanlara nümunə olurlar. Bu yazımızda da daim sağlamlığımızın qayğısına qalacaq, öz səbri, iradəsi, təmkini ilə çətin, lakin şərəfli peşənin öhdəsindən layiqincə gəlməyə çalışacaq gələcək həkimlərimizdən danışacağıq. Daha doğrusu, Vətənin ən çətin anında ordumuza arxa-dayaq olacaq, hər yaralı əsgərin qayğısını öz övladı, qardaşı kimi çəkən gələcəyin hərbi həkimlərindən, daha dəqiq desək, ağxalatlı qəhrəmanlarından...***

# VƏTƏN MÜDAFİƏÇİLƏRİNİN GƏLƏCƏK XİLASKARLARI








Xatırladaq ki, 44 günlük Vətən müharibəsi zamanı Ali Baş Komandanımızın iradəsi, gücü, siyasi birliyi, şəhid qardaşlarımızın, qazilərimizin mübarizə əzmi nəticəsində torpaqlarımız işğaldan azad edildi. İki il bundan öncə 27 sentyabrda başlayan Vətən müharibəsi zamanı neçə-neçə gəncimiz torpaqlarımızın işğaldan azad olunması naminə canlarından keçdi, şəhidlik mərtəbəsinə yüksəldi, qazi adı qazandı. Bu müddət ərzində bir həqiqəti daha dərindən dərk etdik ki, Vətən boyda əmanətə sahib çıxmaq üçün əldə silah, ayıq-sayıq keşik çəkməklə bərabər, həm də arxa cəbhədə yurdumuzu mühafizə etmək, yaralı hərbçilərimizə dəstək olmaq, onlara daim inam aşılamaq lazımdır. Bu yolda hərbi həkimlərin rolu danılmazdır, inkaredilməzdir.

Məlumat üçün qeyd edək ki, ölkəmizdə hərbi tibb ixtisası üzrə kadr hazırlayan az sayda ali təhsil ocaqları sırasına artıq Naxçıvan Dövlət Universiteti də qoşulub. Yeni təhsil ilindən etibarən bu istiqamətdə fəaliyyətə başlayan ixtisas barədə biz də məlumat əldə etdik, gələcəyin hərbi həkimləri ilə həmsöhbət olduq.

İlk müsahibimiz ali təhsil ocağının Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədovdur. Həmsöhbətimiz Hərbi tibb ixtisasının yaranma zərurəti haqqında məlumat verərək qeyd etdi ki, Naxçıvan Dövlət Universitetində bu ixtisasın açılmasında başlıca məqsəd Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ehtiyacına uyğun hərbi həkim, feldşer və digər ixtisaslı tibb işçiləri hazırlamaq, bir sözlə, ordu sistemimizi tibbi kadrlarla təmin etməkdir. Bu sahə üzrə kadr hazırlığına çox ciddi yanaşmışıq. Məlumdur ki, Vətən müharibəsi ərəfəsində arxa cəbhədə canlabaşla "vuruşan", hər şəhid xəbərinə kədərlənib, üzülən, lakin iradəsindən dönməyən, müqəddəs anda – Vətəni qorumaq andına sədaqətlə xidmət edənlər sırasında öndə gedən peşə sahiblərindən biri də ağxalatlı həkimlərimiz oldu. Müharibədə yaralananların böyük bir qismi onların gecəli-gündüzlü səyləri nəticəsində öz sağlamlıqlarına qovuşdu. Elsevər müəllim deyir ki, qalib ölkənin müəllimi olaraq bu sahə üzrə ixtisaslı kadrlar yetişdirməyi böyük xoşbəxtlik hesab edir. Hərbi tibb ixtisasına qəbul prosesi digər ixtisaslardan fərqli olaraq daha erkən aparılır. Xüsusi təyinatlı ixtisas olduğu üçün burada oxumaq istəyənlərin xüsusi komissiyadan keçmələri əsas şərtdir. Həmin şəxslər qoyulan tələblərə cavab verməli, bütün müvafiq qaydalara əməl etməlidirlər. Bu şərtlərə cavab verən gənclər tam orta təhsilini bitirməli, 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan şəxslər, yaşı 18-23 arası olan hərbçilər müsabiqədə iştirak edə bilərlər. İxtisasa qəbul olan tələbələrə uzun illər bu sahədə təcrübə qazanmış peşəkar həkimlər dərs deyir, onlara Hərbi tibb ixtisasının incəliklərini öyrədirlər. Bu ixtisası bitirməyin digər bir üstünlüyü ondan ibarətdir ki, gənclər ali təhsillərini başa vurduqdan sonra onlara zabit rütbəsi verilir. Sevindirici haldır ki, hər bir sahədə olduğu kimi, hərbi tibb təhsili də dövlət qayğısı ilə əhatə edilib. Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanlığının himayəsi, dəstəyi ilə tələbələr həm yay, həm də qış geyimi ilə təmin olunublar. Təkcə bununla da kifayətlənmir, ordu tərəfindən təhkim olunan zabit tərəfindən onların davranışları və problemləri, hərəkətləri yoxlanılır. Elsevər Əsədov onu da diqqətə çatdırdı ki, bu ixtisasa marağın artması, gənclərin cəlb olunması fəaliyyət göstərdiyi dövrdə ali təhsil ocağının qazandığı uğurlarla bağlıdır.

Sözügedən ixtisasda təhsil alan tələbə-gənclərimizlə də həmsöhbət oluruq. Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbi "Qızıl" nişanla bitirmiş Tuncay Təhməzli söhbət zamanı bildirdi ki, 576 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Hərbi tibb ixtisasına qəbul olunub. Vətən müharibəsi zamanı bu istiqamətdə xidmət göstərən həkimlərimizin səyləri daim onu özünə cəlb edib. Tuncay dedi ki, Vətəni qorumaq yalnız səngərdə keşik çəkib, düşmənlə üz-üzə dayanmaq deyil. Vətəni qorumaq qazandığın peşədən asılı olmayaraq, öz şəxsi mənafeyini bir kənara qoyub bütün ruhunla, qanınla, canınla torpağı, eli sevməkdir. Hərbi tibb ixtisasını seçən hər bir gənc yaxşı dərk etməlidir ki, Hippokrat andı ilə yanaşı, Vətənə sədaqət andı da içməlidir. Qürurla deməк olar ki, Naxçıvan Dövlət Universitetində bu peşəyə yüksək səviyyədə yiyələnmək üçün hər bir şərait yaradılıb. Burada tam təchiz olunmuş laboratoriyalar, simulyasiya otaqları, zəngin kitabxana var. Bunlarla yanaşı, peşəkar həkim kimi formalaşmaq üçün mütəmadi olaraq savadlı həkimlərlə görüş, tibbi konfranslar və ustad dərsləri keçilir. Həmçinin tələbələr Naxçıvan Mərkəzi Xəstəxanasında da təcrübələr keçirlər.

Söhbətimizi bu ixtisasda təhsil alan digər bir gənclə davam etdirdik. Hərbi tibb ixtisasının tələbəsi İlkin Məmmədov dedi: – Müasir dövrümüzdə baş verən prosesləri, dünyanın sürətli inkişafını, yenilənməsini nəzərə alaraq, ən əsası isə mənfur düşmənlə üz-üzə olan torpağın övladı kimi düşünüb qərar verdim ki, hərbi həkim olum. Təhsil aldığım Naxçıvan Dövlət Universitetində bizim savadlı kadr kimi yetişməyimiz üçün hər bir şərait yaradılıb. Müasir şərait, aparılan maraqlı təcrübələr, keçirilən konfranslar imkan verir ki, biz bu sahəni dərinliyi ilə mənimsəyək, öyrənək. İnanıram ki, təhsil aldığım bu müddət ərzində lazımi biliklərə yiyələnəcək, gələcəyin savadlı hərbi həkimlərindən olacağam.

Böyük alim, həkim Aleksandr Bilibin deyirdi ki, həkimliyi öyrənmək, əslində, insanlığı öyrənməkdir. Əsl həkim üçün təbabət yalnız sənət deyil, bütünlüklə onun həyatıdır. Bu hikmətli deyimin dərinliyini gənc həkimlərimizlə həmsöhbət olarkən bir daha dərk etdik. Ömrün gənclik çağında öz peşələri ilə Vətən müdafiəçilərinin sağlamlıqları keşiyində dayanmaq, həyatlarını qorumaq kimi müqəddəs bir məramı gerçəkləşdirməyi özlərinə yol seçən, bunu əməldə yox, real həyatda da tətbiq etməyin arzusu ilə yaşayan gələcəyin ağxalatlı qəhrəmanlarına bu yolda uğurlar arzu edirik.

**Bülbül QULİYEVA**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

# ŞİŞQAYADAN ÇIXARKƏN...

Onunla hər zaman olduğu kimi "Xəbərlər"ə baxırdıq. Azad olunmuş kənd və şəhərlərimizin bərpasından, inşasından və əhalinin öz ata-baba yurduna qayıtmasından danışırdılar. Nənəm kövrək bir səslə, "Kaş bizi də ata-baba yurdumuza qaytaraydılar"-deyib köks ötürdü.

-Hara, nənə? Niyə kövrəldin?

Həmin an kövrək xatirələrini çətinliklə olsa da, canlandırmağa və ürəyinin dərinliyində neçə ildir ona əzab verənləri mənə danışmağa başladı.

-Qızım, biz indiki Ermənistan ərazisindən ulu babalarımızın torpağı olan Göyçə mahalından zorla çıxarılmışıq. Sənin anan, atan da orada anadan olub. Ulu babalarımızın torpaqlarına mənfur düşmənlərimizi cəmi bir gecədə gətirib yığdılar. Sonra isə bizi öz elimizdən, evimizdən çıxmağa məcbur etdilər.

Nənəmdən bu söhbəti bir qədər ətraflı danışmağı xahiş etdim. O da sanki elə ürəyini boşaltmağa bənd imiş kimi sözə başladı.

-Qızım, biz o zaman Sovet hökumətinin tərkibində Göyçədə ermənilərlə birgə yaşayırdıq. Göyçə həm böyük, həm də olduqca səfalı yerdir. Amma Sovet hökumətinin zamanında onu Ermənistana verdilər. Bizdən əvvəl babalarımızın vaxtında burda təkcə Azərbaycan türkləri və bizimlə dost olan başqa millətlər yaşayıb. Göyçənin Vedi, Şişqaya, Basarkeçər, Bala Məzrə, Böyük Məzrə kimi çox gözəl təbiəti, havası və suyu olan guşələri var. Göyçə gölünün gözəlliyinə doyum olmazdı. İnək dağı, Gəlin qayası kimi gözəl mənzərəli təbiəti, gözəllikləri indi də xatirimdədir. Buranın əhalisi daha çox heyvandarlıq və tütünçülüklə məşğul olardı. Kolxozun heyvanına kişilər baxır, tütünü isə qadınlar becərirdi. Biz gözəl, səfalı Şişqayada yaşayırdıq.

Bala, o dövrdə məktəblərdə öz tariximizi bir kənara qoyub rusun tarixini öyrədirdilər. Ruslar öz tarixlərini bizə öyrədə-öyrədə ən gözəl yerlərimizdə ermənilləri yerləşdirirdi. Süfrəmizi bölüşdüyümüz ermənilərsə elə bizimlə "dost" ola-ola başladılar ki, bura bizimdir, çıxmalısınız. Yaxşı deyib atalarımız - "yersiz gəldi, yerli qaç". Azərbaycanlılar çox narazılıq etdilər, hətta Sovet hökumətinə, Moskvaya şikayət etdilər ki, bura bizim dədə-baba vətənimizdir. Amma heç kim bizə qulaq asmadı, heç deyilənlərə məhəl qoyan tapılmadı. Özümüz deyib, özümüz eşitdik. O zaman kolxozda çoban olan baban ermənilərə hər zaman əl tutardı, ət, süd, yun verərdi. Yazığı gələrdi o lənətə gəlmişlərə. Hər gün olduğu kimi bir səhər də baban hazırlaşıb evdən çıxdı üzü kolxoza tərəf. Baxdım ki, titrək səslə məni çağırır.

-Nə oldu, niyə qayıtdın? - deyə soruşdum. Baban dedi ki, əl tutduğum ermənilərdən biri gəlmişdi gizlicə yanıma. Dedi ki, sən mənə o qədər hörmət etmisən ki, heç ermənilər mənə bu qədər kömək eləməyib. Ona görə də sənə deyirəm ki, bu gecə ermənilər kəndə silahlı basqın edəcəklər. Çalışın tez bir zamanda kənddən çıxın. Ancaq mənim dediyimi heç kəs bilməsin, yoxsa məni burda yaşamağa qoymazlar. Biz babanla hər şeyi tez hazırlamağa başladıq, ancaq babanın çoban növbəsi olduğuna görə dağa getməliydi. Yoxsa cərimə yazacaqdılar, ya da ki getməmək səbəbini öyrənəcəkdilər. Mən evdə əşyalarımızı hazırlamağa başladım, baban isə dağa gedib qayıdacaqdı. Mənə demişdi ki, qohumların hamısına xəbər edim ki, hər kəs çıxsın. Mən hər şeyi hazır edib babanın gəlməyini gözləyirdim. Artıq axşamçağı idi, gün batırdı. Həyətə çıxdım ki, hər kəs kamazların üstünə əşyalarını yığıb mərkəzi yola doğru gedir. Mən tez babanın arxasınca dağa getdim. Dağın ətəyində dayanıb onu səslədim. "Gəlirəm, get evə, uşaqları niyə tək qoymusan", deyərək mənə qışqırdı. Tez kəndə gəldim. Çox həyətlərdə maşınlar dolu qayıtmışdı. Qonşudan səbəbini soruşanda dedilər ki, əvvəldən gedənlər yolu keçiblər, biz keçə bilmədik, ermənilər yolu tutublar. Artıq maşınla gedə bilməyəcəyimizi bilirdim. Ancaq bəzi şeylər götürdüm. Uşaqlar da balacadır deyə onları qucaqda aparacaqdıq. Baban gəldi və biz evdən çıxdıq. Sonuncu dəfə dönüb evimizə baxdım. Doğma yurdumuzu öz əllərimizlə bizə dost görünən düşmənlərimizə təslim etdik. Bütün kənd əhalisi piyada kəndi tərk etməyə çalışırdı. Kiminin qucağında, kiminin küræyində körpəsi vardı. Evdən heç nə götürə bilməmişdik. Biz İnək dağından keçməli, sonra isə Gədəbəyə gəlməli idik. Dağın başı qarlı olduğundan tez-tez uçqun olurdu. Yaşlı insanlar yeriyə bilmirdilər. Qar dizdən yuxarı çıxmışdı. Dəhşətli soyuq insanın qanını damarında dondururdu. Havanın kəskin soyuq olması və tez -tez baş verən uçqunlara görə körpələr, qocalar, zəif insanlar həlak olurdular. Babanın 20 yaşlı əmisinəvəsi də qarın altında qaldı, sonra nə qədər gəzdilər tapa bilmədilər, sadəcə saatını tapdılar. Neçə yaşlı insan da yolda aclıqdan, soyuqdan donaraq öldü. Biz nə qədər tez-tez getməyə çalışsaq da, hava şəraiti buna imkan vermirdi. İnək dağını keçdik və Gədəbəyə çatmağa az qalmışdı ki, arxamızdan erməni dığalarının silahla gəldiyini gördük. Qabaqdakı kəndə çatan adamlar Gədəbəy əhalisini səsləyir, köməyə çağırırdılar. Hər kəs uşaqları qorumaq üçün kənddəki evlərə tərəf qaçırdı. Elə onda kənd camaatının əllərində bel, yaba ilə bizi qorumaq üçün köməyə gəldiyini gördük. Evlərə girirdik, kənd camaatı isə ermənilərlə vuruşurdular, bəzi kəndçilərdə silah, tüfəng var idi.

Bizi gözəl qarşıladılar. Uşaqlara, qocalara, hər kəsə yemək paltar verdilər, evlərində yerləşdirdilər. Bir gecəni orada qaldıq. Ertəsi günü Bakıdan teleqramla bizə xəbər verdilər ki, Şəmkirə getməlisiniz, çünki Şəmkirdə olan ermənilərin çoxu buranı tərk edib Şişqaya kəndinə gediblər. Sanki evlərimizi dəyişirdik düşmənlə. Şəmkirin bir neçə kəndi və mərkəzdə olan evlər boşalmışdı. Bizə bir neçə kənddə yerləşməyimizi söylədilər. Onların dedikləri yerə gəldik, evlərin bəziləri tutulub, bəziləri isə boşaldılmamışdı. Bir evə girdik, yaşlı erməni qadını var idi. Ona burdan çıxmağını söylədik. Qayıtdı ki, oğlum, gəlinim gedib, məni isə burda qoyublar, özləri ilə aparmadılar. Öz valideynini burada qoyub tək qaçmaq murdar erməninin iç üzü idi.

Yeni sığınacaq tapdığımız evə heç cür uyğunlaşa bilmirdik. Əminlə Göyçəyə əşyalarımızı və heyvanlarımızı gətirməyə gedən baban deyirdi ki, biz maşınla yolu keçməyə çalışsaq da, onlar icazə vermirdilər. Qayıdıb dağ yolu ilə evimizə getməyə tələsdik. Evimizdə erməni ailəsini gördükdə sanki içimdə fırtına qopdu. Bizə aid olan əşyaları götürmək istəsəm də, onlar icazə vermədilər. Tək götürəcəyim şey isə ailə şəkilləri oldu. Mənə kömək edən erməni dostumu axtardım. Ancaq eşitdim ki, onu bizə qaçmaq xəbərini verdiyi üçün işgəncə ilə öldürüblər. Biz gəldiyimiz yolla da geri qayıtdıq. Hava sakit olsa da, qəlbimiz, ruhumuz narahatlıqla dolu idi.

Nənəm bunları danışdıqca yaylığının ucuyla göz yaşlarını silirdi. Sanki dünən baş veribmiş kimi bütün bunlar gözünün önündən acı xatirə kimi keçirdi.

Ancaq nənəmin yeganə təsəllisi torpaqlarımızın işğaldan azad olunması idi. O, əlavə etdi ki, qızım, indi şükülər olsun Allaha ki, xarıbülbülün ətrinə, gözəl Qarabağımıza, əzəmətli Şuşa dağlarına qovuşmuşuq. Qarabağımızın səmasında zəfərdən qürurlanan bayrağımız dalğalanır.

Nənəm yenə də əllərini göyə açıb dualarını əsirgəmir. Şükür olsun, ay bala, artıq yurd-yuvasından didərgin düşənlər yavaş-yavaş geri qaytarılır. Evlərin neçə illərdir yanmayan ocaqları yanır, gözlərdəki həsrət sona yetir. Nənəm hələ də ümidlidir... hər qarışı bizə candan əziz olan, doğulub boya-başa çatdığı torpağının qayıdacağı günü səbirsizliklə gözləyir.

Mən də nənəmin arzularının tezliklə gerçəkləşəcəyinə sonsuz ümid hissilə o torpaqlara qayıdacağımıza inanıram...

**Şəfa Yazar (Səfərova)**
***Jurnalistika ixtisası üzrə***
***III kurs tələbəsi***

# MİLLİ RUHUN DÜŞMƏN CANINA QORXU SALDIĞI GÜN

İl 2020, təqvim 8 Noyabrı göstərir. Bu tarix bütün gəlib keçmiş zamanların ən gözəli, ən füsünkarıdır…








Birliyin, birgəliyin, qürurun, mərdliyin, mübarizliyin, azadlığın və 30 illik həsrətin sonunda vüsala qovuşmağın günüdür, bu tarix. Fəsillərdən payız olsa da nə ağacların, nə otların, nə də ki çiçəklərin rəngi solmayıbdır. Çünki ümidin, arzuların baharı başlayıb Azərbaycanda, mövsüm aydınlığın mövsümüdür. İllərdir qəlbimizdə daşıdığımız bütün ağrıları və dərdləri ümidsizliyin sonsuz qışına dəfn etdik bu tarixdə. Artıq hər saniyə ciyərlərimizə dolu-dolu aldığımız havadan azadlığın əvəzsiz qoxusu duyulur.

İl 2020, təqvim 8 Noyabrı göstərir. Bu tarixdə xalqımın qəhrəmanlığının, şücaətinin, fədakarlığının milli və mənəvi dəyərləri ilə bütünləşdiyi bir dastan yazıldı adı "Zəfər dastanı" olan. Bu dastan millətimin şəxsiyyət və iradəsinin dərin izlərini sonsuzluğa daşıyan qəhrəmanlıqlarla doludur. Gələcək nəsillərə millət olmaq və öz müqəddəratına sahib çıxmaq şüurunu qazandıran "Zəfər dastanı"mız qürurlu bir xalqın kimliyini, qüdrətini və yenilməzliyini də dünyaya göstərdi. Bu dastanın əsas qəhrəmanları bütün arzularını, duyğularını və həyatlarını Vətən-Millət-Bayraq kimi uca qayələr ətrafında heç bir qarşılıq gözləmədən qurban verən igidlərdir. Onların cənnət qoxan qanlarıyla yazıldı "Zəfər dastanı"mız.

İl 2020, təqvim 8 Noyabrı göstərir. Bu tarix haqqın batilə, birliyin ayrılığa, mərdin namərdə, xeyirin şərə qalib gəldiyi gündür. Bu tarixdə Şuşamızın azadlığı ilə zəfərimiz taclandı, xalqımız yeni bir diriliş ruhuyla dimdik ayağa qalxdı. Dövlət-Ordu-Xalq birliyinin yaratdığı dəmir yumruğun gücündən doğan qələbənin sevinciylə qanadlandı.

İl 2020, təqvim 8 Noyabrı göstərir. Üç minə yaxın vətən sevdalısının cənnət qoxan ruhuyla Kabəyə salam verdiyi gündür bu gün. Övladını itirən anaların, ataların alınan qisasın təsəllisiylə rahatlıq tapdığı gündür. Qanıyla torpağa can qatan, ölümü belə öldürərək ölümsüzlük qazanan igidlərin tarixə yazdığı azadlıq nəğməsinin bəstələndiyi gündür. Bu nəğmə bəstələnərkən şəhadətə qucaq açan minlərlə oğullarımız bizlərə tarixi torpaqlarımızın azadlığını miras qoydular. Bu tarix əzmimizin düşmən canına qorxu saldığı gündür. Elə bir gündür ki, yenilməzliyimizin qarşısında bütün dunya heyran qaldı.

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

# ŞƏRƏFLİ DÖYÜŞ YOLU HƏR BİR GƏNCƏ ÖRNƏKDİR

Xalqı ucaldan, onu bir dövlət kimi var edən, hürriyyətini qoruyub saxlayan onun tarixi şəxsiyyətləri, qəhrəmanlarıdır. Azərbaycan tarix səhnəsində yer alandan bəri bərəkətli torpaqları, təbii sərvətləri ilə başqa dövlətlərin marağında olub. Bəzən açıq şəkildə, bəzən də başqa azsaylı millətin vasitəsilə Vətənimizə əl uzadıb, onu hissə-hissə parçalamağa çalışıblar. Şübhəsiz ki, xalqımızın igid oğulları, mərd qızları uzanan bu murdar əlləri kəsib atmağa müvəffəq olublar. Lakin ötən əsrin 90-cı illərində torpaqlarımızda ikinci bir Ermənistan qurmağa çalışan düşmən Qarabağı işğal etdi. Ötən 30 illik işğal müddətinə nəzər saldıqda görürük ki, Qarabağdan ayrı keçirdiyimiz hər gün, hər saat bizi gələcəkdə Böyük Zəfərə aparırmış. Bu illər ərzində dövlətimiz siyasi-iqtisadi cəhətdən daha da möhkəmləndi, Qarabağı görmədən Qarabağ həsrətilə minlərlə uşaq böyüdü, əsl döyüşçü kimi səbirsizliklə torpaqlarımızı azad edəcəkləri günü gözlədilər.

Bu gün hər birimiz qürurla ***"Qarabağ Azərbaycandır!"*** deyə bilirik. 30 illik intizardan, işğaldan, yağmalamadan sonra Qarabağ torpağından düşmənin ayaq izləri silinib, qoxusu kəsilib. İndi bu əzəli və əbədi Azərbaycan yurdunda üçrəngli müqəddəs bayrağımız dalğalanır. Hansı ki, həmin bayrağı canından üstün tutanlar bizə bu qüruru yaşadanlardır. Bu yolda sağlamlığını qurban verənlər də az deyil.Onlardan biri də qazi Həsən Xəlilovdur. Həsən və qardaşı Rövşən Xəlilov bir ailənin iki döyüşçüsüdür. Həsən Xəlilov 12 il Azərbaycan Silahlı Qüvvələrində xidmət edib.O, 1990-cı ildə Naxçıvan şəhərində anadan olub. 1997-ci ildə C.Naxçıvanski adına 11 saylı orta məktəbi bitirərək, hərbi xidmətə yollanıb. 2011-ci ildən 2021-ci ilədək ordu sıralarında xidmət edib. Bu illərdə hər bir vətənpərvər igidimiz kimi onun da bir məqsədi olub. Torpaqlarımızı yağlı düşməndən azad etmək.

44 günlük Vətən müharibəsində Həsən Xəlilovun döyüş yolu Murovdağ, Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan və Kəlbəcərdən keçib.Özünün də dediyi kimi, I postu azad etdikdən sonra II postu azad edərkən pusquya düşür. Yaralı yoldaşını döyüş bölgəsindən çıxararkən yaralanır. Lakin döyüşə davam edir. İkinci dəfə baş və diz nahiyəsindən yaralandıqda xəstəxanaya yerləşdirilir. Sol qulağında eşitməsini itir. Ancaq o hər zaman yenə də vətənin müdafiəsinə hazır olduğunu bildirir. Çünki analar yenidən oğullar dünyaya gətirə bilər, amma Vətən təkdir, bölünməzdir, o bizim ən böyük mənəvi sərvətimizdir. Vətənin bütövlüyü naminə canından belə keçmək Azərbaycan oğullarının həyat fəlsəfəsidir, onlar üçün yazılmamış qanundur. Yetər ki, bir qarış torpaq belə yağının əlində qalmasın.

Dövlətimiz də bu yurdu yaşadan, var edən qəhrəmanlarını unutmur, onların ailəsinə, əziz xatirəsinə hər zaman ehtiramla yanaşır. Həsən Xəlilov Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsində xüsusi xidmətlərinə görə Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə ", Qüsursuz xidmətə görə " və "Şücaətə görə" medalları ilə təltif edilib.

**Sacidə Hüseynova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# BİR BAŞQADIR MƏNİM MƏMLƏKƏTİM

*Beş min illik əzəmətli tarix, müharibələr, mübarizələr meydanı, igidlər, ərlər-ərənlər oylağı. Qədimliyini Nuh Peyğəmbərdən, onun dünya tufanı əfsanəsindən, Gəmiqayadan, Haçadağdan, dağ vüqarlı Əlincədən alan ulu yurdum, Naxçıvan! Səni necə tərif etsəm, şəninə hansı nəğmələri, şərqiləri söyləsəm azdır. Qədim tarixini, zəngin mədəniyyətini, dünya boyda mənəviyyatını, mübarizliyi, qəhrəmanlığı ilə adını tarixə yazdıran insanlarını, arandan dağa, dağdan arana sığınan qonaqpərvər el-obanı, ən nəhayət, blokadalı, inkişaflı günlərini sözlərə, kəlimələrə, kitablara, qəzet səhifələrinə sığdırmaq olmaz, mənim doğma məmləkətim!*





Beş min illik qoca tarixin sinəsinə nələri həkk etməmisən ki, Nuhçıxanım! İlk insan yaşayış məskənlərinin izi yaşayır sənin müqəddəs torpağında, əlverişli təbii-coğrafi şəraitinlə, sərvətlərinlə, geo-siyasi mövqeyinlə zaman-zaman tamahkar qüvvələrin, yadellilərin maraq dairəsində olmusan. Dünya binə olandan bəri başı göylərə dəyən dağların hansı hadisələrə, döyüşlərə, yürüşlərə şahidlik etməyib ki... Bəzən talan olunmusan, işğala məruz qalmısan, amma heç vaxt mübarizlik əzmini yerə qoymamısan. Küllərindən odalov doğub, yenidən ayaq üstə durmusan. Sən Atabəylər dövlətinin paytaxt şəhəri olmusan, Əlincəqalanın dünya fatehi Əmir Teymurla inadkar mübarizəsinə, Səfəvilərin bütöv Azərbaycan dövlətini yaratmaq eşqinə şahidlik etmisən.

XVIII yüzillikdə Heydərqulu xanın başçılığı altında yeni bir quruluşun – Naxçıvan xanlığının əsası qoyuldu, I Kalbalı xanın dövründə qonşu xanlıqlarla və dövlətlərlə əlaqələri gücləndi bu dövlət qurumunun, sənətkarlığın, ticarətin, elm və mədəniyyətin inkişaf etdiyi bir məmləkətə çevrildi Naxçıvan. Anamız Azərbaycanı iki hissəyə ayıran Gülüstan, Türkmənçay müqavilələrini görübdür bu diyar.

Tanrı bu müqəddəs torpağa bütün nemətləri, sərvətləri bəxş edib. Ən mühüm geosiyasi mövqedə yerləşmək yazılıb Naxçıvanın bəxtinə. Tale həm də nadan, çörəyi dizinin üstündə olan xalqla – ermənilərlə qonşu olmağı da nəsib edib. Hələ XX əsrin əvvəllərindən başlayaraq qaniçən ermənilər Naxçıvana qarşı ərazi, əsası olmayan torpaq iddiaları ilə çıxış etdilər, işğalçılıq, talançılıq, özgənin torpağına yiyəlik etmək uğrunda minlərlə günahsız insanı – qocanı, qadını, uşağı qətlə yetirdilər, soyqırımı törətməkdən çəkinmədilər. Belə hesab etdilər ki, işğalçılıq, özgənin torpağına göz dikmək uğrunda hər cür cinayət aktı törədilə bilər. Həmin vaxt qaniçən Andranikə Nehrəmdə ən tutarlı cavabı verdi bu diyarın mərd, igid, Vətən qeyrətli oğul və qızları.

Xarici müdaxilələrə mətanətlə sinə gərib Şərqin qapısı, bu məqsədlə 1918-ci ildə yaradılmış ArazTürk Respublikasının paytaxtı funksiyasını yerinə yetirib tarixlər şahidi Naxçıvan şəhəri. 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, ardınca Naxçıvan Diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb bu qədim məmləkət.

Tarixin ən ağır, çətin dövrünü – ötən əsrin 90-cı illərini xalqımızın Böyük Oğlu Heydər Əliyevlə birgə yaşadı bu diyar. Ermənilər tərəfindən blokadaya salınanda, anamız Azərbaycandan ayrı düşəndə məhz Onun çıraq işığında işləyib hazırladığı müdrik qərarları ilə zülmətdən, qaranlıqdan işığa, nura çıxdı Naxçıvan. Vaxt oldu ki, bir tikə çörəyi əldə etmək üçün uzun növbələrə dayandılar, qış aylarında sobada yandırmağa heç nə tapmadılar, amma əcdadlarımızdan bizə miras qalan qətiyyəti, iradəni, mübarizliyi nümayiş etdirdi igid naxçıvanlılar. Ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşdilər, qorudular bu yurdu erməni işğalından, dahi lider Naxçıvanın muxtariyyət statusunu hər zaman önəmsədi, onu gündəmdən düşməyə qoymadı. Yazıldı Naxçıvanda böyük bir tarix, elə bir tarix ki, dövlətçiliyimizə əbədi həkk olunub. Dahi lider 70 il xalqımızdan gizli tutulan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını əbədi zirvələrə qaldırdı, Naxçıvanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Özü də bu addım elə bir vaxt atılmışdı ki, hələ sovet hökuməti öz varlığını qoruyub saxlayırdı. Milli şüuru, təfəkkürü oyandırdı Müdrik Lider, insanların qəlbindəki, əqlindəki azadlıq, müstəqillik ideyalarına yeni bir həyat bəxş etdi tarixi şəxsiyyətin tarixi addımları. "Taleyin ümidinə buraxılmış tənha ada"da qüdrətli Azərbaycanın təməl konturları işlənib hazırlandı.

1995-ci ildən başlayaraq yeni bir era başladı Nuh diyarının həyatında. Yol uzun, görüləsi işlər çox idi. Ağır blokada həyatın bütün sahələrinə nüfuz etmişdi bu diyarda. İnqilabi dəyişikliklər zəruri idi. Bu dəyişikliyin təməlində Vətən, yurd, torpaq təəssübkeşliyi, xalq xidmət amalı, dünya boyda Naxçıvan sevgisi dayanırdı.Yeni bir Naxçıvan qurulub yaradılmalı idi. Təbii ki, tarix, milli ənənələr və dəyərlər əsasında. Tarix demişkən, yaradılışı, təməli böyük bir tarixə dayanan Naxçıvanda məhz elə tarixin özünə həssas yanaşma ortaya qoyuldu. Yerli və xarici arxeoloji ekspedisiyalar Naxçıvanın dörd bir yanında ilk insan və tarixin müxtəlif dönəmlərini əhatə edən yaşayış məskənlərinin sorağına çıxdı. Bu məmləkətin zəngin keçmişi ilə bağlı fundamental elmi nəşrlər, ensiklopediyalar, tədqiqat materialları, elmi məqalələr işıq üzü gördü, beynəlxalq konfranslar təşkil olundu. Tarixə yiyəlik, onu qoruyub saxlamaq, gələcək nəsillərə ötürmək ənənəsi formalaşdı Naxçıvanda. Xan sarayı, Əlincəqala, Möminə Xatun, imamzadələr, Qarabağlar türbəsi, qədim körpülər, muzeylər, hamamlar Qurucu Rəhbərin tarixə verdiyi qiymət sayəsində indi ikinci həyatını yaşayır.

Könlü Naxçıvandan, onun tarixi abidələrindən, pulsuz ziyarət edə biləcəyiniz muzeylərindən keçənlər: gəlin, bu ulu yurdun qonağı olun, pıçıldasın sizə beş min illik tarixindən, yadelliyə qarşı mübarizə əzmindən, görkəmli şəxsiyyətlərinin yaradıcılıq yolundan, kərpic-kərpic qurulub yaradılanlardan, keçmişinə qiymət verənlərin nəvazişindən danışsın sizə ulu yurdum.

Möcüzəli Duzdağı, əfsanələr diyarı, mənəviyyat ocağı "Əshabi-Kəhf"i, başdan-başa yenidən qurulan şəhər, qəsəbə, kəndləri, tikilən körpüləri, salınan yolları ilə bənzərsizdir, təkrarsızdır Naxçıvan. Təsərrüfatların genişləndiyi, dövlət qayğısı ilə hər il on minlərlə hektar sahədə əkin aparılan, bol məhsul istehsal edilən, təhsilin, səhiyyənin, mədəniyyətin, sənayenin, sahibkarlığın inkişaf etdiyi məmləkətdir Naxçıvan. Kənd və şəhər arasındakı fərq götürülübdür bu torpaqda. İndi paytaxt şəhərimizdə yaradılan infrastrukturun eynisi düşmənlə üz-üzə dayanan kəndlərimizdə də mövcuddur. Sürətli internet, müasir məktəb, eləcə də digər xidmət sahələri hər kəs üçün əlçatandır bu diyarda. Daha əvvəlki kimi insanlar sərhəd kəndindən qaçıb getmək, köç etmək xəyalı ilə yaşamırlar. Arzularındakı, istəklərindəki kənd modelini məhz dövlət yaradıb.

Həyət-bacasındakı,təsərrüfatındakı məhsulu festivala, yarmarkaya, bazar-dükana çıxarır ulu yurdun zəhmətsevər insanları. Yaz aylarında məşhur dağ pencərləri – cacığı, kirişi, qazayağısı, salmancası, şomusu ilə əl-əl axtarılan diyardır Naxçıvan. Əriyi, göycəsi, üzümü, şaftalısı, alması ilə şöhrət tapıbdır qədim torpaq. Kətəsi, qovurması, Ordubad qayğanağı, "Sirab"ı, "Badamlı"sı, "Çınqıllı"sı, "Darıdağ"ı ilə ağız dadıdır bərəkətli məmləkət.

Qonaqpərvər insanları, sözü qılıncdan ötkün, keçərli olan ağsaqqal, ağbirçəyi, böyük-kiçik yeri bilən igid oğlu, ismətli qızı ilə öyünür bu torpaq. Kənardan gələn heç kəs özünü yad, özgə hiss etməz bu müqəddəs torpaqda. Xoş üz göstərər, süfrəsini açar, bir tikə çörəyini bölər və bunun müqabilində qonağından heç nə umub istəməz naxçıvanlılar.

Təhlükəsizdir, sabitdir bu diyar. Evinizi, avtomobilinizi, mülkünüzü açarsız, kilidsiz saxlaya, insanların tək-tənha bayıra çıxmağa cürət etmədiyi bu dövrdə ailə-uşaqla şənşaqraq, xoşbəxt, qorxusuz, ürəklə yaşaya biləcəyiniz məmləkətdir, Naxçıvan. Safdırlar, sədaqətlidirlər, milli-mənəvi dəyərləri hər şeydən üstün tutarlar, torpağı əkib-biçməyi, onu qorumağı, yeri gələndə bu torpaq uğrunda canından keçməyi bacarar, ulu yurdun insanları. Döyüş meydanında düşmənin qorxulu röyasına çevrilər, 30 illik arzunu gerçək edər, Şuşaya qədər döyüş yolu keçər, bağrında üçrəngli bayraqla Qalib Komandana, Qalib xalqa Zəfər, Qələbə müjdəsi verər, Qarabağın xilaskarı olar naxçıvanlılar.

Necə deyərlər, mənim könlüm deyir ki, hələ bunlar nədir ki... Səni qarşıda bundan da parlaq günlər gözləyir, Naxçıvan. Sənin ismin hər zaman tarixlə yanaşı çəkilib. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Zəngəzur dəhlizi ilə bölgəmizə ayaq basanda sədaqətli, əzmkar naxçıvanlılar daha bir tarix yazacaq, Qələbəmizin üstünə daha bir Qələbə gətirəcəklər. O gün yaxındır, çox yaxındır...

**Muxtar RZAZADƏ**
***"Mətbuat tarixi" ixtisası üzrə I kurs magistrant***

# Könlüm Naxçıvan!

Mənim könlüm bir ümmandır ki, ora Vətənimi, ailəmi, dünyamı sığdırmışam. Min illərin tarixini, dünənimi, bu günümü sığdırmışam. Mənim könlüm böyük bir eşqlə, sevgiylə, səadətlə döyünür, elə döyünür ki, bu döyüntüdə hər zaman Vətənimə bağlılığım, xalqıma olan sədaqətim yadıma düşür. Azərbaycan, könlüm mənim, varlığımın təcəssümü, qürurum, Vətənim, şəxsiyyətim, milliyyətim, neçə-neçə hücumlara, neçə-neçə soyğunluğa məruz qalan uca və əyilməz torpaq! Bu torpağın oğulları da, qızları da əyilməzdir. Bu torpaq, bu yurdun oğulları dünyada tanınır, hər bölgəsi, hər tərəfi cənnətməkandır bu diyarın. Əhalisi qonaqpərvər, vətənpərvər, yurd yolunda canını verməyə, qanını axıtmağa hazır olandır. Hər qonşusu ilə mehriban, dürüst və səmimi, sədaqətli olan bu diyar, mənfur bir qonşu ilə, Ermənistan ilə qarşı-qarşıyadır. Bu torpağın hər qarışına göz dikdi daşnak ermənilər. Təkcə torpağımızı yox, musiqimizi, milli yeməklərimizi də oğurlamağa, dünyaya özününkü kimi təqdim etməyə başladı, ancaq alınmadı.

Bu torpağın bir oğlu var – Nuh diyarı, qəhrəmanlar yurdu, Əlincə vüqarlı, Haçadağ əzəmətli bir diyar. Bu diyar Nuh babamızın məskən saldığı diyardır, bu diyar qəlbimin hakimi, Azərbaycanın canı, ayrılmaz parçasıdır. Azərbaycanın tarixi torpağı, müqəddəs ocağı, cənnətməkandır. Bu diyar anası Azərbaycanın, qardaşı Qarabağın daim yanında olmuşdur. Uzun illər düşmən tapdağı altında olan yurdumuzun, Qarabağımızın xilası yolunda çalışdı, mübarizə apardı bu diyar. 5-7 min il bundan qabaq əsası qoyulan bu ulu şəhərin əvvəllər adı "Apobaterion", "Naksuana", "Akçiban" olub. Bu şəhər ulularından öz doğma anası Azərbaycana miras qalıb, bu mirası isə can Azərbaycan layiqincə qoruyub saxlayıb. Mənim könlüm, təkcə mənim yox, bütün Azərbaycanın könlü olan bu doğma diyar özündə möhtəşəm bir tarix daşıyır. Onun qanadları sanki Möminə xatun türbəsi, nəfəsi Batabat, danışan dili Hüseyn Caviddir. Xan sarayı bu torpağın necə tarixi köklərə malik olduğunu göstərir. Öz anasından ayrı düşən bu doğma yurd qonşusu mənfur ermənilər tərəfindən qəlbinə vurulan hər bir yaraya dözdü, anasından ayrı düşsə də, özünü əzəmətlə göylərə yüksəltdi. Bu torpaqda Mirzə Cəlil, Qətran Təbrizi yaşadı, yaratdı. Hər birinin könlündə qaldı bu diyar, gələcək nəsillərə miras qoyduqları yazılarla da insanlara Naxçıvanın necə əziz, ziyalı yurdu olduğunu göstərdi.

Mənim könlüm ayrılmaz bu diyardan, bu doğma diyar bütün dünyada tanınan tarixi abidələri, əzəmətli dağları, sərin meşələri, müalicəvi qaynaqları ilə məşhurdur.

Öz doğma diyarını sevməyi ancaq qəlbində Vətən sevgisi olan, daim ürəyi Vətən eşqi ilə döyünənlər bilər. Bu uca torpağı insan ən saf yeri olan qəlbində saxlaya bilər, könlündə yaşada bilər.

Əzəmətli, vüqarlı torpağım Naxçıvan mənim könlümün lap dərinliklərindədir, onu orada saxlayıram mən. Günü-gündən gözəlləşir, rənginə rəng, təbiətinə yaşıllıq qatır. Sıra-sıra düzləri, gen dərələri, yaylaqları, sərin bulaqları ilə könülləri fəth edən bu doğma diyarım günü-gündən inkişaf edərək öz yaşam imkanlarını daha da genişləndirir. Muxtar respublika statusu isə bura ayrı gözəllik verir, onu qonşu dövlətlərlə də sıx əlaqələrə sövq edir. Bu doğma diyarın hər qarışı möcüzədir, hər qarışı dərdə dərman, cana məlhəmdir. Məsələn, öz müalicəvi gücü ilə Naxçıvanı bütün dünyada məşhur edən "Duzdağ" Fizioterapiya Mərkəzinə dünyanın bir çox ölkələrindən şəfa tapmaq diləyi ilə gəlir və arzularına çatırlar. Naxçıvan şəhərindən 10-12 kilometr məsafədə olan bu mərkəzin yarımsəhra landşaftı vardır. Bu dağın cənub tərəfində duz yatağı yerləşir ki, bu da müalicəvi əsaslara malik duzlardır. Həmin dağda 1967-ci ildə baş vermiş uçqun nəticəsində isə qədim daşduz mədəni aşkar olunmuşdur.

Naxçıvanın qəlbi, onun lap qədim bir yurd olduğunu aşkar edən, ərazisində tikilən daha bir abidə isə varlığı ilə dillərdə gəzən, tikintisi və cazibəsi ilə nəinki yerli əhalini, bütün dünyanı heyrətə gətirən, XII əsrdə Məhəmməd Cahan Pəhləvan tərəfindən sifariş verilərək Əcəmi Naxçıvani tərəfindən Naxçıvan-Marağa memarlıq məktəbi üslubunda tikilən Möminə Xatun türbəsidir. 25 metr hündürlüyündə olan bu abidə gözqamaşdıran rəngləri və dizaynı ilə dünya memarlarını heyrətə gətirir. Naxçıvanda arxeoloji qazıntılar zamanı da buranın nə qədər qədim bir diyar olduğu üzə çıxmışdır. Bir çox yazıçı və qələm ustalarının da bu torpaqda doğulub, boya-başa çatması onu göstərir ki, bu yurd yeri öz torpağında necə oğullar yetişdirib:

*Canım, gözüm, torpağım,*
*laylam, nəğməm, beşiyim.*
*Yurdum, yuvam, ocağım,*
*salam, evim-eşiyim.*
*Haçadağ kürsüm olsun,*
*İlqarından söz deyim*
*Atam Naxçıvanımın,*
*Anam Naxçıvanımın.*

Qəlbi daim Vətən eşqi ilə döyünən Muxtar Qasımzadə bu misralarda öz ruhunun, mənəviyyatının sahibinin Naxçıvan olduğunu göstərir. Bu misralardakı dərin mənanı, ancaq qəlbi və ruhu Vətən eşqi ilə yoğrulan insanlar bilir. Bu sevginin nə qədər olduğunu, necə olduğunu isə demək mümkün deyil, çünki bu diyarın sənə verdiyi rahatlığı, səadəti heç bir yer vermir.

44 günlük Vətən müharibəsində Qarabağın çətin günündə, şərəfli yolunda ona dəstək olmaq üçün Naxçıvan öz igid oğullarını Qarabağa göndərdi və bu şanlı qələbə ilə Qarabağ anası Azərbaycana qayıtdı. Nuh yurdu oğulları da bu savaşda şəhidlik zirvəsinə yüksəldi. Azərbaycanın ən çox şəhid vermiş ərazilərindən biri də məhz Naxçıvan oldu.

**Əli YARIYEV**
*Jurnalistika ixtisası üzrə II kurs tələbəsi*

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ 140 İLLİK YUBİLEYİ QEYD EDİLİB

*Naxçıvan Dövlət Universitetində "İrəvan Müəllimlər Seminariyası- 140" mövzusunda respublika elmi konfransı keçirilib. Konfransdan əvvəl universitet Elmi Kitabxanasının "İrəvan Müəllimlər Seminariyası-140" adlı sərgisi nümayiş olunub. Sərgidə Azərbaycan pedaqoji fikir tarixində özünəməxsus yer tutan, pedaqogikaya dair yazılan elmi nəşrlər yer alıb.*

Ali təhsil ocağının Pedaqoji fakültəsində keçirilən tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli Sərəncamı milli yaddaşın bərpasına hədəflənib. Bildirilib ki, mühüm elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi əhəmiyyət kəsb edən Sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaratdığı tarixi irsə sahib çıxmaqla yaddaşımızı bərpa etməyə və strateji hədəflərə nail olmağa yönəlib. Rektor diqqətə çatdırıb ki, bu cür konfransların keçirilməsinin əsas məqsədi qədim tarixə, zəngin mədəniyyətə və ədəbi irsə malik olan İrəvan şəhərində fəaliyyət göstərmiş İrəvan Müəllimlər Seminariyasının yaranmasını, onun Azərbaycan şöbəsinin keçdiyi çətin tarixi və şərəfli yolu tədqiq etmək, həmin dövr ziyalıların fəaliyyətini araşdırmaq, seminariyanın keçdiyi təşəkkül və inkişaf yollarını, üzləşdiyi problemləri kompleks şəkildə tədqiq etməkdir.

Konfransa onlayn olaraq qatılan Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, pedaqogika elmləri doktoru Rüfət Hüseynzadə "İrəvan maarifçilik mühiti tarixinə bir nəzər" adlı çıxışında qeyd edib ki, tarixi, siyasi, pedaqoji əhəmiyyət kəsb edən İrəvan Müəllimlər Seminariyası 1881-ci ildə İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və 1884-cü ildə yaranmış İrəvan qız progimnaziyası adlı kadr hazırlayan üç böyük tədris müəssisəsi adı altında yaranıb fəaliyyət göstərib.

"Erməni dövlətinin yaradılmasının böyük güclərin geosiyasi planlarında yeri: tarix və reallıqlar" mövzusunda AMEA Naxçıvan Bölməsinin dosenti, tarix elmləri doktoru Emin Şıxəliyev qeyd edib ki, 1828-ci ildə I Nikolayın fərmanı ilə Azərbaycan İrəvan və Naxçıvan xanlıqları ləğv edilib və bu xanlıqların ərazisində qondarma "Erməni vilayəti" yaradılıb. Bununla da Cənubi Qafqazdakı Azərbaycan torpaqlarında, daha doğrusu İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq üçün ilk addım atılıb. Məruzəçi tarixi dövrə nəzər salıb, müasir dövrün reallıqlarına diqqəti çəkib.

Naxçıvan Dövlət Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Vahid Rzayev "İrəvan mühiti və Firudin bəy Köçərli" mövzusunda çıxışında qeyd edib ki, görkəmli Azərbaycan maarifçisi Firudin bəy Köçərlinin pedaqoji fəaliyyətinin mühüm bir hissəsi bu gimnaziya ilə bağlı olub. Vurğulanıb ki, 1881-ci ildə yaranan və 37 il davam edən İrəvan Müəllimlər Seminariyasının ilk müəllimlərindən olan Firudin Bəy Köçərli burada 10 il dərs deyib və geniş mədəni-maarif işləri aparıb.

``"İrəvanda Azərbaycan ədəbi mühiti" mövzusu ilə konfransa onlayn qoşulan Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Cəlal Allahverdiyev Azərbaycan ədəbi mühitində özünəməxsus xidmətlər göstərən İrəvan ədəbi məktəbi haqda məlumat verib. Vurğulanıb ki, İrəvanda Azərbaycan məktəbinin tarixi 1930-cu ildən başlanır.

Sonda rektor konfrans iştirakçılarına iştiraketmə vərəqəsi təqdim edib, tədbirə onlayn qatılanlara isə elektron vəsiqə göndərilib.

"Pedaqogika-psixologiya" kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Taleh Xəlilovun moderatorluq etdiyi konfransın bölmə iclaslarında onlayn olaraq Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Gəncə Dövlət Universiteti, ADPU-nun Şamaxı filialı, BDU-nun Qazax filialından professor-müəllim heyəti qatılıb. Konfransın ənənəvi bölməsində isə Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, "Naxçıvan" Universitetindən bu sahədə araşdırma aparan alimlərin çıxışları dinlənilib. Ümumilikdə konfransda ənənəvi və onlayn olaraq 21 məruzə üzrə çıxışlar olub.

**Səadət Əliyeva**

# MODERN TƏDRİS İMKANLARINA MALİK UNİVERSİTET

*Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir:* ***"Bu ali məktəbin yaranması və fəaliyyəti Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında, mədəniyyətində, sosial həyatında, onun inkişaf etməsində böyük rol oynamış və Azərbaycan Respublikasının yüksək təhsilli kadrlarla təmin olunmasına öz töhfəsini vermişdir."***



Yarandığı gündən etibarən regionun siyasi, iqtisadi, mədəni, elmi inkişafına hərtərəfli təsir göstərən Naxçıvan Dövlət Universitetində ən ümdə məsələlərdən biri gələcəyin peşəkar, uğurlu, öz işində mahir kadrların hazırlanmasıdır. Azərbaycan ali məktəblər ailəsində özünəməxsus yeri və mövqeyi olan Naxçıvan Dövlət Universitetinin formalaşma və inkişafında görkəmli dövlət xadimi Heydər Əliyevin böyük və əvəzsiz xidmətləri vardır. Bu ali təhsil ocağı özünün müxtəlif mərhələlərdəki bütün inkişaf və tərəqqisi üçün məhz Heydər Əliyev və onun layiqli davamçısı cənab İlham Əliyevin bu universitetə göstərdiyi diqqət və qayğıya borclu və minnətdardır.

Belə ki, NDU 1967-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamış, 1972-ci ildə ümummilli liderimiz Heydər Əliyevin qərarı ilə Naxçıvanda Pedaqoji İnstitut yaradılmışdır. 1990-cı ildə institut Naxçıvan Dövlət Universitetinə çevrilmiş, pedaqoji profilli dövlət universiteti kimi fəaliyyətini davam etdirmişdir. Son illər Ali Məclisin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə universitetdə tədris korpusları yenilənib, müasir təhsil imkanları formalaşdırılıb. Ölkənin ali təhsil məkanında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində Texnopark inşa olunur. Göstərilən diqqət və qayğının nəticəsidir ki, muxtar respublika və ölkəmizin digər bölgələrindən olmaqla yanaşı, çoxsaylı xarici tələbələr də təhsil almaq üçün bu modern universiteti seçirlər.

Universitetin son illərdəki inkişafı onun ölkənin qabaqcıl universitetləri arasında yer alması ilə nəticələnmişdir. Universitetin hal-hazırda bir çox xarici ölkə universitetləri ilə əlaqəsi mövcuddur ki, bu da yalnız muxtar respublikanın deyil, bütövlükdə ölkəmizin inkişafına töhfə verir. Universitet Türkiyənin İstanbul Universiteti, Ankara Universiteti, Van Yüzüncü İl Universiteti, Ərzurum Atatürk Universiteti, İstanbul Texniki Universiteti, Qazi Universiteti, Fransanın Strasburq Universiteti, İran İslam Republikasının Təbriz Universiteti, Qırğızıstan Beynəlxalq Universiteti daxil olmaqla dünyanın ayrı-ayrı ölkələrindəki universitetlərlə qarşılıqlı əlaqələr yaratmış, ikili təhsil proqramları üzrə müqavilələr bağlamışdır.

Hazırda elmi-pedaqoji fəaliyyətlə məşğul olduğum Xarici dillər fakültəsinin ötən illərdə yüzlərlə məzunu olmuşdur. Onlar bu gün respublikamızda və xarici ölkələrdə çalışır, ölkəmizin inkişafına töhfələrini verirlər. Demək olar ki, hər il NDU-da yeni ixtisaslar yaranır. Bu ixtisaslar, əsasən, ən çox tələbat olan, tələbələrin ən çox üstünlük verdikləri ixtisaslara görə seçilir. Universitetdə yaradılan və inkişafına xüsusi əhəmiyyət verilən ixtisaslardan biri də tərcümə ixtisasıdır. Magistratura təhsil pilləsində sinxron tərcümə ixtisasının yaradılması təhsilin bu sahəsində yaşanan ən parlaq durumun növbəti mənzərəsidir. Bu gün beynəlxalq konfranslar, simpoziumlar, idman yarışları mərkəzinə çevrilmiş ölkəmizin müxtəlif dillər üzrə çevik, peşəkar sinxron tərcüməçilərə daha çox ehtiyacı var və bu ixtisas üzrə müvafiq bazanın yaradılması da bu istiqamətdə atılan ən mühüm amildir.

Xarici dillər fakültəsinin sinxron tərcümə mərkəzində 6 xarici dil üçün tərcümə xidməti həyata keçirilir. 30 istifadəçi üçün nəzərdə tutulan mərkəz imkan verir ki, tələbələr dərs zamanı öyrəndikləri nəzəri bilikləri burada praktik şəkildə tətbiq etsinlər. Eyni zamanda, universitetdə mütəmadi olaraq "İngilis dili və tərcümə kafedrası"nda müxtəlif mövzularda müzakirələr təşkil olunur. Belə müzakirələrin təşkili tələbələrin həm müxtəlif mövzularda dil biliklərini və dünyagörüşlərini inkişaf etdirir, həm də kafedranın təcrübəli, peşəkar müəllim heyətinin təcrübə və dərin biliklərindən bəhrələnmələrini təmin edir. Müzakirələr zamanı tələbələr arasında müsabiqələr də təşkil edilir və fəal tələbələr mükafatlandırılır. Tədbirlərimiz mahiyyət etibarilə sinxron tərcümə mərkəzində həyata keçirilir.

Beləliklə, öz hədəflərinə doğru qətiyyətlə irəliləyən Naxçıvan Dövlət Universiteti daim yeniliklərə, daha böyük nailiyyətlərə imza atmaqdadır. Regionun ümumi inkişafında əvəzolunmaz rolu olan Naxçıvan Dövlət Universitetində həm təhsil, həm dünyagörüş, həm elmi biliklərin inkişaf etdirilməsi, həm nəzəri və təcrübi bacarıqların üzə çıxarılması, həm də təşkilatçılıq və idarəetmə qabiliyyətlərindən ibarət zəruri göstəricilər yer almaqdadır. Əminliklə deyə bilərik ki, gələcək illərdə bu ali təhsil ocağı daha böyük nailiyyətlərə imza atacaq.

**Sevinc Əziz**

# "MİLLİ TELEVİZİYA VƏ RADİO GÜNÜ"NƏ HƏSR OLUNAN TƏDBİR

*Naxçıvan Dövlət Universitetində "6 Noyabr – Milli Televiziya və Radio Günü"nə həsr olunan tədbir keçirilib.*

Ali təhsil müəssisəsinin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qeyd edib ki, universitetdə Jurnalistika ixtisasında təhsil alan tələbələrin təcrübi bazasını təkmilləşdirmək məqsədilə 27 aprel 2006-cı il Azərbaycan təhsil sistemi və regional jurnalistika tarixində ilk dəfə Naxçıvan Dövlət Universiteti "Tələbə" televiziya studiyası fəaliyyətə başlayıb və ali təhsil ocağının 108 hektarlıq ərazisində yerləşən tədris korpuslarının böyük auditoriyalarında qurulan televizorlar vasitəsilə bütün universitet ərazisində yayımı uğurla baş tutub. Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 2006-cı il tarixli sərəncamı ilə televiziyanın muxtar respublika ərazisində yayımlanması üçün müvafiq tezlik ayrılıb. Sərəncama müvafiq olaraq Naxçıvan MR Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 20 oktyabr 2006-cı il tarixli şəhadətnaməsi ilə televiziya dövlət qeydiyyatına alınıb, nazirliyin ayırdığı xüsusi tezlik və ayrıca kanalda yayımlanma razılığı televiziya kanalına universitet ərazisindən 10 kilometr olmaqla izlənmə imkanı yaradıb.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı, jurnalist ixtisasında dərs deyən müəllimlər, media mərkəzinin işçi heyəti və gənc jurnalistlərin xüsusi bacarığı və səyi nəticəsində Universitet Televiziyasının fəaliyyət sferası daha da genişlənib və 2021-ci ilin fevral ayının 24-dən etibarən muxtar respublikada yayımına başlanıb. Rafiq Rəhimov televiziya və radio işçilərinin peşə bayramı kimi qeyd olunan bayram münasibətilə universitet mediasının fəal təbliğatçıları olan, bu işi ustalıqla və məsuliyyətlə görən əməkdaşları və tələbələri təbrik edib.

"Radionun yaranma tarixi və KİV-də yeri" mövzusunda çıxış edən Universitetin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva qeyd edib ki, olduqca geniş auditoriyaya və güclü emosional təsirə malik olan radio və televiziya əhaliyə həm informasiya verir, həm də cəmiyyətdə güclü ictimai rəy yaradaraq kütlələri qlobal vəzifələrin həyata keçirilməsi uğrunda səfərbər edir.

Şəhla Şirəliyeva vurğulayıb ki, bu gün muxtar respublikada radio-televiziya işinin yüksək səviyyədə qurulması, verilişlərin keyfiyyətinin daha da yüksəldilməsi üçün daim diqqət və qayğı göstərilir.

Sonra Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının baş müəllimi Səadət Əliyevanın "Nuhçıxan radiosu muxtar respublikanın teleradio məkanında" mövzusunda çıxışı dinlənilib. Qeyd edilib ki, Nuhçıxan radiosu və Naxçıvan Dövlət Universiteti Televeziyası tələbələrin təcrübə keçdikləri bir məktəbdir. Jurnalistika ixtisasında təhsil alan tələbələr ali təhsil ocağına qəbul olduqları ilk gündən etibarən Media mərkəzi ilə sıx əməkdaşlıq əlaqələri qurur, burada təcrübi cəhətdən peşəkar jurnalist kimi yetişirlər. Belə ki, ali təhsil ocağının Media mərkəzində fəaliyyət göstərən Universitet televiziyası və "Nuhçıxan" radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə də yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər.

Jurnalistika ixtisası üzrə II kurs tələbəsi Tərlan İbrahimova jurnalist kadrların yetişməsində Media Mərkəzinin rolundan danışıb. Bildirilib ki, burada qazanılan peşə bacarıqları onların gələcəkdəki fəaliyyətlərində əvəzsiz rol oynayacaq.

Sonda universitetin "Media Mərkəzinin gündəlik fəaliyyəti" mövzusunda videoçarxa baxış olub.

**Məmmədbağır Dünyamalıyev**

# TƏLƏBƏ-GƏNCLƏR TƏŞKİLATININ FƏAL ÜZVLƏRİ QRANT MÜSABİQƏSİNİN QALİBİ OLUBLAR




***Azərbaycan Respublikası Gənclər Fondunun gənc nəslin fiziki, intellektual və mənəvi inkişafının təmin edilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, ictimai fəallığının artırılması, eləcə də innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin dəstəklənməsi məqsədilə keçirdiyi "İdeyanı Reallaşdır 2022" Gənclərin Fərdi Layihələri üzrə Qrant Müsabiqəsinin qalibləri müəyyən edilib. Qalib layihələr arasında Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının fəal üzvləri də var.***

Belə ki, universitetin Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımovun "Tələbə Gənclər Təşkilatlarının I regional konfransı", sədr müavini Sevindik Novruzzadənin "Xarıbülbül kuboku uğrunda", "Nə? Harada? Nə zaman?" intellektual oyunu, sədr müavini Adəm Məmmədovun "TAP-MAT intellektual şahmat oyunu üzrə birincilik" və Tələbə Gənclər Təşkilatının fəalı Bağdagül Cəfərlinin "Debat Çempionatı" layihələri müsabiqənin qalibi olub.

Qeyd edək ki, Tələbə Gənclər Təşkilatının qeyd edilən 4 layihəsi üçün müvafiq olaraq Əziz Qasımova 2500 manat, Bağdagül Cəfərliyə 2400 manat, Sevindik Novruzzadəyə 2100 manat, Adəm Məmmədova 1800 manat olmaqla ümumilikdə 8800 manat qrant ayrılıb.

# İNCƏSƏNƏT TARİXİNDƏN BƏHS EDƏN İNGİLİS DİLLİ DƏRS VƏSAİTİNİN TƏQDİMATI OLUB

*Ali təhsil müəssisəsinin Xarici dillər fakültəsində keçirilən tədbiri giriş sözü ilə açan universitetin Elmi katibi Orxan Cəfərov müxtəlif ixtisaslarla bağlı ingilisdilli kitabların çap olunmasının tələbələrin xarici dil biliklərini inkişaf etdirmək yolunda faydalı olduğunu diqqətə çatdırıb. Xarici dilin tədrisində istifadə olunan kitabların sayının artmasını məqsədəuyğun hesab edən Elmi katib, Nahidə Heydərova və Sənəm Paşayevanın müəllifi olduğu "English for art faculty" adlı kitabı İncəsənət fakültəsi tələbələri üçün də qiymətli töhfə kimi dəyərləndirib.*



Fakültənin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qulubəyli dərsliklərin xarici dildə nəşr olunmasının vacibliyini vurğulayıb, həmçinin təqdimatı keçirilən kitabla bağlı tədbir iştirakçılarını məlumatlandırıb.




Diqqətə çatdırılıb ki, vəsaitdə görkəmli xanəndə, bəstəkar, musiqi xadimi, Azərbaycan SSR xalq artisti, Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələri haqqında ingilis dilində geniş məlumat öz əksini tapır.

Kitabın teatr sahəsində təhsil alan tələbələr üçün də faydalı olacağını vurğulayan İngilis dili və metodika kafedrasının müəllimi Cavid Babayev qeyd edib ki, musiqinin orijinal mənbəyi nəsildən-nəslə keçərək bu günümüzə gəlib çıxıb. Cavid Babayev təqdimatı keçirilən kitabın tələbələrin öz sahəsində səriştəli mütəxəssis olmasına və gələcəkdə uğurlu karyera qurmalarına kömək edəcəyini vurğulayıb.

Sonda müəlliflər çıxış edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

**Sevinc Hüseynova**
*Jurnalistika ixtisası üzrə*
*II kurs tələbəsi*

# XARİCİ DİLİN UĞURLU TƏDRİSİNDƏ MÜƏLLİM AMİLİ VƏ İSTİFADƏ OLUNAN MÜASİR YANAŞMALAR

Dil ən vacib ünsiyyət vasitəsidir. O, bütün dövrlərdə ən çox araşdırılan anlayışlardan olmuşdur. Bəzi alimlər onu bioloji, bəziləri psixoloji, bəziləri isə sosial amil kimi qələmə vermişdir. Dil sosial amildir, yəni onu bir nəfər deyil, insan cəmiyyəti formalaşdırır. Dil yalnız insana xas olub, onu digər canlılardan fərqləndirən amildir. Aparılan araşdırmalara görə, hazırda Yer üzündə yeddi minə yaxın dil mövcuddur. Dünyada ən çox istifadə olunan ingilis dili günümüzdə "linqvo-franka", yəni müxtəlif dil daşıyıcıları arasında ünsiyyət vasitəsidir.

Təhsilin keyfiyyətinin və məzmununun yüksəldilməsi həyatın yüksək səviyyədə qurulması üçün ilkin şərt hesab olunur. Ulu öndərimiz Heydər Əliyevin ***"Təhsil millətin gələcəyidir"*** kəlamı təhsilin cəmiyyətdəki rolunu izah etmək üçün ən düzgün ifadədir. Millətin gələcəyi təhsildən asılıdır. Yaxşı təhsil əhalinin sağlam inkişafı, yaxşı gələcək deməkdir. Bu baxımdan biz təhsil sistemimizi dövrün tələblərinə, müasir standartlara uyğun qurmalı və inkişaf etdirməliyik. XXI əsr "Kompüter əsri", "Texnologiyalar əsri", "Zəka əsri" və s. kimi adlandırılır. Müasir təhsilimiz də bu adlara uyğun olmalıdır.

Naxçıvan Dövlət Universitetində tələbələrin xarici dil biliklərinin təmin edilməsi elm və texnikanın inkişafına uyğunlaşdırılır. Müasir təhsil insanlara müasir texnologiyaya tez yiyələnməyə, əmək bazarında müvafiq yer tutmağa və ömürboyu təhsil prosesinə qoşulmağa, sağlam həyat tərzi keçirməyə, ətraf mühitə düzgün münasibət bəsləməyə imkan verir. Bu konseptual ideyalar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 24 oktyabr 2013-cü il tarixdə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" adlı sənəddə təsdiq edilmişdir.

Müasir təhsil yeni texnologiyaların, innovasiyaların və idarəetmə strategiyalarının təkmilləşdirilməsinə əsaslanır. Ümumiyyətlə, tələbələrin xarici dili qavrama keyfiyyətinə və nailiyyətlərinə təsir edən amillər daxili və xarici amillərdir. Daxili amillərə əsasən maraq və motivasiyanı aid etmək olar. Aparılan araşdırmalara görə, tələbələrin daxili maraq və motivasiyalarının səviyyəsi onların öyrənmələrinə əhəmiyyətli təsir göstərir. Tələbə nailiyyətlərinə təsir edən xarici amillərdən biri də müəllimin rolunun təsiridir. Müəllimlərin təlim fəaliyyətlərində müəyyən edilən rollarından bəzilərinə məlumatlandırıcı, təşkilatçı, motivasiyaedici, idarəedici, təşəbbüskar, vasitəçi və qiymətləndirici rolları daxildir. Müəllim motivasiyaedici kimi tələbənin marağını və motivasiyasını artırmaq və onları öyrənməyə həvəsləndirmək rolunu oynayır.

Müəllim peşəsi ən qədim peşələrdən biridir. Bu ləyaqətli peşəyə cəmiyyətdə hörmət qazanmış şəxslər seçilirdi. Qazanılan pedaqoji biliklərin səviyyəsi müəllimin özündən və onun peşəkar səriştələrindən çox asılıdır. Müəllimdən davranışı, təhsili və əməyi ilə həmişə tələbələrə, bütövlükdə cəmiyyətə örnək olması gözlənilir. Müəllimin müvəffəqiyyətlə yerinə yetirə biləcəyi fəaliyyət növü və fəaliyyətin məqsədi bu cür səlahiyyətlərin səviyyəsindən asılıdır. Bütün dövrlərdə və bütün mədəni ənənələrdə müəllimə hərtərəfli hörmətlə yanaşılmışdır. Müəllim təkcə biliyə sahib olan, onu yayan şəxs deyil, həm də insan həyatında bütöv və mənəvi kompas daşıyan şəxsdir. Beləliklə, müəllimi insan ruhunun tərtibçisi adlandırmaq tamamilə düzgün olardı. Məhz müəllim sosial mühiti formalaşdırdığı, istedadlı kadrlar hazırladığı, gələcək nəsli həyat şəraitinə uyğunlaşdırdığı üçün hər bir cəmiyyətdə müəllimlik peşəsinə tələbat var.

Bütün dünya üzrə təhsil müəssisələrinin əsas məqsədinə tələbələrin performansının nümunəvi olmasını təmin etmək, gələcəyin peşəkar kadrlarını hazırlamaq daxildir. Bu məqsədlərə nail olmaq üçün təhsil ocaqlarında tələbələrlə yaxşı münasibət qura bilən və biliyə təsir edə bilən səriştəli, peşəkar müəllimlər olmalıdır. Universitetlər tələbələrin öyrənməyə həvəsləndirilməsi üçün bərabər imkanlardan istifadə etmələrini təmin etməlidir. Bundan əlavə, müasir dünyada universitetlər keçmişlə müqayisədə əhəmiyyətli dəyişikliklərlə əlaqələndirilir. Bu dəyişikliklərə multikultural birgəyaşayış, təhsil prosesində texnologiyadan istifadə, eləcə də təhsil proqramlarının təkamülü daxildir.

Müasir dövrdə baş verən yeniliklər, texnoloji, iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı nəticəsində dünyanın "qlobal kənd"ə çevrilməsi xarici dil biliklərini zəruri hala çevirmiş, dil tədrisində yeni yanaşmaların tətbiqinə səbəb olmuşdur. Hazırda dünyanın ən qabaqcıl ölkələrində, eləcə də Azərbaycanda tələbələrin xarici dili daha yaxşı mənimsəmələri, bu dildən sərbəst və səlist istifadə etmələrini təmin etmək məqsədilə kommunikativ dil tədrisi əsas götürülərək interaktiv təlim metodundan istifadəyə üstünlük verilir. Lakin tələbələrin dil səviyyəsindən, tədris olunacaq mövzudan, verilən tapşırıqdan, dərsin məzmunundan asılı olaraq, tapşırıq əsaslı yanaşma (task-based approach), situativ yanaşma (situational approach), problem-yönümlü yanaşma (problem-based approach) kimi müasir dil tədrisi yanaşmalarından da istifadə edilə bilər. Bütün bu müasir yanaşmalarda tələbələr öyrənmə prosesinin mərkəzini təşkil edərək aktiv çıxış etdikləri üçün interaktiv təlim metodu adı altında birləşdirilir. Belə bir dəyişiklik müəllimdən biliyə malik olmağı, tərbiyəçi, məsləhətçi, dost, təşkilatçı, əlaqələndirici, köməkçi, qiymətləndirici, bir sözlə, hərtərəfli insan olmağı tələb edir. Daha dəqiq desək, interaktiv tədrisdə müəllimin daha geniş və çoxşaxəli rolu var. O, həm dərslərdə, dərsdən sonrakı fəaliyyətlərdə və universitetdə mədəni tədbirlərin həyata keçirilməsində fəal olmalıdır. İnteraktiv tədris zamanı tələbə subyekt rolunda və müəllimin bərabərhüquqlu tərəfdaşı rolunda çıxış edir. Tələbələrinə və onların fikirlərinə hörmət edən müəllimlər tədris prosesini elə təşkil edir ki, tələbələr bilikləri daha asan mənimsəsinlər. Eyni zamanda onlar proqram məzmununun həyata keçirilməsi zamanı tələbələrdə istək və maraq oyadırlar.

Xarici dilin tədrisi məsələsinə xüsusi əhəmiyyət verən Naxçıvan Dövlət Universitetinin də qarşısına qoyduğu məqsədlərdən biri ixtisaslı müəllimlər hazırlamaq, müasir tələblərə uyğun olaraq müəllimlərin peşəkarlıq səviyyəsini yüksəltmək, onlara müasir innovativ metodların tədris prosesinə tətbiqinə kömək etmək, təhsilin məzmununu cəmiyyətin və iqtisadi inkişafın tələblərinə uyğun qurmaq, təhsilin idarə edilməsi mexanizmini təkmilləşdirmək, ömür boyu təhsil almaq, özünütəhsil və özünü təkmilləşdirmə problemlərini həll etməkdir. Tələbələrdən biri də savadlı, yüksək əxlaqi standartlara malik təkmil insan yetişdirməkdir. Yalnız belə insanlar keçmişi əbədiləşdirə, günün reallığını görə, gələcəyi təsvir edə bilərlər.

**Bülbül Hacıyeva**
*İngilis dili və tərcümə kafedrasının*
*baş müəllimi*

# "ÜMUMİ CƏRRAHLIQ" ADLI DƏRSLİK IŞIQ ÜZÜ GÖRÜB

"Ümumi cərrahiyyə cərrahlıq sənətinin əlifbasını öyrədir. Ona görə də onun tədrisi əlifbanın tədrisi kimi olmalıdır. Bütün cərrahlıq ixtisasına gedən yollar ümumi cərrahiyyənin dəhlizindən başlayır". Bu sözləri Ali təhsil müəssisəsinin rektoru Elbrus İsayev universitetin professoru, tibb elmləri doktoru İsa Abdullayevin "Ümumi cərrahlıq" adlı dərsliyinin təqdimatında qeyd edib. O bildirib ki, tibbi kadrların hazırlanmasında maddi-texniki imkanlarla yanaşı, elmi-metodiki göstəricilərin lazımi səviyyədə olması tədrisdə keyfiyyətin təşkili üçün mühüm amil hesab olunur. Azərbaycan tibb elmində səkkizinci, muxtar respublikada ilk olan dərslik, həkimlik yolunda addım atan tələbələr, rezidentlər, tədqiqatçılar üçün qiymətli metodik vəsait hesab olunur.

Dərsliyin rəyçisi, Tibb fakültəsi "Ümumi təbabət və kliniki fənlər" kafedrasının baş müəllimi, tibb elmləri namizədi Sabir Novruzov elmi əsərdə cərrahlığın inkişaf tarixi, Antiseptika, Aseptika, Ağrısızlaşdırma və onun növləri kimi fəsillərdə müxtəlif yanaşmalar, ümumi qənaətlər və fərqləndirici xüsusiyyətlər barədə söhbət açıb.

Tibb üzrə fəlsəfə doktoru, dosent Cəbi İsmayılov müəllifin araşdırdığı və dərslikdə geniş yer verdiyi cərrahi əməliyyatlar və onun növləri barədə



maraqlı nüansları iştirakçıların diqqətinə çatdırıb. O bildirib ki, tibb sahəsində yeniliklər hər zaman böyük maraq doğurur. Xüsusən, invaziv neyroradiologiya və robotik cərrahiyyə sahəsində yeni tədqiqatlara və tədqiqatçılara muxtar respublikada böyük ehtiyac duyulur. Belə elmi əsərlərin nəşri gənc alimlər üçün maraqlı və gərəkli tədqiqat sahələrində stimullaşdırıcı amil ola bilər.

Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva elmi əsər barədə çıxış edərkən nəfis tərtibatı və geniş həcmi ilə fərqlənən dərsliyi ali təhsil ocağının tələbələri və həkimlər üçün mükəmməl praktik əsər kimi qiymətləndirib. Onun sözlərinə görə, on səkkiz fəsildən ibarət olan dərsliyin bütün bölmələri, xüsusən, müasir təbabətin həllə də sonadək araşdırılmamış sahəsi olan transplantologiya haqqında aparılan araşdırma zəngin məlumatlar təqdim edir.

Dərsliyin illüstrasiyalı tərtibatı barədə danışan Təməl tibb fənləri kafedrasının baş müəllimi Bəxtiyar Hüseynov müxtəlif foto və qrafiklərlə geniş yer verilməsini müsbət qiymətləndirərək, bunun tələbələr üçün əyani və vizual informasiya mənbəyi kimi faydalı olacağını diqqətə çatdırıb.

Çıxış edənlərdən ümumi cərrahiyyə ixtisası üzrə həkim-rezident Samirə Həsənzadə elmi rəhbəri və dərsliyin müəllifi İsa Abdullayevə tibb sahəsinə gərəkli olan fenomen bir əsərin ərsəyə gəlməsində göstərdiyi əzmkarlığa görə, oxucu qismində dərin minnətdarlığını ifadə edib.

Təqdimatda ATU Ümumi cərrahlıq və anesteziologiya kafedrasının professoru, Azərbaycan Respublikasının əməkdar həkimi Çərkəz Cəfərov başda olmaqla, ATU Elmi Tədqiqat Mərkəzinin direktoru, Əməkdar Elm Xadimi, RF TTE Akademiyasının və Türk Dünyası Araşdırmaları Beynəlxalq Akademiyasının akademiki Qalib Qarayev, Türkiyə Cümhuriyyəti Kayseri-Erciyes Universitetinin Ümumi Cərrahlıq kafedrasının professoru Erdoğan Sözüer və ATU Ümumi cərrahlıq və anesteziologiya kafedrasının professoru Cabbar Hacıyev kimi görkəmli həkim və alimlərin video çarx formatında təbriki nümayiş olunub.

Çıxış edən müəllif bəzi maraqlı məqamlara aydınlıq gətirərək tədbir iştirakçılarına və qonaqlara təşəkkürünü bildirib.

Sonda prezident təqaüdçüləri Fuad Məmiyev və Turac Mehdiyeva, o cümlədən fakültənin öz potensialı ilə fərqlənən aktiv tələbələrinə müəllifin yeni kitabı hədiyyə olunub.

**Elnarə İslamlı**
*NDU-nun televiziya, mətbuat və ictimaiyyətlə*
*əlaqələr bölməsinin əməkdaşı*

# UNİVERSİTET MÜƏLLİMİNİN MƏQALƏSİ BEYNƏLXALQ JURNALDA DƏRC OLUNUB

*Ali təhsil müəssisəsinin Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədovanın "Azerbaycan'daki düğün törenlerinin çeşitliliği bağlamında Nahçıvan bölgesinin düğün gelenekleri" adlı məqaləsi SCOPUS elmi indeksləşmə bazasına daxil olan "Rast Muzikoloji Dergisi" adlı jurnalda çap olunub.*




Məqalədə Naxçıvan bölgəsinin toy adət-ənənəsi, bu ənənələrdə musiqinin rolu və əhəmiyyəti araşdırılıb, qədimdən mərasimlərdə ifa olunan musiqi folklor nümunələri nəzəri cəhətdən təhlil edilib, eyni zamanda foklor ekspedisiyaları zamanı tədqiqatçı tərəfindən ilk dəfə toplanılaraq nota yazılan folklor materialları da məqalədə işıqlandırılıb.

Xatırladaq ki, "Rast Muzikoloji Dergisi" adlı jurnal musiqi tədqiqatlarının geniş nəşrinə və sadiq qaldığı etik prinsiplər çərçivəsində musiqi tədqiqatçılarının dünya miqyasında görünməsinə xidmət etmək məqsədi daşıyan beynəlxalq akademik jurnaldır.

# CƏMİYYƏTİN MEMARI – MÜƏLLİM

*Bu gün cəmiyyətdə bir sıra peşələr var ki, zaman keçsə də, texnologiya nə qədər inkişaf etsə də biz bu peşələrsiz həyatımızı təsəvvür edə bilmərik. Bu peşələrdən biri müəllimlik peşəsidir. Müəllimlər cəmiyyətin memarları hesab olunur, çünki hər kəsin layiqli vətəndaş, həqiqi insan kimi formalaşmasında müəllimlərin rolu əvəzsizdir.*
*İnsanı kamillik dərəcəsinə çatdıran, onu cəmiyyət üçün faydalı şəxsə çevirən məhz müəllimdir.*

Danılmaz həqiqətdir ki, müəllim hər zaman səcdə olunacaq, doğru məsləhətlərinə hər an ehtiyac duyduğumuz bir varlıqdır. O, ömrünü neçə-neçə insanın yoluna çıraq edən, həyatının ən gözəl illərini, gözünün nurunu onlara həsr edən bir şəxsiyyətdir. Bu müqəddəs varlığın dəyərini İslam dünyasının parlaq simalarından olan Həzrəti Əli belə qiymətləndirmişdir: *"Mənə bir hərf öyrədənin köləsi olaram"*. Din, əqidə, məslək uğrunda uca şəhidlik zirvəsinə yüksələn Həzrəti Əlinin müəllimin əməyini belə yüksək dəyərləndirməsinin səbəbini anlamaq üçün ilk növbədə bu peşənin mahiyyətini, məsuliyyətini, ağırlığını dərk etmək lazımdır.

Həqiqi müəllim olmaq, bu peşənin ağırlığını, məsuliyyətini, aliliyini dərk etmək hər bir müəllim kimi məni də daim düşündürüb. Hələ ilk müəllimlik etdiyim zamanlarda özümdən təcrübəli müəllimlərin təcrübəsini öyrənməyə, özümlə onları müqayisə edərək nəyin doğru, nəyin yanlış olduğunu ayırd etməyə çalışırdım. Bəzən boş vaxtlarımda gizli-gizli bu müəllimlərin dərslərini dinləmək üçün özümü o müəllimlərin dərs dediyi auditoriyaların qarşısında tapırdım. Bunun səbəbi beynimdə həqiqi müəllim prototipini yaratmaq idi. Hiss edirdim ki, müşahidələrim nəticəsində müəllim üçün önəmli olan keyfiyyətləri özümə aşılaya bilirəm. Bu gizli dinləmələrimin ünvanı çox zaman hamımızın "Kazımov" kimi tanıdığımız Hüseyn müəllimin dərs dediyi auditoriyanın qarşısı olurdu.

İndi isə sizə onun haqqında və ondan mənimsədiklərim haqqında bunları deyə bilərəm: Hüseyn müəllim ömrünün 60 ilini müəllimlik peşəsinə sərf edən, tədris etdiyi fənn kimi dəqiq olan, dərsi xüsusi coşqu ilə saysız-hesabsız tələbəyə öyrədən, tələbələrin şəxsiyyət kimi formalaşmasında xüsusi payı olan müəllimlərdəndir. Hüseyn Kazımov bu gün universitet əməkdaşları sırasında olmasa da, qazandığı hörmət müəllimlik peşəsinin gərəkliliyinin sübutudur. Dərs dediyi tələbəyə biliklə yanaşı ehtiramı, milli mentalitetimizin dəyərlərini öyrədən Hüseyn müəllim dərs zamanı yalnız jurnalda qeydiyyat aparmaq üçün oturar və bütün dərs boyu (hətta seminarda belə) əlində təbaşir lövhənin qarşısında nəsə izah edər və hər şeydə mükəmməllik axtarardı.

Hüseyn müəllimi tanıdıqdan sonra onun haqqında ancaq bunları deyə bilərəm: Müəllim öyrədəndir, müəllim ustaddır, müəllim yol göstərəndir. Müəllim həm də elə bir ziyadır ki, öz biliyini tələbəyə ötürməklə yüzlərlə, minlərlə tələbənin ömür yolunu nurlandırır. Hüseyn müəllimin ömür yolunu vərəqləyən hər bir insan bu sadaladıqlarımın onun şəxsyyəti qarşısında sönük qaldığı ilə yəqin ki, razılaşarlar. Onun sərt təbiəti altında gizlənən yumşaqürəkliliyi, kövrəkliyi, yaltaqlıqdan uzaq olması, hər şeyi özünəməxsus şəkildə qiymətləndirməsi, milli dəyərləri yüksəkdə tutması, xüsusilə də xanım tələbələrin hər bir davranışına həssaslıqla yanaşması, öz sahəsi olmasa belə hər şeydən tez məntiqi nəticə çıxarması, gənc müəllimlərdən heç vaxt ağıllı məsləhətlərini əsirgəməməsi Hüseyn müəllimi təkcə tələbələrinin gözündə deyil, biz müəllimlərin də nəzərində həmişə ucada saxlayır.

"Riyaziyyatı bilənə zaval yoxdur, çalış övladların riyaziyyatı yaxşı mənimsəsin" - kəlmələri, "Sabah pəncərəm var, gətir baxım görüm "nəvələrim" nə vəziyyətdədir" deməsi bu insanın müəllimliklə nəfəs aldığının bariz nümunəsidir. O bu sözləri elə ürəkdən deyirdi ki, insan onun sözünü geri çevirməyi sanki böyük bir günah hesab edirdi. Və bu sözlərdə Hüseyn müəllimin hərarətli qəlbinin istiliyi duyulurdu və hiss edirdin ki, bu insan ömrünün hər anını peşəsiylə yaşayır, müəllimliklə nəfəs alır. Qürurverici hal o idi ki, bu insan etdikləri yaxşılıqlarda heç bir təmənna ummurdu.



Hüseyn müəllim peşəsinə vurğun bir insan olduğundan hansı mövqedə olmasından asılı olmayaraq heç vaxt dərs buraxmaz, öz tələbələrini heç kimə etibar etməzdi. İstidə-bürküdə, yağışda-qarda onun tələsdiyi yeganə bir ünvan var idi: ona doğma olan sinif otaqları. Bu gün təqaüddə olsa da, dərs dediyi tələbələrlə sıx əlaqə saxlayan, universitetdə gedən hər bir inkişafdan xəbərdar olan Hüseyn müəllim hərdən o sinif otaqları üçün, dərs dediyi tələbələri üçün darıxır.

Keçdiyimiz həyat yolunda çoxlu insanlarla qarşılaşırıq. İnsan bəzilərini birdəfəlik yaddaşından silmək istədiyi halda Hüseyn müəllim kimi sözün əsl mənasında müəllim olanları gözü axtarır, həyatın enişli-yoxuşlu, bəzən fırtınalı yollarında yaxşı ki, belə insanların olduğuna sevinir.

Hüseyn müəllimin tələbələri fəxrlə "O mənim müəllimim olub", – deyərək hörmətlə, təbəssümlə onu yada salır, hətta bəziləri "Atamdan çox onunla məsləhətləşirəm", – deyirlər. Bu gün hər bir müəllimin Hüseyn müəllim kimi müəllimlərdən öyrənəcəyi çox şey var. Belə insanların qiymətini bilmək, onlardan müəllimliyin sirlərini öyrənmək və onları gənc nəslə nümunə göstərmək biz müəllimlərin borcudur. Çünki müəllimliyi həqiqi müəllimlərdən öyrənməliyik.

**Tehranə Xudaverdiyeva**

# GÖRKƏMLİ ALİM, XEYİRXAH İNSAN

*Elmi özlərinə həyat amalı seçənlər başəri dəyərlərin zənginləşməsində əvəzsiz xidmətlər göstərirlər. Bu insanlar yaşadıqları mühitin hüdudlarına sığmır, hamı tərəfindən sevilir, böyük hörmət və ehtiramla qarşılanır, əsl ziyalı, vətəndaş vəzifəsini son dərəcə məsuliyyətlə yerinə yetirirlər.*

Azərbaycan elminin görkəmli nümayəndəsi, səriştəli, yüksək intellektli tədqiqatçı, prinsipial mövqeyi, dərin məntiqi, dəsti-xətti ilə tanınan elm xadimi, Zöhrab Vəliyev məhz belə – xalqına daim hörmət qazandıran, onun şərəfini yüksəklərə qaldıran alimlərimizdən idi. Bütün rahatlığını elmdə tapan, yaşadığı illər ərzində yalnız elmi fəaliyyəti ilə deyil, həm də xoş ünsiyyəti, təvazökarlığı, xeyirxahlığı ilə seçilən Zöhrab müəllimin həyatda tutduğu yol neçə-neçə nəslə elmin sirlərini öyrətmək, mənəviyyatımızın saflığını, zənginliyini qorumaq yolu idi.

Zöhrab Vəliyev ixtisasca fizik idi. O, fitri istedada malik olan alimlərimizdən biri idi. Z.Vəliyev 4 iyun 1953-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. 2 nömrəli orta məktəbi bitirdikdən sonra 1970-ci ildə Bakı Dövlət Universitetinin fizika fakültəsinə daxil olmuşdur. 1973-1977-ci illərdə təhsilini M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fizika fakültəsində davam etdirmişdir. O, tələbəlik illərində artıq bir ziyalı kimi yetişmişdi. Elmi konfranslarda, toplantı və yığıncaqlarda çıxışlar edirdi. Onun özünə də, sözünə də hörmət qoyurdular. Bu isə gənc tələbəni sevindirir, gələcəyə, uğurlu elmi fəaliyyətə inamını artırırdı.

Universiteti bitirdikdən sonra Z.Vəliyev 1977-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitunda çalışmış, 1981-ci ildə aspiranturaya qəbul olmuşdur. 1985-ci ildə fizika-riyaziyyat elmləri doktoru, professor V.B.Şikinin rəhbərliyi altında "Elektron yüklü dislokasiyaların yarımkeçiricilərin elektron xassələrinə təsiri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Z.Vəliyev 1986-cı ildən Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərmişdir. O, universitetin Texniki təlim fakültəsində dekan müavini, universitet Elmi Şurasının elmi katibi, Fizika-riyaziyyat fakültəsinin dekanı vəzifələrində, 1997-ci ildən Naxçıvan Dövlət Universitetinin Elmi işlər üzrə prorektoru işləmişdir. O, fizika elmini daim inkişaf etdirən görkəmli alim, əvəzsiz tədqiqatçı idi. NDU-da fəaliyyəti, gərgin, səmərəli axtarışları sayəsində elmin çətin, daşlı-kəsəkli yollarında inam və qətiyyətlə irəliləyir, onun zirvəsinə addımbaddım yüksəlir, tədqiqatçılıq fəaliyyətinin ilk illərindən başlayaraq mühüm yer tutan problemlərlə yanaşı, onun aktual nəzəri və əməli əhəmiyyət kəsb edən digər sahələri ilə də məşğul olurdu.

1999-cu ildə "Dislokasiyalı yarımkeçiricilərdə kinetik effektlər" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib, fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi, 2000-ci ildə isə professor elmi adı almışdır. Alimin elmi məqalələri bir sıra nüfuzlu beynəlxalq elmi jurnallarda nəşr edilmişdir. O, 2001-ci ildən ABŞ Nyu-York Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, bir çox beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların iştirakçısı olmuşdur.



Təkcə onu qeyd etmək kifayətdir ki, görkəmli alim, onlarca kitabın, çoxsaylı monoqrafiya, dərslik, 100-ə yaxın məqalənin müəllifidir. Əsərləri Türkiyədə, Rusiyada, Almaniyada, MDB və digər ölkələrdə nəşr olunub. Özündən sonra zəngin elmi məktəb qoyan görkəmli alimin yetirmələri onun yolunu davam etdirirlər. Alim istər SSRİ dövründə, istərsə də Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra saysız-hesabsız diplomlar, fəxri fərmanlar, təşəkkürnamələr alıb. Həm dövlət, həm də mötəbər elmi təşkilatlar, xarici ölkələrin elmi cəmiyyətləri tərəfindən verilmiş bu yüksək qiyməti Zöhrab müəllim öz dərin düşüncə və axtarışları, gəldiyi uğurlu nəticələr, halal zəhməti və nüfuzu ilə qazanmışdır. Bir sözlə, Z.Vəliyev öz qabiliyyəti, yüksək potensialı ilə elmdə zirvələr fəth etmişdir.

Həyata gələn insan bir ömür yaşayır. Kimisi az, kimisi çox. Sözsüz ki, az yaşayana çərxifələk macal vermir. Ancaq çox yaşayan nə isə etməyə can atır, özündən sonra iz qoymağa çalışır. Kişi və ya qadın fərqi yoxdur. Əzab çəkəni də var, xoşbəxt yaşayanı da. Hər halda bir ömür yaşanılır və vaxt çatanda bu dünyanın istisinə-soyuğuna, şirininə-acısına əlvida deyir. Lakin nə xoşbəxtdir özündən sonra izi qalanlar, xoş xatirələrlə anılanlar! Zöhrab Vəliyev də özünə düşən ömür payını yaşamışdır. Çox təəssüf ki, vaxtsız ölüm bütün işlərini yarıda qoydu. Zöhrab müəllimin vaxtsız vəfatı Azərbaycan elminə böyük itki, ailəsinə, yaxınlarına, dostlarına, aspirant və dissertantlarına, tələbələrinə böyük zərbə olsa da, o, xeyirxah əməlləri ilə əbədiyyətə qovuşdu.

Sonu görünməyən elmin yollarında mənə bələdçi olan, qaranlıq keçidlərdə öz zəkası ilə yoluma işıq saçan hörmətli elmi rəhbərimə Allahdan rəhmət diləyirəm və qəbri nurla dolsun deyirəm.

**Nailə Qardaşbəyova**
*Ümumi və nəzəri fizika kafedrasının dosenti*

*Dünyaya göz açan hər bir insanın öz tale yolları var. Yalnız həyatın tələblərini dərk edib, qarşıya qoyduğu məqsədlərə çatmaq uğrunda bütün əqli və qabiliyyətini sərf etməyi bacaranlar Tanrının müəyyənləşdirdiyi bu tale yollarında öz istəklərinin yüksək zirvəsinə ucalırlar. Muxtar Respublikamzın mədəni mühitində pedaqoji fəaliyyəti və yaradıcılığı ilə fərqlənən və ən əsası, gözəl insan olan Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi, pedaqoq, tarzən İmamqulu Əhmədov məhz belə insanlardan biridir.*

## ALTMIŞ YAŞIN ASTANASINDA

İmamqulu Əhmədov 1963-cü il avqust ayının 22-də Naxçıvan şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Naxçıvan şəhər 1nömrəli uşaq musiqi məktəbini bitirdikdən sonra (1974-1979) Naxçıvan şəhər Üzeyir Hacıbəyov adına orta ixtisas musiqi məktəbinə tar ixtisası üzrə qəbul olunmuşdur. 1983-cü ildə həmin məktəbi bitirdikdən sonra Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olur. Bir il təhsil aldıqdan sonra hərbi xidmətə çağrılır. Hərbi xidmətimi Almaniya Demokratik Respublikasında çəkdikdən sonra təhsilini davam etdirir və 1990-cı ildə Azərbaycan Dövlət Konservatoriyasını müvəffəq qiymətlərlə bitirir.



Müxtəlif illərdə uşaq musiqi məktəblərində müəllim, xalq çalğı alətləri şöbəsinin müdiri, müsiqi texnikumunda müəllim, orkestr rəhbəri, Naxçıvan Dövlət Universitetində müəllim, dekan müavini, Naxçıvan Dövlət Filarmoniyasında direktor müavini, 3№li Uşaq Musiqi Məktəbində direktor vəzifələrində çalışmışdır. İmamqulu müəllim 2005–2017-ci illərdə Naxçıvan şəhər Mədəniyyət Şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərmişdir. 2011-ci ildə Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülmüş, 2014-cü ildə Dövlət Qulluğunda kiçik müşavir dərəcəsi almışdır.

İbtidai musiqi məktəbində Ramazan Axundovdan, Naxçıvan Musiqi Kollecində görkəmli pedaqoq – virtuoz tarzən Əkrəm Məmmədovdan və Azərbaycan Dövlət Konservatoriyasında tanınmış pedaqoq Oqtay Quliyevdən aldığı dərslər onun bir solist-pedaqoq kimi yetişməsində əhəmiyyətli rol oynamışdır.

İmamqulu müəllimin pedaqoji fəaliyyəti, onun tələbələrinin uğurları həmişə öndə olmuşdur. İstər muxtar respublikamızda keçirilən müsabiqələrdə, istərsə də Bakı şəhərində keçirilən Ümumrespublika müsabiqələrində mütəmadi olaraq onun tələbələri uğurla çıxış etmiş, ən yüksək mükafatlara layiq görülmüşlər. Onlardan Toğrul Həsənov, Sərxan Abdullayev, Fətəli Axundzadə, Hüseyn Tağıyev və başqaları bu gün də muxtar respublikamızın musiqi mədəniyyətinə töhfələrini verməkdədirlər.

Həmçinin, İmamqulu müəllimin çoxlu sayda Azərbaycan xalq çalğı alətləri orkestri üçün işləmələri (partitura) və tar aləti üçün köçürmələri mövcuddur. Onun xalq çalğı alətləri üçün işlənmiş partituraları bu gün də uşaq musiqi məktəblərinin və Musiqi Kollecinin orkestrlərində repertuara daxil edilməkdədir.

İmamqulu Əhmədov eyni zamanda Naxçıvan Dövlət Dram Teatrı ilə də sıx əlaqə saxlayır. O artıq bu günə qədər 14 tamaşanın musiqi-tərtibatçı olmuşdur. Bunlaqdan "Şah Qacar", "Yəhya bəy Dilqəmi", "Əlincə qalası", "Arılar arasında", "İblis", "Əli və Nino", "Müfəttiş" və başqalarını göstərmək olar. Hazırda İmamqulu müəllim Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində pedaqoji fəaliyyətini davam etdirir.

İmamqulu Əhmədova ən böyük arzumuz möhkəm can sağlığı ilə uzun ömür və pedaqoji fəaliyyətində uğurlarının bol olmasıdır.

**İsmayıl Mürsəlov**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# QƏLBİ VƏTƏNLƏ DÖYÜNƏN QADIN

*Azərbaycanın qadın şairləri sırasında özünəməxsus dəst-xəttə malik olan sənətkarlardan biri də hər misrasında ürək döyüntülərini, səmimi hisslərini duyduğumuz romantik şairə-Kəmalə Ağayevadır. Kəmalə xanım Azərbaycan poeziya ənənələrinə sadiq qalan, eyni zamanda, yaradıcılığında novatorluğu ilə seçilən bir sənətkardır. Şair-dramaturqun yaradıcılığı, əsərlərinin mövzu dairəsi çoxşaxəli olduğu qədər, qayəsi, məqsədi, amalı bir olan qadındır. Onun yaradıcılığının əsas qayəsini Vətənə xidmət, insana sevgi, doğma yurda, onun təbiətinə məhəbbət təşkil edir.*

Kəmalə Ağayeva yaradıcılığa şeirlə başlasa da, daha sonralar mənzum dram, poema, oçerk, məqalə, pyes kimi müxtəlif janrlara müraciət etmişdir. İlk şeirini 12 yaşında qələmə alan istedadlı xanımın hələ 22 yaşında ikən qələmə aldığı Məhsəti Gəncəvinin həyatından bəhs edən mənzum pyesi onun dramaturgiya sahəsində ilk qələm təcrübəsi idi. İlk dəfə Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan 4 pərdəli mənzum faciə janrında yazılmış bu əsərin premyerası 1964-cü il oktyabrın 24-də olmuşdur. Tamaşanın quruluşçu rejissoru Baxşı Qələndərli, rəssamı Məmməd Qasımov, bəstəkarı Məmməd Ələkbərov idi. Məhsəti obrazının ifaçısı Zəroş Həmzəyeva olmuş və onun gözəl ifası tamaşaçılar tərəfindən yüksək qiymətləndirilmişdir. Qeyd edək ki, müəllifin ilk dram əsəri Fəxri Fərmanla mükafatlandırılmışdır. Bu pyes milli teatr tariximizə Məhsətiyə həsr olunmuş ilk dram əsəri kimi düşmüşdür. Məhz "Məhsəti" tamaşasının uğurlu premyerasından sonra Kəmalə Ağayeva Naxçıvan teatrının ilk ədəbi hissə müdiri təyin olunaraq 30 il həmin vəzifədə çalışmışdır. Qeyd edək ki, daha sonra dramaturq Naxçıvan Dövlət Kukla Teatrının təşkilatçılarından biri kimi 1990-cı ildən 2003-cü ilədək bu teatrın da ədəbi quruluş hissə müdiri olmuşdur.

Müəllifin, eyni zamanda, "İsmət", "Mənim tanrım gözəllikdir, sevgidir", "Apardı sellər Saranı" pyesləri, uşaqlar üçün yazılmış "Göyçək Fatma", "Tıq- tıq xanım", "Məlikməhəmməd" kimi səhnə əsərləri Naxçıvan teatrında dəfələrlə nümayiş etdirilmişdir. Müəllifin "O, bizim dağların oğludur" pyesi Əcəmiyə, "Mənim tanrım gözəllikdir, sevgidir" pyesi isə Hüseyn Cavidə həsr olunmuşdur.

Kəmalə Ağayeva yaradıcılığının mühüm hissəsini poema və şeirləri təşkil edir. "Nurun yayılıbdır bütün dünyaya", "İlk bənövşə onundur", "Arpaçayın nəğməsi", "Daş piyalə" poemaları ilə tanışlıq zamanı təsirlənməmək mümkün deyildir. Bu əsərlər, oxucu zövqünü oxşamaqla yanaşı, ona incə hisslər bəxş edir. Şairin əsərlərinə bəşərilik, incəlik kimi məziyyətlər xasdır.

*Ürəyimdə vətən eşqi,*
*Gözlərimdə Günəş nuru, yanaram,*
*Öz ömrümü, öz könlümü bir laləzar sanaram...*



misralarından da göründüyü kimi Naxçıvan diyarının istedadlı şairəsi Kəmalə Ağayevanın qəlbi vətənilə döyünür, şeirlərində doğma yurdunu sevgi-hörmət hissləri ilə tərənnüm edir. "Doğma diyarım" şeirində müəllifin Naxçıvana olan ülvi məhəbbətinin lirik dillə ifadə etməsi insanda heyranlıq doğurur:

*Əcəmi naxışlı, Cəlil baxışlı,*
*A Bəhruz fırçalı, diyarım mənim.*
*Səadət günəşli, şəfəq yağışlı,*
*Bahara qovuşan baharım mənim.*
***
*Ay Ordubad bağlım, ay Haçadağlım,*
*Badamlı qaynaqlım, Qızlar bulaqlım,*
*Batabat yaylaqlım, zümrüd oylaqlım,*
*A gülü solmayan gülzarım mənim.*
***
*Mənim Şərur düzlüm, bəxtiyar üzlüm,*
*Duzdağın duzuyla çörəyi duzlum.*
*Əlvan üzümütək, a şirin sözlüm,*
*A dövlətim mənim, a varım mənim!*

"Əlincə qalası" şeirini oxuyarkən, bir vətəndaş olaraq insan yurduna bir daha aşiq olur!

*Tariximin daş yaddaşı, Əlincə!*
*İgidlərin məhək daşı, Əlincə!*
*Həm sevincim, həm göz yaşım, Əlincə,*
*Baş əymədin sən düşmənə, qılınca.*

Şairin ilham mənbəyi eyni zamanda, insanlardır. "Sizi sevirəm, insanlar!" adlı şeirində müəllif insanlara olan sonsuz sevgisini poetik dillə belə ifadə edir:

*Qəlbimdə nə qədər od var, ataş var,*
*Hamısını sizə vermək istərəm.*
*Eşqiniz elədi məni bəxtiyar,*
*Mən sizi bəxtiyar görmək istərəm.*

Onun yaradıcılığının əsas ideya istiqamətlərindən biri də qadın sevgisi, düşüncələri ilə bağlıdır. "Bizim qadınlar" şeirində müəllif Azərbaycanın qeyrətli qadınlarını belə tərənnüm edir:

*Leyli sədaqətli, Şirin ülfətli,*
*Həcər xilqətlidir bizim qadınlar.*
*Çiçək təbiətli, polad qeyrətli,*
*Tomiris cürətlidir bizim qadınlar...*

Kəmalə Ağayevanın qadınları tərənnüm edən digər maraqlı şeirlərindən biri də "Əbədiyyət rəmzi" şeiridir:

*Qadın-əbədiyyət! Qadın-məhəbbət,*
*O böyük insanın Anadır adı.*
*Onun qüdrətinə edirəm heyrət-*
*Bu gözəl həyatdır onun övladı.*

Bir neçə poemanın, tarixi və müasir mövzulu pyeslərin, "Baharın sözü", "Gül yarapağı", "Sən olmasaydın", "Arpaçayın nəğməsi" və digər toplularda əks olunmuş müxtəlif mövzulu şeirlərin müəllifi olan Kəmalə xanımın fransız ədəbiyyatından (Pol Elüar, Pol Verleni, Lui Araqon, Pyer de Marivo) etdiyi tərcümələr də diqqəti çəkir. Və əlbəttə ki, bu da təsadüfi deyildir, belə ki, Kəmalə Ağayeva Azərbaycan Dillər Universitetinin fransız dili fakültəsini bitirmiş və bu dili 35 il müddətində orta məktəblərdə tədris etmişdir.

Kəmalə Ağayeva yaradıcılığı çoxşaxəlidir. Belə ki, şair-dramaturq qələmini mətbuat sahəsində də sınamış və yüzlərlə oçerk, resenziya, məqalələr qələmə almışdır. Müəllifin publisistik yazılarının qəhrəmanları isə vətəninə, xalqına rəşadətlə xidmət edən, müxtəlif sahələrdə çalışan zəhmət adamlarıdır. Kəmalə xanım, şeirlərində olduğu kimi, məqalələrində də safincə insan duyğularına toxunmuş, mənəviyyat mövzularında çıxış etmişdir.

Qəlbi vətənilə döyünən, safürəkli, xoş diləkli şairənin yaşadığı ömrə nəzər yetirdikdə, onun həyatı ilə yaxından tanış olduqda belə bir qənaətə gəlmək olar ki, Kəmalə xanım çox mənalı ömür sürmüşdür. Kəmalə Ağayeva, eyni zamanda, ona görə xoşbəxtdir ki, o, xalqın rəğbətini qazanmış, yaradıcılığı hamı tərəfindən qəbul olunmuşdur. Azərbaycan Yazıçılar Birliyinin, eyni zamanda, Teatr Xadimləri İttifaqının üzvü olan şair-dramaturq Kəmalə Ağayevanın yaradıcılığı dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmişdir. Belə ki, istedadlı şairə Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, əməkdar incəsənət xadimi fəxri adlarına, eyni zamanda, Prezident təqaüdünə layiq görülmüşdür. Bütün bunlarla yanaşı, sənətkar müxtəlif illərdə fəxri fərman, tərifnamələrə də layiq görülmüşdür.

Qadın şairlər sırasında özünəməxsus üsluba, dəst-xəttə malik olan Kəmalə Ağayeva çoxşaxəli yaradıcılığı, eyni zamanda, ictimai fəallığı sayəsində uzun illərdir ki, xalqımıza xidmət göstərmişdir. Xalqımız onun yaradıcılığını qoruyub gələcək nəsillərə ərmağan edəcəkdir.

**Çinarə İsmayılova**
*NDU Elmi Kitabxanasının baş kitabxanaçısı*

# MƏŞHUR ŞƏRQŞÜNAS-TƏRCÜMƏÇİ ALİMLƏRDƏN BƏZİLƏRİNİN YARADICILIQLARINA BAXIŞ

*Azərbaycan xalqı özünün dünyanın elm aləmində ad çıxarmış dahi alimləri ilə həmişə fəxr etmişdir və yenə də fəxr edə bilər. Onlardan biri də Mirzə Məhəmmədəli Kazım bəydir. Bu böyük alimin siyasi, fəlsəfi və hüquqi məsələlərə dair əsərləri Şərq və Qərb elm aləminin qızıl fonduna daxil olmuşdur.*

Mirzə Kazım bəy 1802-ci il iyunun 22-də Rəşt şəhərində doğulmuşdur. O, 9 yaşında ikən anası ilə birlikdə Rəştdən Dərbəndə atasının yanına getmişdi. Hələ uşaqlıqdan elmi biliklərə dərin maraq göstərən Kazım bəy atasının köməyi ilə müsəlman məzhəbinin tam kursunu bitirmiş, Azərbaycan, tatar, fars dillərini mükəmməl öyrənmişdi. Sonralar altı xarici dildə yaza, oxuya və danışa bilirdi.

O, 1826-cı ilin oktyabr ayında Kazan alimlərinin xahişi ilə ərəb-fars dilləri üzrə lektor (baş müəllim) təyin olundu. Kazım bəy 26 yaşında ikən London Kral Asiya cəmiyyətinin həqiqi üzvü seçildi. İki il keçdikdən sonra fars dilində ərəb filologiyasına dair əsərinə görə Şərq dilçiliyi magistri dərəcəsi aldı. Sənədlərdən məlum olur ki, Kazım bəy universitetə lektor təyin olunanda rus dilini heç bilmirdi. Ona görə də rus dilini əsaslı şəkildə öyrənmək vəzifəsini qarşıya qoyan Kazım bəy çox keçmədən öz mühazirələrini rus dilində oxumağa başlamışdı. O, eyni zamanda Sədinin "Gülüstan" əsərini rus dilinə və Azərbaycan dilinə tərcümə etməyə başlamış və 1829-cu ilin sonunda başa çatdırmışdı.

Kazım bəy Rusiyanın elm aləmində dərin bilikli alim kimi tanınırdı. Ona görə də Kazım bəy Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilmişdi. Kazım bəy böyük rus yazıçısı L.N.Tolstoyla da yaxından tanış idi. L.N.Tolstoy Kazan Universitetinə daxil olmağa hazırlaşan vaxtlar Kazım bəy ona türk və fars dillərini öyrənməyə kömək etmiş və nəticə uğurlu alınmışdı.

Brokhauz və Efronun Ensiklopedik lüğətində Kazım bəy haqqında bu sözlər yazılmışdır: "Şərqşünaslıq sahəsində dərin erudisiyası, Avropa dillərini yaxşı bilməsi Kazım bəyi həm Qərbi Avropanın, həm də Rusiyanın birinci yerdə dayanan şərqşünasları sırasına çıxarmışdır".

1849-cu ildə Sankt-Peterburq Universitetinin rəsmi dəvəti ilə Peterburqa gedən Kazım bəy orada fars dili ilə bərabər ərəb dilini də tədris etmişdi.1854-cü ilin oktyabrında Peterburq Universitetinin Şərq dilləri şöbəsi fakültəyə çevriləndən sonra Kazım bəy oranın ilk dekanı seçilmişdi. Onun təklifi ilə bu fakültədə qədim ərəb, yeni ərəb, fars, osmanlı türkcəsi, Azərbaycan-türk, caqatay, monqol, kalmık, mancur, Çin, qədim yəhudi, yeni yəhudi, gürcü dili və ləhcələrinin tədrisi başlamışdı. Qərbi Avropanın heç bir ölkəsində belə bir iş görülməmişdi. Kazım bəy Şərq dilləri fakültəsində əlavə olaraq xarici əlaqələr, siyasi-iqtisad, mülki hüquq və cinayət hüququ məsələlərinin, latın dilinin və pedaqogikanın tədrisinin aparılmasına nail olmuşdu.

Kazım bəy ərəb, fars, türk və Azərbaycan ədəbi əsərlərinin məxəzlərini və onların qarşılıqlı əlaqələrini tədqiq etmişdir. İslamın meydana gəlməsi dövründən XIX əsrin başlanğıcına qədər ərəb ədəbiyyatının, Firdovsi zamanından fars ədəbiyyatının, Nizamidən başlamış Mirzə Fətəli Axundov dövrünədək Azərbaycan ədəbiyyatının vəziyyəti böyük alimin əsərlərində öz əksini tapmışdır.

Rusiyada XIX əsrin siyasi fəlsəfəsinin təşəkkül tapması Kazım bəyin adı ilə bağlıdır. Bu fəlsəfə indiyədək də öz müasirliyini itirməmişdir.Mirzə Kazım bəy Şərq haqqında dünya elminin inkişafına böyük töhfələr verməkdə aparıcı rol oynayan çox istedadlı alim olmuşdur. Onun bu sahədə yaratdığı elmi məktəbin ən yaxşı ənənələri bizim əsrimizdə də davam etdirilir. Kazım bəy dünya səviyyəli oriyentalist alim, Rusiyada şərqşünaslığın əsasını qoyan çox istedadlı elm dahisi olmuşdur.

Görkəmli şərqşünas alim, tərcüməçi, kamil poliqlot, ağıllı diplomat, ilhamlı şair olan Mirzə Cəfər Əlimərdan bəy oğlu Topçubaşov 1790-cı ildə Gəncə şəhərində anadan olmuşdur. Uşaqlıq yaşlarından Tiflisdə yaşamış M.C.Topçubaşov ilk təhsilini mədrəsədə almış, burada ərəb, fars, türk dillərini və ədəbiyyatını, eləcə də rus və gürcü dillərini də mükəmməl öyrənmişdir. O, 1817-ci ildə İran səfirlərinin heyəti ilə Peterburuqa getmiş Rusiya Xarici İşlər Nazirliyinin Asiya Departamentində tərcüməçi işləmişdir. 1819-cu ildən Peterburqdakı Baş Pedaqoji İnstitutunda ərəb, fars və türk dillərindən dərs demişdir. İşgüzar müəllimin əməyi yüksək qiymətləndirilərək 1823-cü ildə Peterburq univerisitetində fars filologiyası kafedrasına müdir təyin edilmişdir. 1849-cu ilədək M.C.Topçubaşov bu kafedraya rəhbərlik etmişdir.

1849-1867-ci illərdə Rusiya Xarici İşlər Nazirliyinin Asiya departamentinin Şərq Dilləri İnstitutunun professoru olan Mirzə Cəfər bu işdə də işgüzarlığı və fəallığı ilə seçilmişdir. M.C.Topçubaşov 1852-1857-ci illərdə Rusiya Arxeologiya və Numizmatika Cəmiyyətinin müəssisələrində işləmiş və onun Şərq şöbəsinin ilk rəhbəri olmuşdur. Onun təşəbbüsü ilə həmin şöbənin "Xəbərləri" nəşr edilmişdir. Burada Şərq, o cümlədən Azərbaycan Arxeologiyasına dair məqalələr, "Kitabi Dədə-Qorqud" və başqa dastanlardan tərcümələr dərc olunmuşdur.



Rusiya şərqşünaslıq elminin və təhsilinin təşəkkülündə də M. C. Topçubaşovun xidmətləri böyükdür. Bu sahədə onun bir sıra qiymətli kitabaları və məqalələri mövcuddur. O, 50 ilə yaxın fars dilindən külli miqdarda rəsmi sənəd və ədəbiyyatı rus dilinə tərcümə etmişdir. Onun ən böyük xidmətlərindən biri də Şərq ölkələrində işləmək üçün çoxlu sayda diplomatik kadrlar hazırlaması olmuşdur.

İmperator kitabxanasında saxlanılan Şərq əlyazmalarının müxtəsər izahlı biblioqrafiyasının hazırlanması da M.C.Topçubaşova həvalə edilmişdir. V. V. Qriqoryev, O. Y. Senkoviski, Y. U. Kraçkoviski və başqa bu kimi bir sıra rus şərqşünasları Topçubaşovun elmi və pedaqoji fəaliyyətini yüksək qiymətləndirmişlər. Onun Şərq dillərinin öyrənilməsindəki xidmətlərini Qərbi Avropa alimləri də etiraf etmişlər. Əldə etdiyi nəaliyyətlərə görə o, London Kral Asiya Cəmiyyətinin həqiqi üzvü seçilmişdir. A. S. Qriboyedov fars, Q. Y. Senkoviski isə türk dilini Topçubaşovun köməyi ilə öyrənmişlər. Onun 1812-ci il Vətən müharibəsinə həsr olunmuş "Qalibiyyətərənəsi" şeirini və 1835-ci ildə çap olunmuş "İki şeir" kitabçasını böyük rus tənqidçisi V. Q. Belinski müsbət qiymətləndirmişdi.

1869-cu ildə Topçubaşovun şəxsi təşəbbüsü və vəsaiti hesabına hüquqşünaslıq sahəsində dəyərli əsərlər yazan tələbələr üçün Senatın qərarı və imperatorun imzası ilə 100 manat məbləğində "Topçubaşov mükafatı" təsis edilmişdir. O, birinci dərəcəli Müqəddəs Stanislav, ikinci və üçüncü Müqəddəs Vladimir, ikinci dərəcəli Müqəddəs Anna ordenləri, İranın "Şiri-xurşid" ordeni ilə təltif olunmuşdur.

Azərbaycan xalqının böyük oğlu Mirzə CəfərTopçubaşov 4 fevral 1869-cu ildə Peterburq şəhərində vəfat etmişdir.

**Zeynəb Məmmədova**
*Naxçıvan Dövlət Universitetinin*
*Rus və Şərq dilləri kafedrasının müəllimi*

# SƏHNƏMİZİN SOFYASI



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan qədim və zəngin tarixə malikdir. Bu qədim diyar tarixin ayrı-ayrı dövrlərində Azərbaycan mədəniyyətinə, incəsənətinə görkəmli şəxsiyyətlər bəxş etmişdir. Elə bu görkəmli şəxsiyyətlərin mühüm tarixi xidmətlərinin nəticəsidir ki, Naxçıvanda ədəbi, mədəni, elmi fikrin inkişafı bütün dövrlərdə nümunəvi rol oynamışdır.

Azərbaycan teatrının ayrılmaz, zəngin ənənələrə malik, mühüm qollarından biri olan Naxçıvan teatrı maarif və mədəniyyətin mütərəqqi carçısı kimi hər cür maneələrə baxmayaraq sürətli inkişaf etmişdir. 1905-ci ildən başlayaraq Naxçıvanda teatrın fəaliyyəti daha da genişlənmiş, onun repertuar və məzmunu yenilənmişdir.

Teatr yeni məqsəd, yeni amal uğrunda mübarizəyə başlamaqla yalnız maarif və mədəniyyətin təbliği ilə deyil, dövrün siyasi hadisələri ilə zənginləşən, əsərləri ilə səhnəsində səy göstərmiş və məqsədinə nail olmuşdur. 1910-30-cu illərdə Naxçıvan teatrının tarixində daha geniş dönüşlər başlamışdı. Naxçıvan teatrı ilə həmişə təmasda olan Sidqi Ruhulla 1931-ci ildə Naxçıvan teatrına direktor vəzifəsinə dəvət olunur. Sidqi Ruhulla qısa müddətdə teatra yeni gənc həvəskarlar cəlb edir, kadrlarla iş aparırdı.

Naxçıvan teatrının görkəmli artistlərindən İsa Musayev, Əyyub Haqverdiyev, Xədicə Qaziyeva, Firuzə Əlixanova, Rza İsfəndiyarlı və başqaları Sidqi məktəbinin təsiri altında püxtələşən sənətkarlardandır. Sidqi Ruhulla burada işlədiyi müddətdə V.Sekspirin "Otello", Z.Sullerin "Qaçaqlar", N.Qoqolun "Müfəttiş", N.Nərimanovun "Nadir Şah", C.Cabbarlının "Sevil", "Od gəlini", "1905-ci ildə", C.Məmmədquluzadənin "Ölülər" və digər əsərlərə quruluş vermiş, baş rollarda çıxış etmişdir.

Naxçıvan teatr sənətinin inkişafında böyük xidmətləri olan yüzlərlə aktyor və aktrisalarımızın misilsiz xidmətləri olmuşdur. Bu sənətkarların biri haqqında yazmaq istəyirəm: Sofya xanım Hüseynova. 1926-ci ilin soyuq fevral günlərinin birində Naxçıvan Muxtar Respublikası Hərbi Komissarlığının işçilərindən biri olan Həsən İsmayılova bir müjdə verildi-onun qız övladı dünyaya gəlmişdi. Bəli, həmin gün 96-il bundan əvvəl o körpə qızcığaz dünyaya göz acar-acmaz özünün "ilk nəğməsini oxumuşdu". Bu "nəğmə"ni birinci eşidən anası Xədicə xanım o gün təsəvvürünə belə gətirməzdi ki, cəmi üç il sonra bu səs onun üçün yenicə doğmalaşmağa başlayan Naxçıvan Teatrının səhnəsindən yayılacaq.

Sofya xanımın anası Xədicə Bahəddin qızı Qaziyeva Tatarıstan Respublikasının Kazan şəhərində doğulub. Sonra Bakı şəhərinə gələrək burada məskunlaşıb. Ərinin işi ilə əlaqədar 1926-cı ildə Naxçıvana köçüb. Xədicə Qaziyeva uşaqlıqdan gözəl rəqs edir, incəsənətə maraq və həvəs göstərirdi. Naxçıvan teatrının direktoru Əli Xəlilov Xədicə xanım Qaziyevanın məharətini görüb 1927-ci ilin baharında onu teatra dəvət edir.

Bu illərdə Naxçıvan teatrında aktrisa problemi yaranmışdı. Belə bir vaxtda Xədicə xanım cəsarətlə teatr səhnəsinə çıxdı. O, səhnədə ilk dəfə Vano Mçedasvilinin "Qaçaq Kərəm" dramının tamaşasında Sirab rolunu ifa edib. Aktrisanın yaradıcılıq bioqrafiyasında baş rollar ayrıca yer tutur. Əlvan yaradıcılıqlı aktrisa Xədicə xanım Qaziyeva Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunmuş, hər zaman ürəklərdə yaşayan istedadlı aktrisadır.

İstedadlı sənətkarın qızı Sofya xanım üç yaşından körpə nəfəsilə Naxçıvan Dövlət Dram Teatrının səhnəsini isitdi. O günləri Sofya xanım belə xatırlayırdı: "Anam deyərdi ki, 1929-cu il 8 martda C.Cabbarlının "Sevil" tamaşasını oynayırdıq. Həmin tamaşanın quruluşçu rejisoru Səməd Mövləvi olmuşdur. Gündüzün (Sevilin oğlu) körpə vaxtlarını, yəni sözsüz anlarını mən oynamışam. Belə çıxır ki,üç yaşından səhnədəyəm". Sofya xanımın səhnədə ilk sözlü rolu isə Səməd Vurğunun "Vaqif" dramındakı gürcü qızı Tamara olmuşdur. Sofya Hüseynova yaradıcılığı boyu üç istiqamətdə rollar oynayıb.

*1.Dramatik-psixoloji zəmində işlənmiş müxtəlif çalarlı bədii obrazlar;*

*2.Sırf komik səciyyəli, zərif yumorlu sadə məişət personajları;*

*3.Tipik- psixoloji, satirik çalarlı komediya personajları;*

Sofya Hüseynovanın obrazları həyatiliyi və real bədii təsvirləri ilə həmişə orijinal görünmüşdür.

Yaradıcılığının mayası musiqi ilə yoğrulmuş Sofya xanım hələ kiçik yaşlarından rəqqasəlik etmiş, milli oyun havalarının mürəkkəb və lirik incəliklərinə yiyələnmişdir. Mənalı və ifadəli, mehriban, səmimi ifadə vasitələrilə cilvələnən improvizənin mahir ustası idi. Onun səhnə məharəti o qədər güclü, səmimiyyəti o dərəcədə sirayət edici, daxili aləminin ziyası elə məftunedici idi ki, o xüsusiyyət mütləq aktrisanın oyununda bədii təcəssümünü tapırdı.

Sofya Hüseynova səhnədə milli və əcnəbi klassik dramaturqların, pyeslərinin tamaşalarında müxtəlif obrazları canlandırmışdır. Sofya xanım həmişə rola oynamaq yox, yaratmaq prinsipi ilə yanaşmış və ciddi axtarışların köməyinə çatmışdır. Teatrda görkəmli sənətkarın sambalı, məzmunlu, baxımlı rolları çoxdur. Təsadüfi deyildir ki, Sofya xanım Hüseynovanın məharət və ustalıqla yaratdığı obrazlar haqqında adlı-sanlı alimlər, teatrşunaslar, teatr biliciləri qiymətli fikirlər söyləmişlər.

Onun yaratdığı qadın surətləri sentimental, süni pafosdan, isterikadan uzaq, təbii baxımlı bir səhnə surətidir. Bir çox adlı-sanlı teatr tənqidçiləri – İlham Rəhimli, Cabir Səfərov, Adil Babayev, İnqilab Kərimov, Elmira Əliyeva... Sofya xanımın rolları barədə maraqlı fikirlər söyləmişlər.

Sofya xanım Hüseynovanın ustalıqla, əsl professional səviyyədə yaratdığı obrazlar həmişə tamaşaçının, ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Sofya xanım üç yaşında səhnəyə gəldi, həyatını Naxçıvan teatrına bağladı, özü anasının, iki oğlu isə onun sənətinin davamçısı oldu. Sənət ənənəsi Sofya xanımın ailəsində davam etmişdir. Əgər Xədicə xanım səhnəmizə Sofya Hüseynovanı veribsə, Sofya xanım Azərbaycan teatr sənətinə Rafael Dadaşov və Rövşən Hüseynov kimi iki xalq artisti bəxş edib.

Sofya xanımın böyük oğlu Rafael Dadaşovun (1946-2020) aktyorluq yaradıcılığı müasir Azərbaycan mədəniyyətində özünəməxsus yer tutur. Rafael Dadaşov teatr aləminə qədəm qoyduğu ilk vaxtlardan sənətsevərlik qəbinə yol tapmağa müvəffəq olmuşdur. O, Akademik Milli Dram Teatrının səhnəsində uzun illər ərzində müvəffəqiyyətlə çıxış



edərək, yüzlərlə müxtəlif xarakterli yadda qalan obrazlar qalareyası yaratmışdır. Onun Azərbaycan mədəniyyətinin inkişafı sahəsində göstərdiyi xidmətlər layiqincə qiymətləndirilmişdir.

O, 1987-ci ildə respublikanın Əməkdar artisti, 2006-cı ildə Xalq artisti fəxri adına layiq görülmüş, 2019-cu il müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından biri olan "Şöhrət"ordeni ilə təltif edilmişdir. Onun əziz xatirəsi həmişə ürəklərdə yaşayacaq.

Sofya xanım Hüseynovanın ikinci oğlu Rövşən Hüseynovun teatr aləminə gəlişi hələ uşaqlıq vaxtlarından başlayıb. O, vaxtlar Rövşənin anası Sofya xanım, atası, nənəsi də teatrda fəaliyyət göstərirdilər. Maqsud Hüseynov fədakar mədəniyyət işçisi idi, uzun illər Naxçıvan teatrında baş inzibatçı işləmiş, həmdə kamança ustası kimi fəaliyyət göstərmişdir.

Sofya xanımın oğlu Rövşən Hüseynovun sənət aləminə, aktyorluğa məhəbbəti məhz ailə ənənəsindən yaranmışdır. Rövşən Hüseynov xarakter ustasıdır. Yaratdığı obrazlara yaradıcı münasibət bəsləyir. O, həm də quruluşcu rejisor kimi fəaliyyət göstərir. Rövşən Hüseynov Azərbaycan Respublikasının Əməkdar artistidir. Onun Naxçıvan teatrının inkişafında böyük xidmətləri olmuşdur. Sofya xanımın hətta ortancıl oğlu İbrahim Maqsud oğlu Hüseynov da incəsənət aləmində fəaliyyət göstərib. Nağara ustası kimi uzun illər Naxçıvan teatrında işləmişdir. 1970-ci illərdə isə Azərbaycan Dövlət Filarmoniyasında konsert birliyində çalışmış,müğənni Zara Qədimova ilə bir neçə qastrollarda olmuşdur. Ansanbılda İbrahim Hüseynov, Sara Məmmədova ilə çalışmış,həmçinin Azərkonsert birliyində Müğənni Kifayət Gəncəlini müşayyət etmişdir.

Prezident təqaüdçüsü olan Sofya Hüseynova, onu sevən və təbliğ edən, sənətə qiymət verən ümummilli lider Heydər Əliyevin qərarı ilə vətənin yüksək mükafatına "Şöhrət ordeni"nə layiq görülmüşdür. Qədirbilən dövlətimiz həmişə onun əməyini qiymətləndirib, təltif və mükafatlara layiq görmüşdür. Heydər Əliyev Sofya xanıma "Şöhrət"ordeni təqdim edərkən belə demişdir: ***"Mən teatra həmişə bağlı olmuşam. Xədicə xanım və qızı Sofya xanımın əsl professional səviyyədə yaratdığı obrazları həmişə təqdirə layiq hesab etmişəm. Bu iki böyük sənətkara həmişə hörmətim olmuşdur. Gənclər belə sənətkarlardan nümunə götürməlidirlər".***

***Aidə Novruzova***
***Orkestr alətləri və drijorluq kafedrasının müəllimi***

***Kifayət Hüseynova***
***Bədən tərbiyə və idman kafedrasının müəllimi***

# ƏHMƏD CAVAD YARADICILIĞININ LİNQVİSTİK CƏHƏTLƏRİ HAQQINDA

Əhməd Cavad yaradıcılığının linqvistik baxımdan araşdırılması maraqlı məsələlərdəndir. Ona görə ki, onun dilində çağdaş dilimizlə müqayisədə çox sayda maraqlı materiallar müşahidə etmək olar. Şairin dili, əvvəla, folklor axıcılığı ilə seçilir. Bunu iki cəhətlə əlaqələmndirmək mümkündür:

*1. Şair ana dilimizin, xüsusilə də xalq danışıq dilinin özəlliklərinə dərindən bələddir.*

*2. Əhməd Cavadın özü bayatılar müəllifi kimi də tanınır.*

Məlumdur ki, bayatı, ağız ədəbiyyatına aid olan janrdır. Lakin Azərbaycan ədəbi aləmində bayatı yazan, folklor janrını yazılı ədəbiyyata gətirən şairlər də vardır və onlardan biri Əhməd Cavaddır:

*Bulaqda beş yaxa var,*
*Gümüşdən aftafa var.*
*Maral qızın başında,*
*İpəkdən alafa var*

Əhməd Cavadın elə bayatıları vardır ki, onlar Azərbaycan bayatıları sırasına daxil edilərək müəllifinin unudulmasına səbəb olmuşdur. Lakin Əhməd Cavadın yazdığı bayatılar seçilmiş əsərlərində çap edilərək qorunmuşdur. Onun bir sıra bayatıları musiqi əsərlərinin məzmununa layiq görülmüşdür:

*İstəkanın sarısı,*
*İçdim, qaldı yarısı.*
*Ay qız, insafdan çıxma,*
*İnsaf dinin yarısı*

Əhməd Cavadın dilində xüsusi adlar mühüm mövqeyə malikdir. Bu mənada, onun dilindəki antroponimlər və toponimlər kəmiyyət çoxluğu ilə fərqlənir. Şairin təkcə "İngilis" adlı şerinin dilində altı ədəd toponim işlənmişdir – Bakı, Xan sarayı, Kəbə, Çanaqqala, Hindistan, Turan. Şairin şeirlərindəki toponimlər müxtəlif coğrafi məkanları bildirir və qədimliyi ilə seçilir. Buradakı xüsusi adların çoxu milli mənşəlidir. Əhməd Cavadın qələmə aldığı onomastika örnəkləri şairin zəngin dünyagörüşünü ifadə edir: "Türklərin ən qədim dövrlərdən başlayaraq zəngin ruhimənəvi aləmə, geniş dünyagörüşünə, xüsusilə çevik – praktik təfəkkürə malik olduqları heç bir şübhə doğurmur. Və bunu həm türk, həm də qeyri-türk mənşəli istər şifahi, istərsə də yazılı mənbələr dönə-dönə təsdiq edir". Xüsusi adları poetikləşdirərək üslub materialına çevirmək Əhməd Cavadın sənətkarlıq keyfiyyətləri ilə bağlıdır.

Əhməd Cavadın müraciət etdiyi toponimlər arasında "Turan" və "Türküstan" sözləri də zövqlə işlənmişdir:

*İsmarladım nişanlıma -*
*Mən Turana gediyorum.*
*Qardaşımı qurtarmağa*
*Türküstana gediyorum!*

İlk baxışda adlar adi bir söz kimi götünür və onların mahiyyəti olduğundan az dərk edilir. Lakin adlar yox olsa, dünyanın məkanları qarışar, dilin leksikası kasıblaşar, dünya coğrafiyası alt-üst olar. Təsadüfi deyildir ki, yer adları insanın yaşam boyu əldə etdiyi maddilər və mənəvilərin əsas cəhətlərini özündə yaşadan zəruri dəyərlərdən biridir. Bədii dildə adların əhəmiyyəti böyük, üslub çalarları çoxdur. Bu baxımdan, onomastik vahidlər Əhməd Cavadın mədəni-etnoqrafik yaradıcılıq imkanlarının ifadəçisi kimi özünü göstərir.

Bundan başqa, Əhməd Cavadın dili ümumtürk elemenrləri ilə zəngindir:

*Bəlkə sən anmadın mənim adımı,*
*Bilməm, xatirində yerim qaldımı?*
*Mən bir çiçək quşu – pozmam andımı,*
*Güllər bilməsə də, tikanlar bilər*

Şeirin dilindəki "pozmam" feli söz kökü, inkarlıq əlaməti və qeyri-qəti gələcək zaman şəkilçisindən ibarətdir və "pozmaram" sözünün ixtisar formasıdır və bu əlamət türk dili üçün səciyyəvi olsa da, bir zaman bizim dilimizdə də işlənmişdir.

*Keçirdim dərd ilə çox qışı, yazı*
*Həsrətlə bəklərkən o sərvinazı*
*Qoca taxta bir gəmi ümmanlarda qalqaxdı.*
*Üfuqlərdə göyərçin bəkləyən Nuhi gördüm*

"Bəkləmək" qədim dövrlərdən ümumtürk leksikasının fəal vahidi olmuş, XX əsrin əvvəli üçün Azərbaycan dilinin lüğət tərkibində də işlək olmuş, həmin yüzilliyin 30-cu illərində onun aktivliyi azalmış və dilimizdən çıxmışdır. Lakin çağdaş türk dili üçün səciyyəvidir.

Yazdığı əsərlərin ideyasından Əhməd Cavadın məqsədi və düşündükləri aydın olur:

*Baxsın bəsirətsiz gəlib keçənlər,*
*Doğrunun yerinə əyri seçənlər;*
*Bilsin bu haqq sözə kəfən biçənlər*
*Ki, mənim eşqimin Quranı aydın!*

Beləliklə, Əhməd Cavadın dili zəngin linqvistik xüsusiyyətlərə malikdir.

**Qənirə Əsgərova**
*Azərbaycan dili və ədəbiyyatı kafedrasının dosenti*

# UNİVERSİTETDƏ FƏALİYYƏT GÖSTƏRƏN BADMİNTON KLUBUNUN TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB



Ali təhsil müəssisəsində keçirilən görüşdə universitetin rektoru Elbrus İsayev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"na əsasən muxtar respublikada idmanın inkişafı sahəsində aparılan ardıcıl tədbirlərin böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində böyük rol oynadığını diqqətə çatdırıb. Rektor universitet nəzdində yaradılan badminton klubunu bunun bariz göstəricisi, gənclərin bu sahədə inkişafına göstərilən dövlət qayğısının bir nümunəsi kimi qiymətləndirib. Qeyd edilib ki, ali təhsil ocağında klubun yaradılmasında məqsəd badminton idman növünün təbliği, peşəkar idmançıların hazırlanması və tələbələrin bu sahəyə olan həvəsini artırmaqdır. Universitetin Pedaqoji fakültəsinin nəzdində 2000-ci ildə yaradılan İdman muzeyi, ali təhsil ocağında idmanın 16 növü üzrə keçirilən məşğələlər haqqında ətraflı məlumat verən Elbrus İsayev, ali təhsil ocağının məşqçilərinin və tələbələrinin muxtar respublikanı həm respublika, həm də beynəlxalq turnirlərdə təmsil etdiklərini vurğulayıb. Bildirilib ki, badminton seçmə fənn kimi universitetin Pedaqoji fakültəsinin Məşqçilik ixtisasında tədris olunur, həmçinin dərs prosesindən sonra məşğələlər təşkil edilir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Ramil Hacı çıxış edərək ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər və idman siyasətindən danışıb. Qeyd edilib ki, bu sahədə aparılan məqsədyönlü siyasət nəticəsində ölkəmiz bir sıra idman yeniliklərinə imza atıb, Azərbaycanda böyük idman infrastrukturu yaradılıb, respublikamız dünyada idman ölkəsi kimi tanınmağa başlayıb. Vurğulanıb ki, müasir dövrdə muxtar respublikada idmanın inkişafı üçün də dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilir. İdman sahəsində edilən yeniliklər, qazanılan uğurlardan söz açan nazir muxtar respublikada 12 idman federasiyasının mövcudluğunu diqqətə çatdırıb.

Azərbaycan Badminton Federasiyasının prezidenti Taleh Ziyadov federasiyanın 1962-ci ildə Bakı şəhərində yaradıldığını, 1996-cı ildə isə yenidən təsis edildiyini qeyd edib. Bildirilib ki, Azərbaycan Badminton Federasiyası 1998-ci ildən Beynəlxalq Badminton Federasiyasının və Avropa Badminton Federasiyasının üzvüdür. Diqqətə çatdırıb ki, Naxçıvan Dövlət Universitetində badminton klubunun yaradılması badminton idman növünün kütləviliyinə nail olmaq məqsədi daşıyır. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında badminton ənənəsi artıq 30 ildir mövcuddur və yeni yaradılan klub bu idman növünün daha sistemli inkişafına zəmin yaradacaq.

Sonra 27 iyun – 4 iyul tarixlərində İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən badminton üzrə "Level-1" məşqçilik kurslarını bitirən fiziki tərbiyə müəllimlərinə və tələbələrə sertifikatlar təqdim olunub.

Sonda ali təhsil müəssisəsinin idman zalı ilə tanışlıq zamanı universitetin rektoru Elbrus İsayev, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Ramil Hacı və Azərbaycan Badminton Federasiyasının prezidenti Taleh Ziyadovun nümayiş etdirdiyi badminton oyunu yaddaqalan olub.

**Məmmədbağır Dünyamalıyev**
*NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı*

# BASKETBOL ÜZRƏ SEÇMƏ YARIŞLARIN AÇILIŞI OLUB

*Ali təhsil ocağının I kursda təhsil alan tələbələri arasında basketbol üzrə seçmə yarışların açılış mərasimi keçirilib.*

Universitetin idman kompleksində təşkil olunan tədbirdə ali təhsil müəssisəsinin rektoru Elbrus İsayev Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına göstərilən dövlət qayğısından bəhs edib. Yaradılan şəraitin nəticəsidir ki,ali təhsil ocağının tələbələri də muxtar respublika və ölkə səviyyəli idman turnirlərində uğurla çıxış edirlər.

Ali təhsil ocağında 16 idman növü üzrə keçirilən məşğələlərdən söz açan Elbrus İsayev universitetin məşqçilərinin və tələbələrinin muxtar respublikanı həm respublika, həm də beynəlxalq turnirlərdə müxtəlif idman növləri üzrə təmsil etdiklərini vurğulayıb. Qeyd edilib ki, basketbol üzrə də tələbələr universiteti ölkə üzrə ali təhsil müəssisələri arasında təşkil olunan yarışlarda, həmçinin Türkiyənin bir çox nüfuzlu universitetlərinin basketbol komandaları ilə baş tutan görüşlərdə layiqincə təmsil ediblər. Rektor ənənəvi olaraq keçirilən yarışların əhəmiyyətini vurğulayıb, komandalara uğurlar arzulayaraq, yarışı açıq elan edib.

Universitetin "Bədən tərbiyəsi" kafedrasının dosenti, İdman klubunun sədri Məmmədəli Rəhimov keçirilən yarışların məqsəd və vəzifələri haqqında iştirakçıları məlumatlandırıb. Diqqətə çatdırılıb ki, baş tutan yarışlar basketbol idman növünü təbliğ etmək, istedadlı tələbələri seçərək yığma komandanın tərkibinə salmaq, tələbələri basketbol məşqlərinə cəlb etmək və onların asudə vaxtlarının daha səmərəli təşkil olunması məqsədini daşıyır.

Sonra oyuna start verilib. Beynəlxalq Basketbol Federasiyasının mövcud qaydalarına əsasən keçirilən qarşılaşmada ümumilikdə 8 komanda iştirak edib.

Gərgin mübarizə şəraitində baş tutan oyunların sonunda Tibb fakültəsinin komandası İqtisadiyyat və idarəetmə fakültəsinin komandasına 34:13 hesabı ilə qalib gələrək I yerin sahibi olub.

İqtisadiyyat və idarəetmə fakültəsi müvafiq olaraq II, Memarlıq və mühəndislik fakültəsi ilə Pedaqoji fakütənin komandası isə III yerdə qərarlaşıb.

***"Yeni fikir"***

# TƏBİİ MÖCÜZƏ OLAN ZƏNCƏFİLİN FAYDALARI

Zəncəfil Cənub-Şərqi Asiyada yaranan çiçəkli bitkidir. Bu, planetin ən sağlam və ən dadlı ədviyyatlarından biridir. Zingiberaceae ailəsinə aiddir. Zəncəfil təzə, qurudulmuş, toz halında, yağ və ya şirə kimi istifadə edilə bilər. Ən çox təzə və qurudulmuş formada istifadə edilir. Quru zəncəfil zəncəfilin kökümsov gövdəsinin qurudulmuş və toz halına salınmış formasıdır. Zəncəfil min illərdir Çin və Hindistanda istifadə olunur. Eramızın birinci əsrində Aralıq dənizinə gətirildi, indi isə orta əsrlər Avropa mətbəxinin mühüm tərkib hissəsidir.

Zəncəfil ən qədim ədviyyatlardan biri hesab olunur. Cənub-Şərqi Asiyanın sakinləri onu bir neçə minilliklər əvvəl yetişdirməyə başladılar. Zəncəfil tonik, qızdırmasalıcı və təmizləyici vasitə kimi tibb haqqında qədim Çin, Hindistan və Fars traktatlarında qeyd olunur.

Zəncəfil ənənəvi və alternativ təbabətin müxtəlif formalarında çox uzun bir istifadə tarixinə malikdir. İnsanlar qədim zamanlardan yemək və tibbdə zəncəfildən istifadə ediblər. Zəncəfil yalnız yeməyə ləzzətli dad vermir, həm də qidalandırıcı maddələrlə zəngindir. Tərkibində B3 vitamini, B6 vitamini, C vitamini, dəmir, kalium, maqnezium, fosfor, sink, fol turşusu və s. kimi vitamin və minerallar var. Həzmə kömək etmək, ürəkbulanmanı azaltmaq və qrip və soyuqdəymə ilə mübarizədə kömək etmək üçün istifadə edilmişdir.

Zəncəfilin özünəməxsus qoxusu və ləzzəti onun təbii yağlarından gəlir ki, bunlardan ən əsası gingeroldur. Gingerol zəncəfildəki əsas bioaktiv birləşmədir. Zəncəfilin müalicəvi xüsusiyyətlərinin əksəriyyəti bu maddədən irəli gəlir. Tədqiqatlara görə gingerol güclü iltihabəleyhinə və antioksidant təsirlərə malikdir. Digər təsirlərinə aşağıdakılar aiddir:

***Ürəkbulanmaya qarşı çox təsirlidir***

Müəyyən növ əməliyyatlar keçirən insanlar üçün ürəkbulanma və qusmanı aradan qaldırmağa kömək edir. 2020-ci ildə aparılan bir araşdırmaya görə xərçəng müalicəsindən (kimyaterapiya) sonra ürəkbulanmanı aradan qaldırmağa kömək edir.

***Çəki atmağa kömək edir***

Aparılan araşdırmalar zəncəfilin metabolizmanı sürətləndirdiyini göstərir. Ədviyyat qan şəkərini azaldır və yağların parçalanmasından məsul olan fermentlərin istehsalını stimullaşdırır. Zəncəfilin uzun müddət tox saxladığı da sübut edilmişdir.

***Mikroblarla mübarizə aparır***

Zəncəfil antibakterial xüsusiyyətlərə malikdir. Təzə zəncəfilin tərkibindəki bəzi kimyəvi birləşmələr bədəni mikroblardan qorumağa kömək edir. Onlar E.coli və shigella kimi bakteriyaların böyüməsinin qarşısını almaqla yanaşı və



bəzi viruslara qarşı da mübarizə aparırlar. Antibakterial faydalar bununla bitmir. Ağız sağlamlığında zəncəfilin periodontitə səbəb olan patogenlərin böyüməsinə maneə törətdiyi göstərilmişdir.

***İltihabı azaldır***

İltihab sağlam insanlarda da təbii olaraq baş verir. Bu, bədəni xəstəliklərdən qorumaq üçün bədənin göstərdiyi təbii cavab reaksiyasıdır. Ancaq iltihab həddindən artıq və ya xroniki olduqda, bu halda bədənə çox zərər verə bilər. Əslində, tədqiqatçıların fikrincə xroniki iltihab ürək xəstəlikləri, autoimmun xəstəliklər və xərçəng kimi bir çox xəstəliklərin kökündə yatan səbəbdir. Çiy zəncəfilin tərkibindəki aktiv komponentlər iltihab əleyhinə təsirə malikdir.

***Menstruasiya ağrısını azaldır***

Əsrlər boyu zəncəfil, menstruasiya ilə müşayiət olunan ağrı sindromu olan dismenoreya üçün təsirli bir vasitə kimi istifadə edilmişdir. 2009-cu ildə aparılan bir araşdırmaya görə, gündə iki-üç dəfə 250 mq zəncəfil qəbul etmək, dismenoreya ağrısını məşhur ağrı kəsici ibuprofen kimi effektiv şəkildə aradan qaldıra bilər.

***Həzmə kömək edir***

Zəncəfil orta əsrlərdən bəri həzm sistemini gücləndirən bir vasitə kimi qiymətləndirilmişdir. Zəncəfil həddən artıq aktiv mədə ağrılarını sakitləşdirir, mədə möhtəviyyatının bağırsaqlara daxil olmasına imkan verir (bu həm də mədə yanmasını azaltmağa kömək edə bilər). Zəncəfil bədənin qidanı mədədən daha tez boşaltma qabiliyyətini artırmağa kömək edir Tərkibində zülalın həzminə kömək edən zingibain adlı bir ferment də var.

***Artritə kömək edir***

Zəncəfilin tərkibində kökə kəskin dad verən fenolik birləşmə olan gingerol var. Güclü iltihabəleyhinə xüsusiyyətlərə malik olduğu üçün ənənəvi tibbdə zəncəfil oynaqların xəstəliklərini - artrit və artrozu müalicə etmək üçün istifadə olunur. 2014-cü ildə aparılan bir araşdırma sübut edir ki, zəncəfil iltihablı oynaqlarda ağrıları aradan qaldırmaqda, həmçinin onların hərəkətliliyini artırmaqda təsirli olur.

***Xərçəngə qarşı mübarizə aparır***

Əhali arasında aparılan araşdırmalar göstərir ki, Cənub-Şərqi Asiya ölkələrində yaşayanlar Qərb dünyasındakı insanlardan daha az xərçəng xəstəliyinə tutulurlar. Onların qidalandıqları bəzi bitkilərin xərçəng əleyhinə xüsusiyyətlərə malik olduğu düşünülür ki, zəncəfil onlardan biri ola bilər.

***Diabet üçün təsirlidir***

Bir neçə araşdırmaya görə, zəncəfil qan şəkərini aşağı sala bilər. Bundan əlavə, zəncəfilin iltihabəleyhinə xüsusiyyətləri diabetin ikincili simptomlarını - şişkinliyi və iltihabı - aradan qaldırmağa kömək edir.

***Qan təzyiqini normaya salır***

Heyvanlar (siçovul) üzərində aparılan tədqiqatlar göstərib ki, zəncəfil yüksək təzyiqi idarə etməyə kömək edir. Zəncəfilin kalsium kanal blokatorlarına bənzər şəkildə (daha zəif bir şəkildə) hərəkət edə biləcəyi düşünülür. Bir neçə ay ərzində zəncəfil hamar əzələlərin rahatlamasına və qan damarlarının daha elastik olmasına kömək edə bilər. Hamar əzələlərin rahatlaması da astmatiklər üçün faydalı ola bilər.

***Xolesterol səviyyəsinə müsbət təsir edir***

Yuxarıda qeyd edildiyi kimi, zəncəfil qan təzyiqini azaltmaqda yanaşı, xolesterol səviyyələri üçün də faydalıdır. Zəncəfilin xolesterol səviyyəsini azaltdığı, xüsusən də aşağı sıxlıqlı lipoproteinləri (LDL) azaltdığı aşkar edilmişdir. Lipoproteinlər damarlarda yağ yığılmasına kömək edir. Bu yağ yığılması ateroskleroz kimi tanınır və infarkt riskini artırır.

***Zəncəfil beyin və ürək-damar sisteminin işini yaxşılaşdırır***

Zəngin vitamin və mineral tərkibinə görə zəncəfil beyin və ürək-damar sisteminin fəaliyyətinə müsbət təsir göstərən məhsullara aid edilə bilər. Bu, həm də qan xassələrinin yaxşılaşdırılması ilə bağlıdır ki, bu, şübhəsiz ki, həm qan damarları, həm də ümumiyyətlə toxuma, qaz mübadiləsi üçün vacibdir. Zəncəfil anti-sklerotik təsirə malikdir, qanda xolesterinin səviyyəsini aşağı salır, qan damarlarının divarlarında yağlı çöküntülərin əmələ gəlməsinin qarşısını alır və artıq mövcud olan xolesterin lövhələrinin əriməsinə faydalı təsir göstərir.

Koqnitiv funksiyaları gücləndirmək ədviyyatlı bitkinin əsas xüsusiyyətlərindən biridir. Onun müntəzəm istifadəsi ilə diqqətin konsentrasiyası artır, yaddaş güclənir, nitq funksiyaları yaxşılaşır.

**Solmaz Əsgərova**
**Əczaçılıq və biokimya kafedrasının müəllimi**

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 600

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.